# Xalq qəzeti

Xalqın qəzeti!

№ 81 (30775) 24 aprel 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan–Çin hərtərəfli strateji tərəfdaşlığı bir pillə də yüksəldi



Səhifə ⇨ 2

## BAKI–PEKİN: etimadın qarşılıqlı əməkdaşlıq təntənəsi

*Yaxud qlobal hegemonluğa qarşı qlobal fayda nümunəsi*



**Qətiyyətlə deyə bilərik ki, Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı aprelin 23-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması ötən il iyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin ruhunun daha dolğun ifadəsidir. Birgə Bəyanat, həmçinin, Bakı–Pekin münasibətlərinin ardıcılıq göstəricisi kimi müstəsna önəm daşımaqdadır.**

Əlbəttə, Azərbaycan–Çin əməkdaşlığının prioritetlərini, eləcə də dövlətimizin başçısının dünyanın ən böyük iqtisadiyyatlarından birinə sahib ölkəyə dövlət səfərinin əhəmiyyətini vurğulayan digər çoxsaylı məqamlar var. Əvvəla, səfər bilavasitə Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə gerçəkləşib. Deməli, dövlət rəhbərləri səviyyəsində yüksək inam və etimad mühiti mövcuddur. Bu amil isə 1992-ci ildən əsası qoyulmuş qarşılıqlı münasibətləri həm möhkəmləndirir, həm əlaqələri yeni şərtlərə uyğun formalaşdırmaq əzmini gücləndirir, həm də gələcək üçün etibarlı baza yaratmaq potensialını artırır. Nəticə etibarilə bir dolğun qənaət də formalaşır ki, dünyanın qlobal gücü olan Çin Azərbaycana müstəsna dəyər verir. Şübhəsiz ki, bu dəyər dövlətimizin başçısının liderlik keyfiyyətlərindən qaynaqlanır.

Nəzərə alaq ki, XXI əsrin Çini münasibətlərin etibarlılıq simvoludur. Mövcud xarakter ölkənin bütün sahələrə yanaşmasının başlıca paradiqmasıdır və daim özünün təzahür formalarını qoruyacaq keyfiyyət zənginliyinin rəhnidir. Bu xarakter, eyni zamanda, Çinin ətrafa yanaşmasının da başlıca meyarı, ölçü vahididir. Yəni, ölkə partnyorlarını da özünün daşıdığı etibarlı xarakterə uyğun müəyyənləşdirir.

*(ardı 6-cı səhifədə)*

# Şərqə doğru baxış: Azərbaycanın diplomatik seçimi



Səhifə ⇨ 6

## Erməniliyin cəfəngiyyatı və ərazi iddiaları

**Qondarma "erməni soyqırımı"ndan 110 il keçir. Dünyadakı hay millətçiləri və ermənipərəst dairələr bununla əlaqədar vayşivən kampaniyası aparırlar. "Kampaniyanın" müxtəlif hədəfləri var. Böyük hədəf Türkiyədir. Hay avantüristləri, həmişəki kimi, 1915-ci ildə Osmanlı İmperiyasında yaşananlara görə Ankaraya ittihamlar yağdırırlar.**

Sən demə, Türkiyə "erməni soyqırımı"nı qəbul etməli və faciə qurbanlarına təzminat ödəməli imiş. Əlbəttə, belə bir durum mümkün deyil. Təkcə ona görə yox ki, hazırda qardaş ölkənin dünyadakı mövqeyi güclüdür. Ən başlıcası, o səbəbdən ki, etiraf olunmalı və qəbul edilməli nə isə yoxdur. Amma tarix var və onunla bağlı qısa arayış verəcəyik. Ən sonda isə Bakının İrəvanla sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü Ermənistan konstitusiyasına dəyişiklik şərtinə "erməni soyqırmı" cəfəngiyyatı kontekstində yanaşacaq, bəzi digər məqamları diqqətə çatdıracağıq.

*(ardı 10-cu səhifədə)*



## "Brüsselsayağı suflyorluq"



Səhifə ⇨ 8

## London görüşü niyə təxirə salındı?



Səhifə ⇨ 15

## "Daşnaksütyun"un yeni hoqqası

*"Məşəl yürüşü" adı altında təxribatlar törədən qüvvəyə haylar bir daha "yox!" dedilər*



**Ermənistanda 20 il (1998–2018-ci illərdə) hakimiyyətdə olmuş, yenidən iqtidara gəlməyə can atan "Qarabağ klanı" adlandırılan radikal revanşist kəsim yenidən fəallaşmağa cəhd edir. Suda boğulan saman çöpündən yapışdığı kimi, revanşistlər "bəlkə də qaytardılar" eşqi ilə istənilən hadisədən cəmiyyətdə qarışıqlıq salmaq, qarşıdurma yaratmaq, son nəticədə hakimiyyətə qayıtmaq üçün yararlanmağa çalışırlar.**

Belə hadisələrdən biri qondarma "erməni soyqırımı"nın 110-cu ildönümü ərəfəsində – aprelin 23-də təşkil edilən "məşəl yürüşü" adlanan tədbir olub. Bu barədə "Daşnaksütyun" erməni inqilabi federasiyasının ali orqanının ictimaiyyətlə əlaqələr ofisinin yaydığı məlumatda bildirilib. Daşnaklar Ermənistanda yaşayan bütün erməniləri "inkarlara qarşı mübarizə və ayrılmaz hüquqlar" naminə qondarma olayların 110-cu ildönümü ərəfəsində təşkil edilən ənənəvi yürüşdə iştirak etməyə çağırıblar. Axşamüstü İrəvanın "Respublika" meydanından başlanan aksiya Əmiryan küçəsi, Maştos prospekti, Baqramyan prospekti, Kiyevyan küçəsi marşrutu üzrə davam edib.

*(ardı 8-ci səhifədə)*

# Azərbaycan–Çin hərtərəfli strateji tərəfdaşlığı bir pillə də yüksəldi

## Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri

### Pekində rəsmi qarşılanma mərasimi









**Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 23-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Çin nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Çin Xalq Respublikasının Sədri Si Cinpinə təqdim olundu. Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi. Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi. Dövlət başçıları rəsmi foto çəkdirdilər.

### Geniş tərkibdə görüş



**Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.**

Sədr Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafını və əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd etdi.

Söhbət zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan Birgə Bəyannamə məmnunluqla xatırlandı. Bu gün dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyanatda isə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinin daha bir pillə yüksələcəyi qeyd edildi.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunuldu.

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirdi.

Görüşdə Azərbaycanın və Çinin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulandı. Dövlətimizin başçısı "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd etdi. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olundu.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev buna görə təşəkkürünü bildirərək, COP29 çərçivəsində qlobal iqlim gündəliyi üçün vacib qərarların qəbul edildiyini xatırladı.

Dövlətimizin başçısı öz növbəsində Si Cinpinin müdrik rəhbərliyi ilə Çinin inkişafına toxundu.

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğu bildirildi, artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlərin imzalandığı və praktiki əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunuldu, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri qeyd olundu.

Ticarət dövriyyəmizin son dövrlərdə 20 faizdən çox artması müsbət qiymətləndirildi.

Çin Xalq Respublikasının Sədri "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycanın olduğunu məmnunluqla xatırladı. Bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq məsələlərinin perspektivləri müzakirə olundu.

Son dövrlərdə Orta Dəhliz vasitəsilə Çindən Avropaya gedən yüklərin həcmində artım dinamikası məmnunluqla qeyd edildi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.

Strateji tərəfdaşlığa dair Birgə Bəyanatda qeyd edildiyi kimi, Azərbaycanın Qlobal Təhlükəsizlik, Qlobal İnkişaf və Qlobal Sivilizasiyalar, həmçinin bəşəriyyətin vahid taleyi kimi Çinin təşəbbüslərini dəstəklədiyi bildirildi, bununla bağlı əməkdaşlıq məsələlərinə toxunuldu.

Si Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət etdi.

Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul etdi.

### Azərbaycan–Çin sənədləri imzalanıb



**Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.**

Əvvəlcə Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"i və "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin xarici işlər naziri Van İ imzaladılar.

"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"ni Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin xarici işlər naziri Van İ imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Agentliyinin direktoru Çen Siadon imzaladılar.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan–Çin hərtərəfli strateji tərəfdaşlığı bir pillə də yüksəldi

## *Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb*

## “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə 2025-ci il aprelin 22-dən 24-dək Çin Xalq Respublikasına dövlət səfəri etmişdir. Hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar apardılar. Hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul etdilər.**



**1.** Tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, “Tayvanın müstəqilliyi”nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir.

Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

**2.** Tərəflər strateji oriyentir kimi dövlət başçılarının diplomatiyasını və ən yüksək səviyyədəki mühüm razılaşmaları rəhbər tutacaqlarını, ikitərəfli münasibətlərin davamlı və uzunmüddətli inkişafını təşviq edəcəklərini bəyan etdilər.

Tərəflər Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında siyasi dialoqun möhkəmləndirilməsini dəstəkləyirlər. Hər iki tərəf praktiki əməkdaşlığı irəlilətmək üçün müntəzəm mexanizmlər çərçivəsində hökumətlər arasında əlaqələrin gücləndirilməsinə hazır olduqlarını təsdiqlədilər. Tərəflər beynəlxalq və regional təşkilatlarda fəaliyyətin əlaqələndirilməsi də daxil olmaqla qanunverici orqanlar xətti üzrə təmasları və mübadilələri dəstəkləyir, Xarici İşlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr keçirmək əzmindədirlər.

**3.** Tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın “İpək Yolunun dirçəldilməsi” dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşdılar.

**4.** Tərəflər ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunu gücləndirməyi davam etdirməyə hazır olduqlarını ifadə etdilər. Ticarət, investisiyalar, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsini, eləcə də ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə vermək üçün investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olundu. Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Tərəflər ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün institusional zəmanətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə azad ticarətə dair sazişlə bağlı danışıqlara başlamağa hazır olduqlarını ifadə etdilər.

Çin, Çin Beynəlxalq İdxal Məhsulları Sərgisi (CIIE), Çin İxrac və İdxal Məhsulları Yarmarkası (Canton Fair), Çin Beynəlxalq Xidmətlər Ticarəti Yarmarkası (CIFTIS), o cümlədən Çin Beynəlxalq İnvestisiya və Ticarət Forumu (CIFIT) daxil olmaqla, Azərbaycanın Çində keçirilən böyük sərgi tədbirlərində fəal iştirakını alqışlayır, Azərbaycan tərəfindən Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar platformasında, eləcə də Çin elektron ticarət şəbəkələrində tematik təqdimatların keçirilməsini və əlaqələrin qurulmasını dəstəkləyir. Azərbaycan Çinin aparıcı şirkətlərinin Azərbaycan ərazisində keçirilən böyük sərgilərdə və forumlarda iştirakını alqışlayır.

**5.** Tərəflər sənaye sahəsində əməkdaşlığı daim dərinləşdirməyə və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəlilətməyə hazır olduqlarını ifadə edirlər. Tərəflər neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə iki ölkənin müəssisələrini kommersiya əsaslı əməkdaşlığın möhkəmləndirilməsində, dərinləşdirilməsində və genişləndirilməsində dəstəkləyirlər.

**6.** Tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək, bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirirlər.

**7.** Tərəflər iki ölkənin nəqliyyat sahəsindəki əməkdaşlığını yüksək qiymətləndirir və regional qarşılıqlı əlaqələri təşviq edərək, nəqliyyat infrastrukturunun inkişafına, logistika və daşınmaların səmərəliliyinin artırılmasına dəstəyi davam etdirməyə hazır olduqlarını bildirirlər.

Tərəflər Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Beynəlxalq Multimodal Daşımalar haqqında Sazişin imzalanmasını yüksək qiymətləndirdilər. Çin birgə şəkildə təhlükəsiz, sabit, birbaşa və Çin-Avropa-Çin transxəzər ekspress-marşrutları yaradaraq, gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq etməyə hazırdır. Hər iki tərəf beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin razılaşdırılmasının və bağlanmasının sürətlənməsində, Azərbaycan və Çin arasında avtomobil daşımaları üçün əlverişli şəraitin səviyyəsinin artırılmasında, ikitərəfli ticari-iqtisadi əməkdaşlıq üçün dayaq yaradılmasında maraqlıdır.

Tərəflər qeyd edirlər ki, Çinin keçirdiyi Nəqliyyatın Dayanıqlı İnkişafı üzrə Qlobal Forum dayanıqlı nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün müsbət əhəmiyyətə malikdir.

**8.** Tərəflər elmi-tədqiqat müəssisələrini və elm işçilərini qarşılıqlı maraq kəsb edən mövzularda birgə tədqiqatlar aparmağa, texnologiya transferinə və əldə olunan nailiyyətlərin kommersiyalaşdırılmasına təşviq edəcəklər, habelə birgə elmi-tədqiqat platformaları yaradacaqlar.

**9.** Tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldilər.

Tərəflər mədəni və yaradıcı kollektivlər xətti üzrə əməkdaşlığı təşviq edəcək, xalqlar arasında qarşılıqlı anlaşmanı dərinləşdirmək və sivilizasiyalararası mübadiləni təşviq etmək məqsədilə qarşılıqlı Mədəniyyət günlərinin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər turizm siyasətinin əlaqələndirilməsini gücləndirməyə, bir-birinin ərazisində turizmin təşviqi üçün tədbirlərin təşkilinə imkan yaratmağa, turizm müəssisələri, sahəvi assosiasiyalar və digər institutlar arasında profil əlaqələrini dəstəkləməyə, həmçinin ikitərəfli turist axınının və vətəndaşların qarşılıqlı səfərlərinin artırılmasında birgə fəaliyyət göstərməyə hazırdırlar.

Tərəflər səhiyyə, idman, kinematoqrafiya və televiziya sahələrində əməkdaşlığı genişləndirəcək, gənclər və akademik dairələr xətti üzrə dostluq əlaqələrini artıracaqlar.

Tərəflər qarşılıqlı səfərlər, informasiya və təcrübə mübadiləsi vasitəsilə media sahəsində əməkdaşlığın genişləndirilməsini dəstəkləyirlər.

Tərəflər insanlar arasında mübadilənin daha da sadələşdirilməsinə kömək etməyə hazır olduqlarını bildirirlər, bütün sahələrdə əlaqələrin və əməkdaşlığın aktivləşdirilməsi üçün təkan olacaq ümumvətəndaş pasportuna malik şəxslər üçün vizaların qarşılıqlı ləğvi haqqında hökumətlərarası Sazişin razılaşdırılmasını və imzalanmasını alqışlayırlar.

Tərəflər Heydər Əliyev Fondu ilə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası və ŞƏT-in Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsi arasında qurulmuş tərəfdaşlıq əlaqələrini, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müvafiq Çin assosiasiyaları və institutları ilə əlaqələrinin genişləndirilməsini dəstəkləyirlər.

**10.** Tərəflər terrorizmin, separatizmin və ekstremizmin milli təhlükəsizliyə və regional sabitliyə ciddi hədə olduğunu və bu bəlanın qarşısının alınmasının və ona qarşı birgə mübarizə aparılmasının vacib olduğunu vurğuladılar. İki ölkənin hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri arasında əlaqələri və mübadilələri gücləndirmək, narkotik cinayətləri, transmilli mütəşəkkil cinayətkarlıqla, həmçinin kibertəhlükəsizlik kimi çağırışlarla birgə mübarizə aparmaq zəruridir. Tərəflər əməkdaşlıq layihələrinin və iki ölkənin müəssisələrinin işçi heyətinin təhlükəsizliyini birgə təmin etməyə hazırdırlar.

Tərəflər humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayırlar, bu xüsusda Azərbaycan tərəfi Çin tərəfinin Azərbaycanın minatəmizləmə işinə dəstəyini yüksək qiymətləndirir, Çin tərəfi Azərbaycan tərəfinə maddi-texniki dəstək şəklində minatəmizləmə sahəsində potensialın möhkəmləndirilməsində bundan sonra da yardım göstərməyə hazırdır.

**11.** Çin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasının uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edir. Hər iki tərəf COP29-un nəticələrini iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə mühüm töhfə verəcək tarixi nailiyyət və dönüş nöqtəsi kimi alqışlamışlar.

Tərəflər bütün ölkələri qlobal iqlim idarəçiliyi prosesini dəstəkləməyə, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası"na və "Paris Sazişi"nə uyğun olaraq öhdəlik və məsuliyyətləri tam və vicdanla yerinə yetirməyə çağırıblar. Tərəflər inkişaf etmiş ölkələri öz tarixi öhdəliklərinə ləyaqətlə yanaşmağa, inkişaf etməkdə olan ölkələrə maliyyə, texnoloji və intellektual dəstək verməyə, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinə qarşı mübarizə imkanlarının gücləndirməsində kömək etməyə çağırırlar. Tərəflər qlobal iqlim idarəçiliyinə böyük töhfə verməklə iqlim dəyişikliyi ilə mübarizə sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı gücləndirməyə davam edəcəklər.

Çin tərəfi Azərbaycanın sədrliyi ilə COP29 çərçivəsində irəli sürülən "Dayanıqlı və sağlam şəhərlərin formalaşması üçün Multisektoral Fəaliyyət Yolları” təşəbbüsünü yüksək qiymətləndirir.

2026-cı ildə Bakı şəhərində 13-cü Ümumdünya Şəhərsalma Forumunun keçirilməsini nəzərə alaraq, Çin tərəfi Azərbaycan tərəfinə dəstəyini ifadə edib, sıx və səmərəli əməkdaşlığa hazır olduğunu təsdiqləyib.

**12.** Çin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tezliklə üzv olmasını dəstəkləyir. Tərəflər dünya iqtisadi düzənində baş verən dəyişiklikləri daha yaxşı əks etdirmək üçün beynəlxalq maliyyə arxitekturasında islahatın təşviqini dəstəkləyirlər. Tərəflər ticarət və investisiyaların liberallaşdırılmasını və sadələşdirilməsini dəstəkləyir, unilateralizm və proteksionizm, despotizm və dünya ticarəti qaydalarının pozulmasının əleyhinə çıxırlar, birgə rifah naminə çoxtərəfli ticarət sistemini birgə səylərlə müdafiə edirlər.

**13.** Tərəflər BMT mərkəzli dünya quruculuğunun və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizamın və beynəlxalq münasibətlərin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan əsas normalarının qorunmasına səy göstərir, hegemonluğa və güc siyasətinə qarşı çıxırlar. Tərəflər ümumbəşəri dəyərlərin - sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin lehinə çıxış edir, yeni növ beynəlxalq münasibətlərin və bəşəriyyətin vahid taleyi birliyinin yaradılmasına səy göstərirlər.

**14.** Tərəflər birgə müzakirə, birgə quruculuq və birgə istifadə prinsipinə sadiq qalaraq, çoxtərəfliliyə sadiqliyi saxlayaraq qlobal idarəetmə sisteminin təkmilləşdirilməsini təşviq etməyə hazırdırlar. Tərəflər BMT-nin mərkəzi əlaqələndirici rolunun, formalaşmaqda olan bazara sahib ölkələrin və inkişaf etməkdə olan dövlətlərin təmsilçilik və səsvermə hüquqlarının artırılması naminə çıxış edir, BMT və digər çoxtərəfli strukturlar çərçivəsində sıx qarşılıqlı fəaliyyəti davam etdirməyə hazırdırlar.

**15.** Azərbaycan Çin tərəfindən təklif olunan Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyir və BMT-nin 2030-cu ilədək olan Dayanıqlı İnkişaf üzrə Gündəliyinin həyata keçirilməsini sürətləndirmək üçün səyləri birləşdirmək məqsədilə “Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu”na qoşulmağa hazır olduğunu bildirir. Azərbaycan Çin tərəfi ilə qlobal təhlükəsizlik üzrə əlaqələr və qarşılıqlı fəaliyyət qurmağa, sülh və təhlükəsizlik üzrə birgə səylər göstərməyə hazırdır. Azərbaycan tərəfi Çinin BMT-də irəli sürdüyü “Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü”nün elan edilməsinə dair qətnaməni yüksək qiymətləndirir və sivilizasiyaların müxtəlifliyinə hörməti birgə müdafiə etməyə, humanitar mübadilə və əməkdaşlığı fəal şəkildə təşviq etməyə hazırdır. Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi “Bakı Prosesi” adlı təşəbbüsə uyğun olaraq Azərbaycanın səylərini və bu təşəbbüs çərçivəsində çağırılan qlobal forumları dəstəkləyir.

**16.** Azərbaycan Çinin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) sədrliyini dəstəkləyir və Çin tərəfinin ŞƏT-in keyfiyyətcə inkişafı üçün göstərdiyi əməli səylərini yüksək qiymətləndirir. Azərbaycan “ŞƏT-in Dayanıqlı İnkişaf İli” tədbirlərində fəal iştirak etməyə və Təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirir. Çin Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləyir.

**17.** Çin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində (AQEM) sədrliyini dəstəkləyir və Azərbaycan tərəfinin AQEM-in inkişafına yönəlmiş “Daha Güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf” mövzusunda silsilə tədbirlərin keçirilməsi üzrə səylərini yüksək qiymətləndirir.

**18.** Azərbaycan Respublikasının Prezidenti Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə Çin Xalq Respublikasının Sədri Si Cinpinə təşəkkür etdi və öz növbəsində Sədr Si Cinpini hər iki tərəf üçün əlverişli vaxtda Azərbaycana səfərə dəvət etdi.

***Azərbaycan Respublikasının Prezidenti***
***Çin Xalq Respublikasının Sədri***

**Pekin şəhəri, 23 aprel 2025-ci il”**

# Azərbaycan–Çin hərtərəfli strateji tərəfdaşlığı bir pillə də yüksəldi

## Azərbaycan–Çin sənədləri imzalanıb



*(əvvəli 2-ci səhifədə)*

“Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Protokol”u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin elm və texnologiya naziri Yin Hecun imzaladılar.

“Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin ədliyyə naziri Xı Ron imzaladılar.

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2025-2029-cu illər üzrə mədəni əməkdaşlıq haqqında Protokol”u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin mədəniyyət və turizm naziri Sun Yeli imzaladılar.

“Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Çin Xalq Respublikasının Milli Əqli Mülkiyyət Administrasiyası arasında Anlaşma Memorandumu”nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli Əqli Mülkiyyət Administrasiyasının rəhbəri Şen Çanyu imzaladılar.

“Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çin Milli Kosmik İdarəsi (CNSA) arasında kosmosda əməkdaşlıq və kosmik fəzadan dinc məqsədlər üçün istifadə haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çin Milli Kosmik İdarəsinin rəhbəri Şan Conde imzaladılar.

“Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə Çinin İnvestisiya Korporasiyası arasında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov və Çinin İnvestisiya Korporasiyasının sədri və icraçı direktoru Can Çinson imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında “Bir kəmər, bir yol” təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq Planı”nı Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzaladılar.

“Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında yaşıl və aşağı karbonlu inkişaf əməkdaşlığına dair Anlaşma Memorandumu”nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzaladılar.

“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Sənaye və İnformasiya Texnologiyaları Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin sənaye və informasiya texnologiyaları naziri Li Lıçen imzaladılar.

“Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş”i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çinin nəqliyyat naziri Liu Vey imzaladılar.

“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında maneəsiz ticarət üzrə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə dair Anlaşma Memorandumu”nu və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında rəqəmsal iqtisadiyyatda investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Anlaşma Memorandumu”nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin kommersiya naziri Van Ventao imzaladılar.

“Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Sinxua İnformasiya Agentliyi arasında xəbər mübadiləsi və əməkdaşlıq haqqında müqavilə”ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Sinxua İnformasiya Agentliyinin prezidenti Fu Xua imzaladılar.

“Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti ilə Çin Media Qrupu arasında Əməkdaşlıq Sazişi”ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çin Media Qrupunun prezidenti Şen Haysion imzaladılar.

“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Məlumat Administrasiyası arasında rəqəmsal iqtisadiyyat üzrə əməkdaşlığın gücləndirilməsinə dair Anlaşma Memorandumu”nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin Milli Məlumat Administrasiyasının rəhbəri Lyu Lyehon imzaladılar.

“Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu”nu Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Urumçi şəhərinin meri Yakub Paydulla imzaladılar.

## Prezident İlham Əliyev Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib.**

Abidənin yerləşdiyi meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

## Çinin Sədri Si Cinpinin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət

**Aprelin 23-də Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilib.**

## Çin Dövlət Şurasının Baş naziri ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Pekində Çin Xalq Respublikasının Dövlət Şurasının Baş naziri Li Çianq ilə görüşüb.**

Görüşdə ötən ilin iyulunda Azərbaycan və Çin arasında qəbul edilən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin münasibətlərimizin yüksək səviyyəsini göstərdiyi bir daha vurğulandı. Bu gün imzalanmış hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın əhəmiyyətinə toxunuldu, onun münasibətlərimizin ruhunu və xarakterini əks etdirdiyi bildirildi. Qeyd olundu ki, münasibətlərimiz qısa vaxtda – bir ildən də az müddətdə strateji tərəfdaşlıqdan hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu da öz növbəsində əlaqələrimizin inkişaf dinamikasını göstərir.

Azərbaycanın və Çinin bütün sahələrdə fəal qarşılıqlı fəaliyyət göstərən iki dost ölkə olduğu qeyd edildi, siyasi sahə ilə yanaşı, iqtisadi-ticari əlaqələrimizin inkişafından, həmçinin ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsinin 20 faiz artaraq 3,7 milyard dollar təşkil etməsindən və bu ilin 3 ayı ərzində əmtəə dövriyyəsinin 40 faizə yaxın çoxalmasından məmnunluq bildirildi.

Dövlətimizin başçısı qeyd etdi ki, Çin bizim birinci idxal tərəfdaşımız olmaqla yanaşı, həm də dördüncü ticarət tərəfdaşımızdır. Prezident İlham Əliyev strateji tərəfdaşlıq haqqında Bəyannamənin bütün sahələrdə uğurla həyata keçirildiyini vurğulayaraq, Azərbaycanla Çinin Avrasiyanın bir çox ölkəsini əhatə edən nəqliyyat-logistika əməkdaşlığı sahəsində fəal səylər göstərdiyini dedi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq, Azərbaycanın və Çinin həmişə bir-birinin ərazi bütövlüyünə və suverenliyinə dəstək göstərməsi, ölkəmizin “Vahid Çin” siyasətini daim dəstəklədiyi qeyd edildi. Terrorçuluq, ekstremizm və separatizmlə mübarizədə ölkələrimizin səylərinə toxunuldu.

BMT əsaslı beynəlxalq münasibətlər sisteminin Azərbaycan və Çin tərəfindən dəstəkləndiyi vurğulandı. Dövlətimizin başçısı bu xüsusda dedi ki, BMT Təhlükəsizlik Şurasının qərarlarının icra edilməsi mexanizmi yaradılmalıdır. Belə ki, Azərbaycan uzun müddət BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməməsindən əziyyət çəkib.

Bakıda hökumətlərarası komissiyanın sonuncu iclasının və bu çərçivədə biznes-forumun keçirilməsi xatırlandı. Həmin tədbirdə Azərbaycan və Çin şirkətləri arasında müxtəlif sahələr üzrə əməkdaşlığa dair müqavilələrin imzalandığı vurğulandı.

Çinin Baş naziri Orta Dəhlizin əhəmiyyətinə toxundu və bu marşrut üzrə daşımaların artmasını qeyd etdi.

Azərbaycan və Çinin Orta Dəhlizin yükötürmə imkanlarının daha da genişləndirilməsi istiqamətində birgə səylərinə toxunuldu.

Görüşdə bərpaolunan enerji sahəsində, həmçinin neft-qaz sektorunda Azərbaycan ilə Çin şirkətləri arasında əməkdaşlıq imkanları və Çin texnologiyalarının ölkəmizdə geniş tətbiq olunması ilə bağlı məsələlər müzakirə edildi, bu sahədə böyük investisiya imkanlarının olduğu bildirildi.

Həmçinin ərazilərin minalardan təmizlənməsi istiqamətində əməkdaşlıq müzakirə edildi. Li Çianq qeyd etdi ki, Çin tərəfi ərazilərin minalardan təmizlənməsi sahəsində humanitar dəstək göstərməyə hazırdır.

Azərbaycanın birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizanın ləğv olunmasının ardınca iki ölkə arasında vizaların qarşılıqlı şəkildə ləğvi haqqında sənədin imzalanmasının əhəmiyyətinə toxunuldu, bunun insanlararası təmasların və turizmin inkişafına mühüm töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə kənd təsərrüfatı, o cümlədən baramaçılıq, pambıqçılıq, kənd təsərrüfatı texnikası sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu. Çinin Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirdiyi siyasəti və ölkəmizin Rəqəmsal Transformasiya və Rəqəmsal İnkişaf Konsepsiyasını dəstəklədiyi vurğulandı.

Söhbət zamanı mədəni-humanitar sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, Heydər Əliyev Fondunun xətti ilə Çində həyata keçirilən layihələr məmnunluqla qeyd olundu.



# Azərbaycan–Çin hərtərəfli strateji tərəfdaşlığı bir pillə də yüksəldi

## Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri ilə görüş





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çin Xalq Respublikasının Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüşüb.**

Cao Lıci Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı inkişafını, beynəlxalq səviyyədə nüfuzunun artmasını, iqtisadi sahədə qazandığı nailiyyətləri, əhalinin rifah halının yaxşılaşdığını məmnunluqla qeyd etdi. Bildirdi ki, Çinlə Azərbaycan arasındakı əlaqələr səmimi dostluq və strateji tərəfdaşlıq münasibətləridir. O, iki ölkənin liderlərinin səyləri sayəsində bu gün əlaqələrimizin öz tarixinin ən yüksək inkişaf dövrünü yaşadığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində vurğuladı ki, bu gün münasibətlərimiz artıq özünün ən yüksək inkişaf mərhələsinə - hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qalxıb.

Dövlətimizin başçısı Azərbaycanın daim "Vahid Çin" siyasətini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pislədiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın və Çinin terrorçuluq, ekstremizm, separatizm və radikalizmə qarşı mübarizədə birgə səylərlə çıxış etdiklərini dedi.

Görüşdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunuldu, Orta Dəhlizin əhəmiyyəti vurğulandı. Son dövrlərdə Çin şirkətlərinin Orta Dəhliz üzrə daşımalarının 80 faizdən çox artdığı diqqətə çatdırıldı, ticarət dövriyyəsinin 20 faiz artımı məmnunluqla qeyd edildi.

Çinlə Azərbaycanın parlamentlərarası əməkdaşlığının, o cümlədən parlamentlərin dostluq qrupları və komitələri arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığa toxunuldu, bu xüsusda idarəçiliyin müxtəlif aspektləri üzrə təcrübə mübadiləsinin aparılmasının vacibliyi vurğulandı, gənclər, mədəniyyət, idman sahələrində əlaqələrin inkişafı və Azərbaycan-Çin Birgə Universitetinin yaradılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı bərpaolunan enerji sahəsində əməkdaşlıq məsələləri qeyd olundu, Çinin "BYD" şirkətinin elektrik avtomobillərinin Azərbaycana ixracı və bir sıra elektrik avtobuslarının yerli səviyyədə istehsalı üçün strateji tərəfdaş kimi müəyyənləşdirildiyi vurğulandı.

## Birinci xanım Mehriban Əliyeva, qızı Leyla Əliyeva və ailə üzvləri Böyük Xalq Sarayında





**Aprelin 23-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, qızı Leyla Əliyeva və digər ailə üzvləri Pekində Böyük Xalq Sarayı ilə tanış olublar.**

Pekinin mərkəzində, Tiananmen meydanının qərb tərəfində yerləşən Böyük Xalq Sarayı Çinin ən yüksək səviyyədə dövlət tədbirlərinin və mərasimlərinin, o cümlədən Çin Kommunist Partiyasının qurultaylarının, ali qanunverici orqan olan Çin Xalq Nümayəndələri Yığıncağının illik iclaslarının keçirildiyi, xarici dövlətlərin rəhbərlərinin rəsmi qarşılanma mərasimlərinin təşkil olunduğu dövlət sarayıdır.

Çin Xalq Respublikasının qurulmasının 10-cu ildönümü ilə əlaqədar inşa edilmiş Böyük Xalq Sarayı 1959-cu ildə istifadəyə verilib. Çin xalqının milli birliyinin rəmzi olaraq dizayn edilmiş saray 3 hissədən ibarətdir. Kompleksə Böyük və Əsas auditoriumlar, Konqres, ziyafət, rəsmi qonaqların qarşılanması zalları, Çin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin ofis binası daxildir. Böyük Xalq Sarayında Çinin hər bölgəsinin adına zallar var.

Saray dövlət tədbirlərinin olmadığı vaxtlarda ayın müəyyən günlərində ictimaiyyətin ziyarəti üçün açıq olur.

***AZƏRTAC***

## Azərbaycan Prezidentinin dövlət səfəri Çin mediasında




**Çin Xalq Respublikasının mediası Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfərinə geniş yer ayırıb.**

Dünyanın ən nüfuzlu informasiya agentliklərindən olan Sinxua, geniş oxucu şəbəkəsinə malik gündəlik "Jenmin Jibao" qəzeti, 1 milyard izləyici auditoriyası olan Çin Mərkəzi Televiziyası (CCTV), nüfuzlu "China Daily" qəzeti, 50-dən çox dildə yayımlanan Çin milli radiosu, Çin Kommunist Partiyasının rəsmi nəşrlərindən "Global Times" qəzeti, digər qəzet və xəbər saytları Prezident İlham Əliyevin Çinə dövlət səfərinə, səfər çərçivəsində ÇXR Sədri Si Cinpinlə görüşünə, imzalanan sənədlərə, ümumiyyətlə son illər hərtərəfli inkişafın müşahidə olunduğu Azərbaycan-Çin münasibətlərinə dair xəbərlər verib, reportajlar yayımlayıblar.

Çinin milli xəbər agentliyi olan Sinxuanın "Si Cinpin Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlar aparıb" başlıqlı məqaləsində deyilir ki, beynəlxalq vəziyyətin dəyişməsindən asılı olmayaraq Azərbaycan-Çin münasibətləri öz inkişaf dinamikasını qoruyub saxlayıb, iki ölkə qarşılıqlı hörmət, bərabərlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Sinxua yazır ki, Azərbaycan və Çin bir-birinin milli dövlət suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü, milli şəraitə uyğun inkişaf yolunu dəstəkləyir. Məqalədə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində iki ölkənin səmərəli əməkdaşlığından da söz açılıb.

Sinxua agentliyi dövlət başçılarının imzaladığı "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın mətnini də yayımlayıb.

Agentlik Prezident İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunan xüsusi material da hazırlayıb. "China Global Television Network" (CGTN telekanalının internet səhifəsində "Çin Azərbaycanla hərtərəfli strateji tərəfdaşlıq qurur" başlıqlı yazıda qeyd olunur ki, Azərbaycan Prezidentinin Çinə səfər zamanı dövlət başçıları İlham Əliyev və Si Cinpin iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlığın qurulduğunu elan ediblər.




"Altai News Network" saytı yazır ki, Azərbaycan və Çin bir-birinə hörmət və etimadla yanaşır, bütün sahələrdə əməkdaşlığı, iqtisadi-ticari əlaqələri, o cümlədən rəqəmsal iqtisadiyyat, yaşıl enerji, elm və texnologiya sahələrində əməkdaşlığı genişləndirir, xalqlar arasında təmasların daha da sıxlaşmasına çalışırlar. Bundan başqa, tərəflər hakim partiyalar arasında əlaqələrin dərinləşməsi, beynəlxalq və regional məsələlərdə əlaqələndirmənin gücləndirilməsi istiqamətində səylərini davam etdirirlər.

Çin mediası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibəsindən çox sayda xəbər hazırlayaraq oxucularına təqdim edib.

***XQ***

# Əli Əsədov zəlzələ ilə bağlı Cevdet Yılmaza zəng edib

**Aprelin 23-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz arasında telefon danışığı olub.**

Nazirlər Kabinetindən bildiriblər ki, telefon danışığı əsnasında İstanbul şəhərində baş vermiş silsilə zəlzələ ilə bağlı narahatlıq ifadə olunub, Azərbaycanın hər zaman olduğu kimi bu çətin məqamda da qardaş Türkiyənin yanında olduğu bildirilib.

Hazırda Türkiyənin aidiyyəti qurumları tərəfindən bölgədə qiymətləndirmə, həmçinin zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində aparılan tədbirlər müzakirə olunub.

***XQ***

# Sahibə Qafarovanın Numan Kurtulmuşla telefon danışığı

**Aprelin 23-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova ilə Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Milli Məclisin sədri Türkiyənin İstanbul şəhərində baş vermiş silsilə zəlzələlərlə bağlı narahatlığını ifadə edib.

Azərbaycan və Türkiyənin qardaş ölkələr olaraq xoş və çətin günlərdə hər zaman bir yerdə olduqları bir daha vurğulanıb.

Numan Kurtulmuş göstərilən diqqət və dəstəyə görə minnətdarlığını bildirib, zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində görülən tədbirlər haqqında məlumat verib.

***XQ***

# YAP heyəti Çində



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Kommunist Partiyasının dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunda iştirak etmək üçün Çin Xalq Respublikasının Urumçi şəhərinə səfər edib.**

Dünən Tahir Budaqov Sincan-Uyğur Muxtar Rayonu Partiya Komitəsinin katibi Ma Sinjuy ilə nümayəndə heyətləri rəhbərləri arasında keçirilən görüşdə iştirak edib. Ma Sinjuy Çinin Forumda təmsil edilən ölkələrin istər ikitərəfli, istərsə də Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb.

YAP nümayəndə heyəti Urumçi şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumunun açılış mərasimində və plenar sessiyasında iştirak edib. 23 ölkədən 200 nəfərə yaxın nümayəndənin iştirak etdiyi Forumun açılış mərasimində çıxış edənlər 2001-ci ildə yaradılmış ŞƏT-in bu günədək keçdiyi inkişaf yoluna nəzər salaraq, təşkilatın Avrasiyada siyasi dialoq və qarşılıqlı faydalı əməkdaşlıq şəraitində sabitlik, təhlükəsizlik və dayanıqlı inkişafa verdiyi töhfələr xüsusi vurğulayıblar.

***XQ***

# Bakı–Pekin: etimadın qarşılıqlı əməkdaşlıq təntənəsi



*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyevin beynəlxalq arenadakı fəaliyyətinin nəticəsində Azərbaycana da dünyada böyük inam və etibar var. Ölkəmiz özünün etibarlı partnyor obrazı ilə beynəlxalq aləmin daimi diqqətindədir. Bu statusun qazanılmasında prinsipiallıq, ardıcıllıq və qətiyyət hadisə və proseslərə real prizmadan yanaşmanı, praqmatizmi və rasionallığı rəhbər tutur. Sadaladığımız xüsusiyyətlər isə münasibətlərin qarşılıqlı fayda trayektoriyasını cızmaqla, səmərəliliyin təminatı baxımından dayanıqlı immunitet yaradır. Sözümüz ondadır ki, bütün bunlar Çinin digər dövlətlərə yanaşmasındakı mühüm cəhətlərdir. Ona görə də Azərbaycan Prezidenti ölkədə ən yüksək səviyyəli şəxs kimi qarşılanır. Yəni, cənab İlham Əliyevin bu ölkəyə səfərini əks etdirən qürur və fəxarət görüntüləri heç də rəsmi Pekinin ümumi dövlət səviyyəsi baxımından dəyərləndiriləcək səhnələr deyil. Bu, birbaşa Azərbaycan liderinə verilən müstəsna dəyər və hörmətdir.

Bəli, bu gün ölkəmizin Çinlə münasibətləri, eləcə də qarşılıqlı əməkdaşlıq xəttinin yüksək dinamikası və geniş diapazonu Azərbaycan dövlətinin Prezident İlham Əliyevin şəxsində reallaşdırdığı xarici siyasət kursunun təntənəsini ən dolğun boyalarla göstərməkdədir. Nəzərə alaq ki, Pekinlə strateji tərəfdaşlıq dünyanın bir çox ölkələri üçün yalnız yuxudur. Əlbəttə, onu da nəzərə almalıyıq ki, bu günün Azərbaycanı yuxuların gerçəyə çevrildiyi məmləkətdir.

Azərbaycan–Çin gündəminin hədsiz zənginliyindəki başlıca göstəricilərdən biri də əməkdaşlıq xəttinin real işlək platformalarının mövcudluğudur. Bu baxımdan ticarət, investisiyalar, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyəti, eləcə də ticari-iqtisadi sahədə, elmi-tədqiqat müstəvisində ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə vermək məqsədli tədbirləri, o cümlədən investisiya əməkdaşlığı üzrə işçi qrupun yaradılmasını, bərpa olunan enerji, nəqliyyat-logistika, sənayenin rəqəmsal transformasiyası, neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə işbirliyini vurğulaya bilərik.

İstər "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın, istərsə də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin mətnində yer alan məsələlər tərəflərin bir-birinin seçdiyi inkişaf yolunu, təməl maraqlarını, suverenliklərini, təhlükəsizliklərini və ərazi bütövlüklərini qətiyyətlə dəstəklədiklərini göstərir. Habelə Azərbaycanla Çin arasında Beynəlxalq Multimodal Daşımalar haqqında Saziş, Çin–Avropa–Çin Transxəzər ekspress-marşrutlarının yaradılması, Çinin 2026-cı ildə Bakıda 13-cü Ümumdünya Şəhərsalma Forumuna dəstək ifadəsi, ölkənin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində (AQEM) sədrliyini bəyənməsi gələcək üçün nikbinliyimizi möhkəmləndirir.

Amma hesab edirik ki, əməkdaşlıq parametrlərinin genişliyinin yaratdığı etimad mühitinin meydana çıxardığı ən mühüm iqtisadi və siyasi dividend Azərbaycanın və Çinin Orta Dəhliz ideyasına sadiqliyidir. Əlbəttə, Çin dünya iqtisadiyyatının hegemonu olaraq Şərqdən Qərbə daşımalarının səmərəli düzənində çox maraqlıdır. Ölkəmiz isə mövcud müstəvidə yalnız tranzit ölkə statusu ilə kifayətlənmir. Bu baxımdan Prezident İlham Əliyevin 2025-ci il yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bildirdikləri çox önəmlidir. "Çünki Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Bizim hədəfimiz özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır", – deyən dövlətimizin başçısı əlavə edib ki, Azərbaycan Çinin böyük önəm verdiyi Orta Dəhlizin öz seqmentinin infrastrukturunu təkmilləşdirir. Doğrudur, ölkəmizin lideri müsahibəsində təkmilləşdirilmiş infrastrukturun gələcək 3–5 il üçün kifayət etməyəcəyini vurğulayıb və bildirib: "Biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdirildiyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq. Əminəm ki, Sədr Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsü bütün ölkələr üçün əlavə imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir".

Əlbəttə, Bakı–Pekin münasibətlərinin hazırkı dinamik fazasını vurğulayan məqamları, eləcə də konkret fəaliyyət istiqamətlərini sadalamaqla bitməz.

Ən başlıca məqam isə budur ki, Azərbaycan və Çin müasir dünya nizamı və beynəlxalq aləmdə gedən proseslərə ortaq mövqedən yanaşır, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan başlıca normalarının qorunması baxımından müştərək mövqeyə malikdirlər. Hər iki dövlət hegemonluğa və güc siyasətinə qarşı çıxır. Onlar ümumbəşəri dəyərlərin – sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqində də mühüm mövqeyə malikdirlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Şərqə doğru baxış: Azərbaycanın diplomatik seçimi

## *Ölkəmiz bu gün regionun və dünyanın diqqət mərkəzindədir*

**XXI əsrin siyasi xəritəsi yenidən çəkilir. Bəşəriyyətin yaşadığı çağ artıq təkcə texnoloji sıçrayışlar və süni intellektin yüksəlişi ilə deyil, həm də beynəlxalq münasibətlər sisteminin dərin təlatümləri ilə yadda qalır. "Soyuq müharibə" sonrası dövrün sabit görünən sütunları bir-bir dağılır, beynəlxalq hüququn prinsipləri getdikcə daha çox siyasi maraqlara tabe edilir, güc balansı dəyişir və dünya tədricən yeni bir nizamın axtarışına çıxır.**



Bu qeyri-müəyyənliklər çağında ənənəvi güc mərkəzləri – Avropa və ABŞ – artan daxili çəkişmələr, qloballaşmanın yaratdığı sosial –iqtisadi təbəqələşmə, eləcə də etimad böhranı ilə üz-üzə qalarkən, Asiya yüksələn güc olaraq səhnəyə çıxır. Çin, Hindistan, ASEAN ölkələri və Körfəz bölgəsi beynəlxalq siyasətdə, ticarətdə və texnologiyada söz sahibi olmağa başlayır, yeni güc mərkəzləri yalnız iqtisadi deyil, eyni zamanda, siyasi və diplomatik cazibə mərkəzinə çevrilir.

Belə bir dövrdə beynəlxalq sistemdəki dərin dəyişikliklər fonunda Azərbaycan da öz xarici siyasət kursunu yenidən qiymətləndirir. Qarşıda duran sual sadə, lakin strateji baxımdan həyati əhəmiyyət daşıyır: Azərbaycan yeni dünya düzənində hansı mövqedə durmaq niyyətindədir? Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən xarici siyasət bu sualın cavabını konkret addımlarla verir. Qərb və Şərq, Şimal və Cənub arasında körpü funksiyasını yerinə yetirən Azərbaycan indi bu coğrafi üstünlüyünü diplomatik müstəviyə keçirərək daha təşəbbüskar, strateji düşünən və daha çevik bir aktora çevrilmək yolundadır.

Bunun ən bariz nümunəsi isə ölkənin xarici siyasətində yeni istiqamətlərin – xüsusilə, Asiya və İslam dünyası ilə münasibətlərin – ön plana çəkilməsidir. Artıq təkcə Avropanın enerji təchizatçısı olmaqla kifayətlənməyən Azərbaycan, həm də Asiyanın iqtisadi yüksəlişindən bəhrələnmək, Orta Dəhliz vasitəsilə qlobal logistika şəbəkəsində mühüm rol oynamaq və yeni güc mərkəzləri ilə strateji tərəfdaşlıqlar qurmaq niyyətindədir.

***

Qərb uzun illər boyu liberal beynəlxalq nizamın qoruyucusu, insan hüquqları və demokratik dəyərlərin daşıyıcısı kimi təqdim olunub. Lakin son onillikdə bu imic tədricən aşınıb. ABŞ və Avropa İttifaqı daxilində baş verən siyasi parçalanmalar, populizmin yüksəlişi, miqrasiya böhranları və ikili standartlara əsaslanan xarici siyasət Qərbə olan qlobal etimadı sarsıdıb. Ukrayna müharibəsi və onun yaratdığı enerji böhranı isə bu güc mərkəzlərinin nə qədər zəif və karsız olduğunu üzə çıxardı.

Azərbaycan bu etimad böhranını yalnız müşahidə etmədi – öz milli maraqları naminə alternativ tərəfdaşlıq imkanlarını da ciddi şəkildə nəzərdən keçirməyə başladı. Qərbin zaman-zaman Ermənistanın təcavüzkar siyasətinə qarşı susqunluğu, beynəlxalq tribunalarda ədalətin müdafiə olunmaması və regionda şəxsi maraqlara əsaslanan siyasətin yürüdülməsi Bakının praqmatik yanaşmasının səbəblərindən biridir.

Əvəzində isə Şərq ölkələri – xüsusilə Çin, Pakistan, Körfəz dövlətləri və Mərkəzi Asiya respublikaları – Azərbaycanla münasibətlərdə daha balanslı, qarşılıqlı hörmətə və strateji maraqlara əsaslanan yanaşmalar nümayiş etdirirlər. Məhz bu səbəbdən son illər Azərbaycanın xarici siyasətində Şərq vektoru getdikcə daha çox aktuallaşır. Bu dəyişiklik yalnız diplomatik ritorikada deyil, konkret addımlarda öz əksini tapır: Azərbaycanın Çinlə strateji tərəfdaşlığı, Pakistanla hərbi-siyasi ittifaqı, Körfəz ölkələri ilə investisiya və enerji əməkdaşlığı, eləcə də Orta Asiya ilə nəqliyyat-logistika sahəsində inteqrasiyası ölkənin Qərb–Şərq arasında sabit tərəfdaş imicini möhkəmləndirir.

Azərbaycan bu siyasətində sadəcə olaraq, yeni tərəfdaşlar axtarmır, həm də beynəlxalq sistemdə balanslaşdırılmış güc siyasətinə uyğun çevik diplomatiya yeridir. Yəni, Bakı üçün məsələ "ya Qərb, ya Şərq" deyil. Məsələ ondan ibarətdir ki, harada milli maraq varsa, orada diplomatik aktivlik artır. Belə görünür ki, Azərbaycanın Şərqə doğru bu yeni yanaşması, yalnız bir alternativ deyil, həm də zərurətdir. Geosiyasi reallıqların diktə etdiyi zərurət. Bugünkü beynəlxalq siyasətdə Çin artıq təkcə "istehsal nəhəngi" deyil, o, qlobal oyun qaydalarını dəyişən, iqtisadi gücünü siyasi təsirə çevirən, yeni dünya düzəninin mühüm memarlarından biri olan aparıcı dövlətdir. "Bir kəmər, bir yol" təşəbbüsü ilə Asiyanı, Afrikanı və Avropanı birləşdirən Pekin artıq qlobal güc kimi çıxış edir. Azərbaycanın bu yeni dünya nizamında Çinlə münasibətlərə xüsusi önəm verməsi strateji və geosiyasi çevikliyini qorumaq baxımından olduqca məntiqlidir.

Prezident İlham Əliyevin Çinə dövlət səfəri, əslində, Azərbaycanın yeni xarici siyasət fəlsəfəsinin simvolik və praktik təzahürüdür. Çinlə əlaqələrin dərinləşdirilməsi Azərbaycanın iqtisadi, texnoloji və nəqliyyat potensialını qlobal şəbəkəyə daha sıx şəkildə inteqrasiya etdirmək niyyəti ilə bağlıdır. Çin Azərbaycanın enerji resurslarına, nəqliyyat dəhlizlərinə və geostrateji mövqeyinə ciddi maraq göstərir və bu, təkcə ikitərəfli layihələrlə deyil, həm də regional inteqrasiya təşəbbüslərində – Orta Dəhliz, Transxəzər nəqliyyat marşrutu və Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələrdə özünü göstərir. Azərbaycanın bu layihələrdə fəal iştirakı isə Pekin üçün Cənubi Qafqazda etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş anlamına gəlir.

Bundan əlavə, Çinlə əməkdaşlıq həm də siyasi balanslaşdırma vasitəsidir. Qərb platformalarında ikili standartlarla qarşılaşan Bakı Çinlə tərəfdaşlığa beynəlxalq arenada alternativ manevr imkanları kimi yanaşır və bu amil də Azərbaycanın diplomatik mövqeyini daha dayanıqlı və çevik edir. Eyni zamanda, Çinlə yaxınlaşma Azərbaycanın "qeyri-blok" siyasətini də gücləndirir. Bakı NATO və digər hərbi bloklara qoşulmadan, öz suverenliyini qoruyaraq müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydalı əməkdaşlıq platforması qurur. Belə çıxır ki, Çin vektoru Azərbaycanın xarici siyasətində yalnız iqtisadi maraqların deyil, həm də siyasi uzaqgörənliyin nəticəsidir.

Qlobal güclər arasında rəqabətin kəskinləşməsi, ənənəvi ittifaqların sarsılması və regional güclərin yüksəlişi beynəlxalq münasibətlər sistemində dərin transformasiyalara səbəb olur. Belə bir şəraitdə, kiçik və orta gücə malik ölkələr üçün iki yol qalır: ya hadisələrin passiv müşahidəçisi olmaq, ya da çevik diplomatik strategiyalarla proseslərin fəal iştirakçısına çevrilmək. Azərbaycan ikinci yolu seçib. Azərbaycanın bu modelinin təməlində bir neçə prinsip dayanır. Birincisi, milli maraqların üstün tutulması – hansı blokda və ya təşkilatda yer almasından asılı olmayaraq, dövlətin suverenliyi və iqtisadi təhlükəsizliyi əsas prioritetdir. İkincisi, geosiyasi risklərin azaldılması – eyni anda bir neçə güc mərkəzi ilə əməkdaşlıq quraraq riskləri diversifikasiya etmək. Üçüncüsü isə, regional liderlik iddiası – təkcə iştirakçı deyil, təşəbbüskar olmaq.

Son olaraq qeyd edə bilərik ki, Azərbaycan klassik "böyük güc arxasına sığınan" dövlət modelindən uzaqdır. O, öz xarici siyasətində məhz çeviklik, prinsipiallıq və çoxistiqamətlilik əsasında yeni bir yanaşma formalaşdırıb. Prezident İlham Əliyevin "Yeni dünya nizamına doğru" beynəlxalq forumdakı çıxışı bu strateji baxışın aydın ifadəsi oldu. Burada səsləndirilən fikirlər Azərbaycanın müstəqil və çoxistiqamətli xarici siyasət xəttini təsdiqləməklə yanaşı, onu yeni mərhələyə – postmünaqişə reallıqlarına uyğunlaşdırmağı da ehtiva edirdi. Azərbaycanın uğuru geosiyasi intuisiyanın, siyasi iradənin və zamanın nəbzini düzgün tutmağın nəticəsidir. Bugünkü dünya dəyişkəndir və bu dəyişkənlikdə öz yerini qoruyub saxlamaq üçün çevik, lakin prinsipial olmaq lazımdır. Azərbaycan diplomatiyası məhz bu iki prinsipin üzərində qurulub.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Möhtəşəm keçid: bəyannamədən bəyanata

## Azərbaycanla Çin arasında münasibətlərin yeni arxitekturası

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Pekinə dövlət səfəri davam edir. Dövlət rəhbərləri arasında baş tutan ikitərəfli görüş, imzalanmış müqavilə, saziş və razılaşmaların çeşidi onu deməyə əsas verir ki, dünyanın ən güclü dövlətlərindən biri olan Çin Azərbaycanla əlaqələrə böyük önəm verir. Asiya nəhənginin Azərbaycana göstərdiyi yüksək maraq ölkəmizin unikal coğrafi mövqeyi, təbii ehtiyatlarının zənginliyi, qlobal arenada etibarlı tərəfdaş olması ilə yanaşı, həm də Azərbaycan Prezidentinə dünyada olan hörmətin nümayişi ilə birbaşa bağlıdır. Yəni, Pekinin Bakıya rəğbəti dövlət başçımızın beynəlxalq arenada genişmiqyaslı fəaliyyəti, Azərbaycanın dünyada yerinin və rolunun yüksəldilməsi yönündə həyata keçirdiyi siyasətin uğur tablosu kimi qəbul edilməlidir.**



Prezident İlham Əliyev və Sədr Si Cinpinin imzaladıqları "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" iki ölkə arasında uzun və səmərəli əməkdaşlığın, qarşılıqlı etimad və səmimiyyətin məntiqi nəticəsi sayılmalıdır. ÇXR Sədri Si Cinpin Pekində Azərbaycan Prezidenti İlham Əliyevlə danışıqlar zamanı bildirib: "Hər iki ölkə diplomatik münasibətlərin qurulmasının ilkin niyyətini həmişə xatırlayır. Çin və Azərbaycan qarşılıqlı hörmət, ədalət və qərəzsizlik, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə sadiq qalır. Tərəflər qarşılıqlı etimadı gücləndirməyi, praktiki əməkdaşlığı dərinləşdirməyi, beynəlxalq əməkdaşlığı möhkəmləndirməyi davam etdirməlidirlər. Eyni zamanda, hərtərəfli əməkdaşlığın yeni səhifəsini açmalıdırlar".

Yəni, təsadüfi heç nə baş vermir. Gözlərimizn önündə Azərbaycanla Çin arasında əməkdaşlığın yeni səhifəsi açılır. İkitərəfli əlaqələrin strateji səviyyəyə yüksəlməsinin təzahürü kimi qəbul olunan bu səfərin tarixi əhəmiyyəti hələ bundan sonra araşdırılacaq.

* * *

Azərbaycan və ÇXR hökumətlərii arasında müxtəlif sahələrə dair imzalanan 18 sənədin hər biri əhəmiyyətinə görə yüksəkdir. Məsələn, ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsini, ARDNF və Çinin İnvestisiya Korporasiyası arasında Anlaşma Memorandumunu, yaxud "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq Planını götürək.

"Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan–Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu" isə xalqlarımız arasında əməkdaşlığın qardaşlıq səviyyəsinə qalxmasının bariz nümunəsi sayıla bilər.

Artıq hamıya məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın bir nömrəli iqtisadi gücü olan ölkəyə – Çinə səfərinin məntiqi yalnız Cənubi Qafqazda qarşılıqlı maraqlara söykənən layihələri həyata keçirmək istəyi ilə məhdudlaşmır. Asiyanın qüdrətli ölkəsi ilə bölgənin lideri sabit və təhlükəsiz şəraitdə uğurlu və davamlı inkişafı bərabər təmin etmək barədə razılığa gəlirlər. Azərbaycanın bu gün dünyanın əsas "güc mərkəzləri"ndən birinə çevrilən Çinlə çoxvektorlu xarici siyasət doktrinasına üstünlük verməsi heç kəsə sirr deyil. 2024-cü il iyulun 3-də Azərbaycanla Çin arasında Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" imzalandı. Dünən isə Pekində iki ölkənin liderləri hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanata imza atdılar. Yəni, üstündən bir il keçməmiş Bakı və Pekin münasibətlərinin xarakterinin və miqyasının bəyannamədən bəyanat səviyyəsinə qədər yüksəldiyini təsdiqləmiş oldular. Yuxarıda qeyd etdiyimiz kimi, həm siyasi, həm də iqtisadi baxımdan belə möhtəşəm keçidə qədər tərəflər uzun, faydalı bir yol qətt ediblər, tarixin sınaqlarından, qarşılıqlı etimad testindən alnıaçıq, üzüağ çıxıblar.

* * *

Strateji tərəfdaşlığın arxada qalan dövrünə nəzər salmalı olsaq, Azərbaycanın Çinin dominatlıq etdiyi Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) dialoq üzrə tərəfdaş olması nəzərdən qaçırılmamalıdır. Onu da qeyd etməliyik ki, həm ŞƏT-in, həm də BRICS-in bütün üzv dövlətlərinin Azərbaycanla səmimi və dost münasibətləri var. Axı, ölkəmizin Şimaldan Cənuba, Şərqdən Qərbə gedən marşrutun üzərində nəqliyyat habına çevrilməsi Çin və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı daha da gücləndirməyi diktə edir. Burada söhbət yalnız iqtisadi əməkdaşlıqdan getmir. Beynəlxalq əhəmiyyət kəsb edən transmilli layihələrin birgə reallaşdırılması regional sabitliyə və sülhə töhfə verəcək. Bu layihələrdə Çinin iştirakı təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün xüsusi əhəmiyyət kəsb edir. Avropaya yolun Azərbaycandan keçmədən mümkünsüzlüyünü yaxşı bilən rəsmi Pekin Bakı ilə hər sahədə əməkdaşlığı özü üçün uduş variantı kimi qəbul edir. Elə iki ölkənin vətəndaşları üçün vizasız gediş-gəliş rejiminin tətbiq edilməsi barədə razılaşmaya da məhz bu kontekstdən yanaşmaq lazımdır.

Digər mühüm məqam Mərkəzi Asiya və Azərbaycan üçün taleyüklü sayılan Orta Dəhliz layihəsində Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün rolunu artırmaqdır. Burada söhbət daha ucuz başa gələn və gəlirli ticarət marşrutlarını inkişaf etdirməkdən gedir. Bu isə Pekinin Azərbaycanın strateji layihəsi sayılan Zəngəzur dəhlizinə daha geniş bucaq altında baxmasına təkan verir.

"Şadam ki, qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan–Çin münasibətləri yüksələn xətlə inkişaf edir, bizim strateji tərəfdaşlığımız isə yeni müsbət məzmunla zənginləşir". Bu fikri Prezident İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibəsində səsləndirib. Dövlət başçısı onu da qeyd edib ki, fəal dialoq, şəxsi görüşlər, telefon danışıqları, məktubların mübadiləsi əsasında yaranan qarşılıqlı hörmət və etimad ikitərəfli münasibətlərin dərinləşməsində misilsiz rol oynayır. Prezident deyib ki, biz "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığı genişləndiririk və bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb: "Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir".

* * *

Prezident İlham Əliyevin Çinə dövlət səfərinin mahiyyəti və məntiqi, sadəcə, Cənubi Qafqazda ortaq maraqlara xidmət edəcək yeni infrastrukturlar yaratmaq planları ilə məhdudlaşmır. Dövlətimizin başçısının Pekinə səfərinin beynəlxalq münasibətlər sistemində mizan-tərəzinin pozulduğu indiki məqamda reallaşması qlobal əhəmiyyəti ilə diqqətləri cəlb etməkdədir. Bu səfər dostlarımızla yanaşı, bədxahlarımız tərəfindən də böyük diqqət və maraqla izlənilir.

Yenidən Prezident İlham Əliyevin 2023-cü ildə Çinin "China Media Group"una verdiyi müsahibədə toxunduğu çox önəmli məqamlara qayıdırıq. İki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu xüsusi vurğulayan dövlətimizin başçısı, eyni zamanda, bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda ölkələrimizin bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış etməsinə də toxunub: "Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq, iqtisadi əməkdaşlıq məsələlərində mövqelərimiz üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaq".

Prezident İlham Əliyevin bu fikri Azərbaycan ilə Çin arasında mövcud olan strateji münasibətlərin və əməkdaşlığın uzunmüddətli perspektivini çox yaxşı əks etdirir. Əslində, beynəlxalq gündəlikdə suverenlik, müstəqillik və ərazi bütövlüyü kimi prinsiplər dünyanın bütün ölkələri üçün önəmli məsələlərdir. Azərbaycan və Çin 30 ildir ki, bu müstəvidə bir-birini dəstəkləyir və oxşar mövqe nümayiş etdirirlər. Bu yanaşma, həmçinin Bakı və Pekinin beynəlxalq platformalarda həmrəyliyinin, qarşılıqlı etimadın artmasının göstəricisidir. Prezidentin Pekinə səfərində vurğuladığı mövqelər yalnız rəsmi səviyyədə deyil, həm də gündəlik praktikada konturları görünən yol xəritəsi kimi qəbul edilməlidir. Bəyannamədən Bəyanata transformasiya olunmuş bu mövqelər həm Azərbaycan, həm də Çin üçün uzunmüddətli xarici siyasət xəttini müəyyənləşdirən və qarşılıqlı faydalara əsaslanan strateji təməl yaratmağa hesablanıb.

Azərbaycanın xarici siyasətinin məqsədi bütün dünya dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalılıq prinsipinə söykənən münasibətlərin qurulması və inkişaf etdirilməsidir. Bu prinsiplərə sadiqliyini təsdiqləmiş Bakı artıq strateji tərəfdaş seçimini etmişdir. Yazımızı Çinin Azərbaycandakı səfiri Lu Meyin sözləri ilə bitirmək istərdik. Onun fikrincə, Çin və Azərbaycanın yüksək səviyyəli rəsmiləri arasında qurulmuş etibarlı və səmimi işgüzar münasibətlər və dərin şəxsi dostluq fonunda gələcəyə baxaraq deyə bilərik ki, "Çin–Azərbaycan strateji tərəfdaşlığı geniş perspektivlərə malikdir və böyük ümidlər yaradır".

***İmran BƏDİRXANLI***
***XQ***

# Bakı–Astana hərbi əməkdaşlığı genişlənir

**Azərbaycan və Qazaxıstan Cənubi Qafqaz və Mərkəzi Asiyanın aparıcı ölkələri kimi yeni dünya düzəninin formalaşdığı indiki geosiyasi dövrdə beynəlxalq təhlükəsizliyə, siyasi sabitliyə, inkişaf və tərəqqinin təmin edilməsinə, mədəniyyətlərarası dialoqa töhfə verir.**



İki ölkə arasında siyasi münasibətlər sistemini müəyyən edən amillər arasında geostrateji mövqe, zəngin enerji resursları, enerji və nəqliyyar dəhlizləri var. Qazaxıstan öz neftinin bir hissəsini Azərbaycandan keçməklə Avropaya göndərir. Hazırda bu ölkədə yeni Kurık terminalı tikilir ki, bu da tədarük həcmini artırmağa imkan verəcək. Liman vasitəsilə yalnız neftin deyil, həm də sənaye mallarının, avadanlıqların və s. göndərilməsi təmin ediləcək. Azərbaycandan isə yüklər Bakı–Tbilisi–Qars dəmir yollu ilə Türkiyəyə daşınacaq.

Bakı ilə Astana arasında əlaqələrin möhkəmlənməsinə xidmət edən Orta dəhlizi də unutmaq olmaz. Bundan başqa, regionda yaranmış yeni reallıqlar postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizinin rolunu artıracaq və Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün yeni fürsətlər yaradacaq. İki ölkənin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilmələrinə xidmət edən "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin əsas hissəsi olan Xəzəraltı fiber-optik kabel magistralının çəkilməsi istiqamətində iş uğurlu davam edir. Bunlar onu deməyə əsas verir ki, tezliklə dəniz əlaqələri daha aktiv olacaq. Xəzər dənizi ilə böyük həcmdə neftin nəqli, ağır texnikaların daşınması həyata keçiriləcək. Çox güman ki, uzunmüddətli perspektivdə yeni neft yataqlarının birgə istismarı da mümkündür. Birbaşa iqtisadi əlaqələr isə hərbi əməkdaşlıqla dəstəklənir.

Bu gün Xəzərdə müxtəlif hadisələr baş verir və terror ehtimalının istisna edilmədiyi belə çətin vaxtlarda regionun təhlükəsizliyi ön plana çıxır. Buna görə də Qazaxıstanla Azərbaycan arasında hərbi əməkdaşlığın inkişafına ehtiyac yaranıb.

Regionun texniki təhlükəsizliyini təmin etmək üçün təlimlər, xüsusi hərbi məktəblər lazımdır. Söhbət təkcə sualtı təmir işlərindən deyil, xüsusi texnikanın tətbiqi ilə genişmiqyaslı birgə təlimlərdən gedir. Bu məqsədlə təlim keçmiş kadr korpusuna ehtiyac yaranır. Həm hərbçilər, həm də mülki şəxslər hazırlanmalıdır. Amma hərbi xidmət daha səmərəli və təsirli olduğundan, praktikada müxtəlif əməliyyatlara məhz onlar cəlb olunurlar. Bu təcrübədən bütün dünyada istifadə olunur: Şimal dənizində, Meksika körfəzində. Bu mənada, regionda irimiqyaslı hərbi təlimlərin keçirilməsi iki ölkə arasında əməkdaşlıq sferasında mühüm rol oynayır.

Cari il aprelin 10-da Qazaxıstanda "Caspian Breeze-2025" birgə hərbi dəniz təlimlərinə hazırlıqla bağlı Müdafiə Nazirlikləri arasında qərargah danışıqları aparılıb. Bu təlimlər Xəzər dənizinin Qazaxıstan hissəsində baş tutacaq. Təlimlərin keçirildiyi ərazidə gəmilərin yerləşdirilməsi və keçid zamanı onların birgə naviqasiyası elementlərinin yerinə yetirilməsi nəzərdə tutulur. Hərbi dənizçilər asimmetrik təhlükələri dəf etmək və qəza vəziyyətində olan təyyarələrə, gəmilərə yardım göstərmək üzərində işləyəcəklər. Dəniz və hava hədəflərində canlı atəş təlimləri də keçiriləcək. Bununla bağlı məlumatda qeyd olunur ki, təlimlərdə Azərbaycandan iki patrul gəmisi, bir yardımçı gəmi və sahil bölmələri iştirak edəcəklər. Bu, Azərbaycan hərbçilərinin Qazaxıstanın Xəzər sularında iştirak etdiyi ilk hərbi təlim deyil. Ötən il iyulun 8-dən 17-dək hərbçilərimiz Qazaxıstanda keçirilən "Birlestik-2024" beynəlxalq hərbi təlimlərində iştirak ediblər. Azərbaycandan başqa, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan hərbçilərinin də iştirak etdiyi "Birlestik-2024"- də ölkəmizi Quru qoşunların komando bölmələrinin bir qrup hərbi qulluqçusu, Hərbi Hava Qüvvələrin paraşüt desant və axtarış-xilasetmə qrupu, "Su-25" təyyarələri, eləcə də Hərbi Dəniz Qüvvələrinin patrul-desant gəmiləri təmsil ediblər.

Təlimlərdə iştirakçılar Xəzər dənizinin sahil sularında qanunsuz silahlı birləşmələrin məhv edilməsi istiqamətində tədbirlər həyata keçiriblər. Şəxsi heyət müasir döyüşün aparılması üsulları nəzərə alınmaqla qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıq və dəqiqliklə yerinə yetirib.

Bu il iki ölkənin hərbçiləri daha bir hərbi təlimdə iştirak edəcəklər. Aprelin 18-də Qazaxıstan HHQ-nin nümayəndələri Bakıda azərbaycanlı həmkarları ilə görüşüblər. Görüşdə "Təxirəsalınmaz uçuşların təmin edilməsi zamanı qarşılıqlı əlaqə və birgə fəaliyyətin təşkili məsələlərinin müzakirəsi" çərçivəsində bir çox məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Həmin gün Qazaxıstan Həmlə–Desant Qüvvələrinin komandanı, general-mayor Almaz Cumakeyevin rəhbərlik etdiyi nümayəndə heyəti Komando və Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrini ziyarət edib. Qonaqlara hərbi hissənin tarixi və gündəlik fəaliyyəti, maddi-texniki təchizatı barədə məlumat verilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Qonaqlar tam təchizatlı komandoların sıra hazırlığına baxdıqdan sonra onların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətlərini izləyiblər.

Bütün bunlar iki ölkə arasında qarşılıqlı anlaşmanın məntiqi davamıdır. Əlaqələr kəşfiyyat xidmətləri sahəsində də genişlənir. Bu baxımdan qeyd etmək olar ki, 2024-cü ilin iyununda Astana və Bakı arasında 5 il müddətinə hərbi kəşfiyyat sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb. Müqavilə müdafiə sahəsində hərbi kəşfiyyat məlumatlarının qarşılıqlı mübadiləsini, şəxsi heyət üçün ölkələrin ərazilərində birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsini nəzərdə tutur.

Sazişə görə, ölkələr əks tərəfə qarşı hərbi kəşfiyyat fəaliyyəti həyata keçirməyəcəklər. Sənəddə deyilir ki, imzalanmış saziş çərçivəsində ölkələrin mübadilə edəcəyi məlumat onu verən tərəfin yazılı razılığı olmadan açıqlana və ya üçüncü tərəfə ötürülə bilməz.

Ümumiyyətlə, 2024 Bakı ilə Astana arasında hərbi əməkdaşlıq sahəsində məhsuldar il olub. Cunqar Alatau dağlarında ilk dəfə Qazaxıstanın desant-hücum qoşunları ilə Azərbaycanın xüsusi təyinatlı qüvvələrinin birgə "Altın Kıran-2024" ("Qızıl Qartal-2024") təlimləri keçirilib. Məqsəd döyüş tapşırığının icrası zamanı şəxsi heyətin taktiki vərdişlərinin təkmilləşdirilməsi və bölmələrin döyüş qabiliyyətinin yüksəldilməsi idi.

Onu da qeyd edək ki, by təlimlərdə döyüş hazırlığı ilə bir sırada şəxsi heyətin mənəvi-psixoloji hazırlığına da diqqət yetirilib. Döyüş vərdişləri təkmilləşdirilib, əsgərlərin bilik və bacarıqları artırılıb. Təlimlər ərəfəsində əsgərlərə müxtəsər informasiyalar verilib. Bu da təlimin səviyyəsinin yüksəldilməsində, nəticə etibarilə şəxsi heyətin döyüş hazırlığının artırılmasında əhəmiyyətli olub.

Təlimlərdə müasir silahlardan istifadə edilib. Nəzəri baxımdan mənimsənilmiş hərbi biliklər təlimlərlə möhkəmləndirilib. Eyni zamanda, dağ massivlərində hücumların təşkili məşq etdirilib.

Onu da qeyd edək ki, ötən ilin sentyabrında Qazaxıstanın Müdafiə naziri Ruslan Jaksılıkov 5-ci Azərbaycan Beynəlxalq Müdafiə "ADEX V" sərgisində iştirak edib. "Bakı Ekspo Mərkəzi"ndə qazaxıstanlı hərbi qulluqçular dəniz, hava və quru qoşunları üçün istehsal edilən məhsullarla, eləcə də təhlükəsizlik sahəsində son yeniliklərlə tanış olublar.

Qazaxıstanın Müdafiə naziri hər iki ölkənin müdafiə idarələri arasında qarşılıqlı əlaqələrin müsbət dinamikasından danışarkən deyib ki, bugünədək 30-dan çox tədbir həyata keçirilib. Danışıqlardan sonra Qazaxıstan və Azərbaycan arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı və milli müdafiə universitetləri arasında Memorandum imzalanıb.

Beləliklə, son illər Qazaxıstan və Azərbaycan həm ikitərəfli, həm də müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət çərçivəsində hərbi əməkdaşlığı nəzərəçarpacaq dərəcədə gücləndiriblər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Xankəndidən dünyaya mesajlar: Müharibə üzərində Qələbə dərsi

**Azərbaycanda akkreditə olunmuş səfirlərin Xankəndiyə aparılması maraqlı hadisədir. Onlarla Qarabağ Universitetində görüşün keçirilməsi isə ayrıca önəm daşıyır.**



Niyəsini deyim. Prezidentin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, əslində, bunu çox aydın ifadə edib. Ötən əsrin 80-ci illərinin sonlarında bu şəhər separatizmin, terrorizmin mərkəzinə çevrilmişdi. Təbii ki, Ermənistanın və onun arxasında duran güclərin sayəsində Xankəndi cinayətkar yuvasına dönmüşdü. Ancaq Azərbaycan 2020-ci ildə hərbi əməliyyatlarla və 2023-cü ildə antiterror tədbirləri ilə öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bundan sonra Qarabağ nəhəng inşaat meydanına çevrildi; burada təmir-bərpa və tikinti işləri geniş vüsətlə və tam sürətlə gedir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məskunlaşma və iqtisadi-təsərrüfat fəaliyyətləri yüksələn xətlə davam edir. Azərbaycan özü təkbaşına bu bölgəyə nəhəng məbləğlərdə sərmayələr yatırır, mühüm iqtisadi, infrastruktur, sosial-mədəni layihələr həyata keçirir.

Beləliklə, 30 ildən çox müddət ərzində Ermənistanın işğal edib, separatizm, terrorizm yuvasına çevirdiyi Qarabağ, eləcə də, Şərqi Zəngəzur bölgələri indi bir yandan sabitlik, dinc quruculuq məkanına, biznes cənnətinə dönür, o biri yandan, elm, təhsil, mədəniyyət mərkəzinə çevrilir.

El arasında deyildiyi kimi, kimin əli dəyən yerdə ot da bitmədiyini, kimin əli dəyən yerin gülüstana çevrildiyini hər kəs görür. Əlbəttə, o "hər kəs" əgər təkcə gözü ilə deyil, həm də vicdanı ilə baxırsa.

Bax, bu səbəbdən (həm də bu səbəbdən) Azərbaycandakı xarici diplomatik korpus təmsilçilərinin Qarabağa, Şərqi Zəngəzura müntəzəm səfərləri mühümdür. Bizim görməyimiz bir ayrıdır, kənar gözlərə göstərməyimizin isə əhəmiyyəti başqadır.

Biz xarici ölkələrin səfirlərinə göstərdik: kim vaxtilə Qarabağda terror dəstələri yaratmışdı, kim indi universitet açıb. Fərqi görürsünüzmü?!

Ermənistan otuz illik işğal dövründə Qarabağda torpağa milyonlarla mina basdırıb, Azərbaycan isə gül fidanları basdırır, ağac əkir, meşə salır. İşğalçı onillərlə Qarabağda evləri, xəstəxanaları, dini məbədləri dağıdırdı, Azərbaycan isə azad etdiyi bu torpaqlarda yeni şəhərlər, qəsəbələr, kəndlər salır, dini ibadətgahları bərpa edir. İşğalçı uşaq bağçalarını, orta məktəbləri viran qoyduğu halda, Azərbaycan indi bu bölgələrdə də yeni məktəbəqədər, orta ümumtəhsil, hətta ali təhsil ocaqları yaradır, qurur. 2020-ci il noyabrın 8-nə – tarixi Qələbəyə qədər işğal altında olmuş Qarabağda, Şərqi Zəngəzurda indi körpələr, uşaqlar bağçalara, şagirdlər məktəblərə, tələbələr universitetə gedirlər, böyüklər biznes açır, iş görürlər.

Yaxud başqa bir fərqə diqqət edək: işğalçı bölgəni Azərbaycanın qalan əraziləri ilə birləşdirən yolları bağlayır, körpüləri dağıdır, keçilməz hərbi istehkamlar qurur, dərin səngərlər, yeraltı bunkerlər qazırdı. Amma Azərbaycan yeni magistrallar salır, dəmir yollarını bərpa edir, hava limanları tikir, yeni logistika mərkəzləri yaradır. Hətta Ermınistanın öz ərazisindən də keçəcək nəqliyyat-kommunikasiya xətlərinin öz payına düşən hissəsini Azərbaycan qurub və qurmaqda davam edir...

Bu fərqləri görürsünüz. Qarabağa səfər edən diplomatların da gördüyü və görməli olduğu gerçəklər məhz bunlardır.

Hikmət Hacıyev deyir: "Azərbaycan Cənubi Qafqazda yeni status-kvo yaradıb".

Bu, təbii ki, doğru fikirdir; Azərbaycan bölgənin geopolitikasına korrektələr edib, yeni reallıqlar gətirib. Ən başlıcası, Azərbaycan Cənubi Qafqaz xalqlarına müharibəyə alternativ olan dinc həyat modelini qazandırıb. Azərbaycan Prezidenti İlham Əliyevin də yeri gəldikcə, çıxışlarında dediyi kimi, tarix boyu müharibələr, münaqişələr, qanlı toqquşmalar meydanına çevrilmiş Cənubi Qafqaz bölgəsində sülh, dinc qonşuluq, səmimi dostluq, qarşılıqlı işbirliyi şəraitində yaşamaq da mümkün olarmış! Azərbaycan bölgəyə bu alternativi – bu yolu göstərdi, xalqlar üçün müharibəsiz yaşamın "yol xəritəsi"ni cızdı.

Əsrlərlə belə bir fikir formalaşdırılmış və sanki doqma dərəcəsində təqdim, təlqin olunmuşdu ki, Cənubi Qafqazda dinc həyat mümkün deyil; burada yaşayan xalqlar, xüsusilə, müsəlman toplumlar mədəniyyət yarada bilməzlər, əksinə mədəniyyətləri dağıdanlardır və sair. Guya biz yalnız vuran, qıran, dağıdan, bir-biri ilə didişən, necə deyərlər, yarımyabanı insan toplumlarıyıq. Ancaq Azərbaycan bütün bunların tam əksini bir daha, təkzibolunmaz dəlillərlə isbat etdi.

Bu səbəbdən (həm də bu səbəbdən) 2020-ci il 8 noyabr Qələbəsi təkcə hərbi zəfər deyil; bunu, sadəcə, müharibədə qalib gəlməyimiz kimi təqdim etmək doğru olmaz. Bu qələbə həm də əsrlərlə formalaşmış, qəsdən formalaşdırılmış və beyinlərə yeridilmiş yanlış-yabançı təsəvvürləri, daşlaşmış stereotipləri dəyişdi, hətta dağıtdı. Bu, Cənubi Qafqaz bölgəsində tarixi prosesin gedişini dəyişən bir gediş idi. Ona görə də bu qələbəyə "tarixi" ifadəsi yaraşır. Çünki Azərbaycan bu qələbəni, sadəcə, özü üçün qazanmayıb ki! Bu, bütün Qafqazın, daha geniş mənada insanlığın qələbəsidir. Bu, təkcə müharibədə qələbə deyildi, müharibə üzərində qələbə idi.

Xarici diplomatların da Qarabağ səfərindən, Xankəndi görüşlərindən çıxaracaqları, çıxarmalı olduqları ən başlıca nəticələr məhz bunlardır. Xüsusilə, Ermənistanı qəsdən silahlandırıb, bu bölgəni yenidən dağıdıcı müharibə girdabına sürükləmək istəyənlər üçün burada aydın və inandırıcı dərslər var. Belə deyək: Xankəndidə – Qarabağ Universitetində əcnəbi elçilərə Cənubi Qafqazda sülh dərsləri keçildi. Kim nə qədər dinlədi, necə anladı – bu, artıq o elçilərin özlərinə qalıb!

***Bahəddin HƏZİ***

Replika

# "Brüsselsayağı suflyorluq"

## *Aİ təmsilçiləri "aktor"a pıçıldamır, hökm edirlər*



**Öncə suflyorluq haqqında bir neçə kəlmə. Bu peşə sahibi tamaşa zamanı aktyorlara rolların sözlərini yavaşcadan söyləyən şəxsdir. Yəni teatr işçisidir. Suflyorluq eramızdan əvvəl – klassik yunan teatrlarının hazırlanması zamanı ərsəyə gəlib. Yəni köhnə peşədir. Elə ermənilər də köhnə peşələri yaxşı bacarırlar. Təkcə özləri haqqında mif yaratmaq peşəkarlığını demirəm, hər şeyi nəzərdə tuturam.**

Suflyorluq teatrda ötən əsrin sonlarınadək dəbdə olub. Hətta mən onlarla görüşüb söhbət də eləmişəm. Xatırladaq ki, aktyor irihəcmli əsərlərdəki replikalarını tam əzbərləyə bilməyəndə mütləq suflyorun xidmətindən istifadə edilirdi. Əvvəllər suflyor səhnədə quraşdırılmış – zaldakıların da gördüyü xüsusi yerdə əyləşirdi. Sonrakı dövrdə onu tamaşa zalının ilk sırasında əyləşdirdilər, lap sonra isə pərdənin arxasında "gizlətdilər".

Bu sətirləri yada salmaqda məqsədim Avropa İttifaqı adı ilə Brüsseldə oturmuş "teatr işçilərinin" İrəvandakı tərəf-müqabillərinə siyasi suflyorluq etməsini xatırlatmaqdır. Onların bu əməli – deyəcəyi replikaların hamısını "unutmuş" Ermənistana yol göstərən pıçıltıları eynilə qədim suflyorluğun davamı olduğunu sübut edir. Mərhum Minsk qrupunun sağlığında suflyor birbaşa səhnənin ortasında – hamının gördüyü yerdə idi. Həmin qrup gorbagor olandan sonra suflyor birbaşa zalda – tamaşaçıların arasında əyləşirdi. Yəni Xankəndi, Laçın və bəzi ərazilərimiz hələ əsarətdə olanda Aİ rəsmiləri oralarda görünməkdən utanmırdılar.

Azərbaycan Ordusunun 23 saatlıq antiterror əməliyyatlarından sonra isə gözəgörünməz rejissor suflyorları bir az geri, yəni pərdənin arxasına çəkdi. Amma, həmin "qədim peşə sahibləri" harada dayandıqlarından asılı olmayaraq, Ermənistanın qulağına çox mətləblər barədə pıçıldayırlar. Elə olmasaydı, gah Ermənistan siyasətçiləri, gah da tarix boyu əli türk qanına bulaşmış, hətta "Feyri" ilə də yuyub təmizləməyi bacarmayan keşişlər ssenaridənkənar replikalarla danışmazdılar.

Brüssel "teatr xadimləri" son zamanlar Cənubi Qafqazda otuz ildən çox davam etmiş faciələrin ( dram sözünü bilərəkdən işlətmirik ki, hayların milli valyutası yada düşməsin) yenidən canlandırılması üçün təkcə suflyorluq etmir, həm də yeni ssenarilər yazır, daha modern üslubla işləyə bilən rejissorlar tapırlar. Məsələn, bir qrup qaniçən erməni keşişin Azərbaycanın sınanmış dostlarından olan İsrailin gözü qarşısında – Qüdsdə terror və quldurların yaratdığı "dövlətin" murdar əskisini qaldırması yeni ssenarilərdən biri idi. Onlar umurdular (yəni gözləyirdilər-red) ki, İsrail polisi həmin fakta göz yumacaq və rəsmi Bakı Təl-Əvivdən inciyəcək. Tarix boyu uydurduqları bütün xülyaları kimi həmin planları da məhv oldu.

Yaxud, Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasının mandatının daha iki il uzadılması nə deməkdir? Bu, köhnə qitədə yazılmış yeni məkrli ssenari deyilmi? Maraqlıdır ki, bu missiyanın tərkibindəki alman polislərinin və fransız jandarmeriyasının təmsilçiləri son zamanlar xeyli canlanıblar. Deyəsən, Cənubi Qafqazın havası onlara düşüb. Hətta yeni peşələrə də yiyələnirlər. Qoca nemes sərhəddən Azərbaycan tərəfə baxıb foto çəkir, çiyni heydən düşmüş fransız qocası videokameranı dizi üstünə qoyub Azərbaycan təbiətinin gözəlliklərinə heyran qalır.

Deyilənə görə, niderlandlı mülki missiya iştirakçılarından biri binoklla təmas xəttinə yaxın ərazidəki Azərbaycan əsgərlərinin hərəkətlərinə nəzarət edəndə yeni fakt tapmış kəşfiyyatçı kimi dərhal öz həmkarlarını yanına çağırıb. O elə bilibmiş ki, kolların arxa tərəfinə keçən əsgərimiz hansısa hərbi təxribata hazırlaşırlar. Amma elə deyilmiş. Əsgər kolların arxasında ayaqüstü təbii ehtiyacını yerinə yetirirmiş. Avropalılar da iri binokllarla görüblər. Maraqlıdır ki, son zamanlar Ermənistanda binoklla teatr quran ( həm də əsgərlərimizin hərəkətlərinə tamaşa edən) Avropa təmsilçilərinin sayı artq 210 nəfərdir. Tamaşa ilk dəfə səhnələşdiriləndə isə cəmi 40 nəfər idi. Mətbuat yazır ki, Brüsselin qəbul etdiyi qərara əsasən həmin 210 nəfər 2027-ci ilin fevralınadək həmin binokllarla tamaşaya baxacaqlar.

Yeri gəlmişkən mən Bakıda və Moskvada bəzi tamaşaçıların binokl götürərək teatr zalına girdiklərini görmüşdüm. Amma o binoklları pencəyin üst cibinə də qoymaq olardı. "Ələyi ələnib, xəlbiri göydə fırlanan" Avropa mülki missiya təmsilçilərinin istifadə etməyə məcbur olduğu binokllar isə onların başından böyük görünür. Yəni Azərbaycan əleyhinə casusluq etmək üçün regiona göndərilmiş həmin bəxtsiz qocalar çox ağır yükün altına itələniblər. Çünki Brüssel hər gün onlardan təxribat haqqında fakt gözləyir, Azərbaycan əsgəri isə onlara həmin faktı vermir. Vəssalam!

Odur ki, "Əski qitə"nin qoca missionerləri ancaq ermənilərin qədim peşəsi olan ... miflərə qulaq asmaqdan başqa heç nə əldə edə bilmirlər və bilməyəcəklər. Yəni kim kimə suflyorluq edirsə etsin, neçə ssenari yazırlarsa yazsınlar, hansı prosesə tamaşa edirlərsə etsinlər, son nəticədə Azərbaycan siyasəti və diplomatiyası təkcə Hayastanı deyil, Avropanı da əliboş qoymaqda davam edəcək və edir.

***İttifaq MİRZƏBƏYLİ***

# "Daşnaksütyun"un yeni hoqqası

*(əvvəli 1-ci səhifədə)*

Sonra isə iştirakçılar qondarma "soyqırımı" abidəsi olan "Sisernakaberd" memorial kompleksinə gəliblər.

Qeyd etdiyimiz kimi, qondarma olayların ildönümü münasibətilə yürüşün keçirilməsi radikalların qarşıdurma yaratmaq cəhdlərindən biri kimi qiymətləndirilir. Təsadüfi deyil ki, populyar "Baqramyan 26" teleqram kanalı bununla bağlı yayımladığı materiala "Məşəl yürüşü adı altında Koçaryan–daşnak qastrolunun yeni mövsümü başlayır" kimi münasib sərlövhə verib. Qeyd edilib ki, 2022-ci ildə olduğu kimi, bu il də Koçaryan–daşnak seqmenti "məşəl yürüşü" pərdəsi altında küçə etirazları keçirməyi planlaşdırır. Kanalın əldə etdiyi məlumata görə, hətta kifayət qədər iştirakçı olarsa, dövlət qurumlarının binalarına girişin qarşısının alınmasına cəhd ediləcəyi nəzərdə tutulur, bu binaları ələ keçirmək halları da mümkündür.

Bildirilib ki, bu ssenari bizə yaxşı məlumdur, çünki məhz 2022-ci ilin aprelində "məşəl yürüşü"nün keçirilməsi ilə işə salınıb: "Sözsüz ki, daşnaklar üçün icazəli ilə icazəsizi, mənəviyyatla mənəviyyatsızlığı bir-birindən ayıran qırmızı xətlər və sərhədlər yoxdur. Hətta "erməni soyqırımı" qurbanlarının anım mərasimindən hər il daşnaklar və Koçaryan klanının nümayəndələri sırf daxili siyasi məqsədlər üçün istifadə edirlər. Görünür, onlar dövlət əleyhinə hərəkətlərinə görə xaricdən növbəti dəfə "qrant" alıblar, sponsorlarının ümidlərini doğrultmaq üçün onu həyata keçirməyə çalışacaqlar. Bizim yenidən bayraq yandırma səhnələrinin, məzmunsuz açıqlamaların şahidi olacağımız ehtimalı yüksəkdir. Ümumxalq hüznünü daxili siyasi mübarizə alətinə çevirməyə çalışanlar bütün erməni xalqına və diaspora nə qədər zərbə vurduqlarının fərqində belə deyillər. İstər "məşəl yürüşü"ndə, istərsə də "soyqırımı qurbanları"nın anım mərasimlərində rahat iştirak edəcək minlərlə insan bu ucuz daxili siyasi alveri, faciənin dəyərsizləşməsini görüb bu tədbirlərdən imtina edir və ona qatılmır. Koçaryan–Sarkisyan tərəfdarlarını isə təbii ki, bu, narahat etmir. İstənilən halda hüquq-mühafizə orqanlarının missiyası "məşəl yürüşü" zamanı və sonrakı günlərdə daşnakların həyata keçirməyi planlaşdırdıqları bütün növ təxribatların qarşısını operativ şəkildə almaq olmalıdır".

Bu arada qondarma "soyqırımı" ərəfəsində siyasi qüvvələr bir-birini məlum olaylardan sui-istifadədə, siyasi xal qazanmaq üçün yararlanmaqda ittiham edirlər. Məsələn aprelin 23-də Milli Assambleyada ənənəvi brifinq zamanı hakim "Mülki müqavilə" partiyasından olan deputat Vaaqn Aleksanyan Ermənistanın iki prezidentini "soyqırımı"-nın beynəlxalq səviyyədə tanınması uğrunda mübarizə ideyasına xəyanətdə ittiham edib. Aleksanyan Nikol Paşinyan iqtidarının, guya, Osmanlı imperiyasında baş vermiş "erməni soyqırımı" faktından imtina etmək istəməsi ilə bağlı müxalifətin son ittihamlarını şərh edərkən deyib: "2008-2018-ci illərdə hakimiyyətdə olan Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan ABŞ-ın o dövrdəki vitse-prezidenti Co Baydendən xahiş etmişdi ki, "erməni soyqırımı" məsələsini çox da qabartmasın. Bunu Baydenin özü sonradan erməni icması ilə görüşdə demişdi. Eyni zamanda, "Vikiliks"in məxfiliyini ləğv etdiyi sənədlərə əsasən, məlum olmuşdu ki, ikinci prezident Robert Koçaryan ABŞ senatorlarının birindən "erməni soyqırımı faktını" tanımamağı xahiş etməyə hazır imiş".

Beləliklə, dünən İrəvan şəhəri Koçaryan–Sarkisyan cütlüyünün və daşnakların yeni hoqqasına şahidlik etdi. Ancaq onun təxribatlarına uyanların sayının azlığı diqqətdən yayınmadı. "Məşəl yürüşü" adı altında təxribatlar törədən qüvvəyə haylar bir daha "yox!" dedilər. Bu qüvvələr bir daha dərk etdilər ki, erməni xalqı onların hansısa ad altında təxribat törətməsinin fərqindədir. Bundan sonra onların yeri tarixin zibilliyidir.

Digər tərəfdən, çox güman ki, daşnaklar bu kontekstdə siyasi hakimiyyətə qayıdış üçün şans görürlər. Başda Koçarayn olmaqla revanşist qüvvələr düşünürlər ki, Rusiya–Ukrayna müharibəsinin bitməsi Cənubi Qafqazda Moskvanın təsir imkanlarını artıracaq. Bu kontekstdə qərbmeyilli Paşinyanın hakimiyyətdən getməsi və rusmeyilli qüvvələrin iqtidara gəlməsi ilə nəticələnəcək. Bu kimi aksiyalarla onlar, əslində, öz sosial bazalarını genişləndirmək istəyirlər. Hərçənd, hamı çox yaxşı bilir ki, Koçaryanın sosial bazası yox səviyyəsindədir. Qarabağ ermənilərini və Ermənistanın bəzi yerli vətəndaşlarını çıxmaq şərtilə əhalinin əksər hissəsi bu qüvvələri dəstəkləmir. Əgər məğlub ölkənin lideri, yəni Paşinyan 2021-ci ilin iyununda keçirilən növbədənkənar parlament seçkilərində qalib gəlirsə, bu o deməkdir ki, müxalifətin hamısı birləşsə belə, yerli elektoratın dəstəyini ala bilməz. Bunun bir səbəbi də yerli elektoratın Azərbaycanla yeni müharibədən çəkinməsidir. Onlar İkinci Qarabağ müharibəsi və lokal xarakterli antiterror tədbirləri zamanı Koçaryan–Sarkisyan rejiminin insanları saxta iddialarla ələ aldıqlarını gördülər. Başa düşdülər ki, bu rejim onları aldatmaqla məşğul olub. Anladılar ki, nə Ermənistan ordusu nizami ordudur, nə də Hayastan dövləti suveren və müstəqil dövlətdir. Ordunun və dövlətin mövcudluğuna dair bütün iddialar yalan imiş. Məlum oldu ki, bunların əvəzində parçalanmış, korrupsiyaya uğramış, dövlətçilik ənənəsi olmayan Ermənistan mövcuddur. Bütün bunları isə erməni xalqına əvvəlki siyasi rejimlər "hədiyyə" ediblər.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**

**Zaur MƏMMƏDOV,**
**Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri**



– Məsələ ondadır ki, 24 aprel qondarma "soyqırımı" günü uzun illərdir erməni diasporunun, kilsəsinin, "Daşnaksütyun" partiyasının və millətçi qüvvələrin hayları ətraflarında daha sıx birləşdirərək maliyyə qaynaqları əldə etmələri, siyasi hakimiyyətə yiyələnmələri üçün bəhanə rolunu oynayır. Ermənilərin saxta "soyqırımı" hadisələri ətrafında birləşərək ianələr verməsi bugünədək həmin qüvvələrin ən böyük gəlir mənbəyi olub. 1988-ci ildən sonra isə bu qüvvələr hayları həm də Qarabağ hərəkatı ətrafında birləşdirməyə nail olmuşdular. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət, əlbəttə, onların maliyyə piramidasının və siyasi hakimiyyətlərinin laxlaması ilə nəticələndi. Biz erməni diasporunun, kilsəsinin, daşnakların əldə etdikləri gəlirlərin statistikasına nəzər yetirsək görərik ki, 2020-ci ildən başlayaraq, bu gəlirlər ilbəil azalır. Əlbəttə, bu kimi "ümumerməni problemi"nin sıradan çıxması, onların tədricən ikinci plana keçməsi diaspora, kilsəyə, daşnaklara və koçaryanlara sərf etmir. Buna görə onlar bu "problem"in cəmiyyətin yaddaşında qalmasında, insanların qızışdırılmasında, türklərə və azərbaycanlılara qarşı nifrətinin daha da artmasında maraqlıdırlar. Bu olayların yaddaşlardan silinməməsi üçün əllərindən gələni edirlər.

Paşinyan 7 ilə yaxındır ki, hakimiyyətdədir. Onun komandasının üzvləri daşnak təfəkküründən bir qədər uzaqdırlar və Ermənistanın üzləşdiyi xarici və daxili problemlərin həllini başqa cür görürlər. Ancaq son vaxtlar baş verənlər göstərir ki. Paşinyan hakimiyyətinin daxilində də daşnaklara meyil edən qüvvələr var.

Müxalifəti birləşdirən əsas cəhət isə onların azərbaycanlılara və türklərə qarşı apardıqları mübarizədir. 2022-ci ildə "məşəl yürüşü" zamanı baş verənlər – Azərbaycan və Türkiyə bayraqlarının yandırılması hər kəsin yadındır. Yəqin ki, bu dəfə də onlar eyni hərəkətləri etməyə çalışacaq, türklərin və azərbaycanlıların onların düşməni olduğu ilə bağlı şüarlar səsləndirəcək, kin və nifrətlərini nümayiş etdirəcəklər.

Hazırda Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqlar başa çatıb. Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşması prosesi davam etməkdədir. Vaxtaşırı iki ölkədən olan xüsusi nümayəndələrin görüşləri keçirilir. Ermənistanın rəsmi şəxsləri və siyasətçiləri müxtəlif tədbirlərdə iştirak etmək üçün Türkiyəyə səfərlər edirlər. Azərbaycanla sülh sazişinin imzalanmasından sonra Türkiyə ilə sərhədlərin açılması aktuallıq kəsb edir. Belə olan təqdirdə daşnaklar, Koçaryan–Sarkisyan tərəfdarları, daxili və xarici qüvvələr bərk narahatdırlar. Onlar normallaşma prosesinin baş verməsini, Ermənistan–Azərbaycan və Ermənistan–Türkiyə münasibətlərində yeni səhifənin açılmasını istəmirlər. Buna görə də cəmiyyətdə düşmənçilik əhval ruhiyyəsini artırmaq, xalqlararası ədavəti qızışdırmaq üçün əllərindən gələni edəcəklər. Ancaq onların bütün bu əməlləri erməni xalqının və dövlətinin əleyhinə işləyəcək, ziyanına olacaq. Çünki bu proseslər bölgədə yeni müharibəyə gətirib çıxara bilər. Onlar bir gün tamamilə başqa reallıq qarşısında qala–gözlərini açıb başları üzərindəki bayrağın həmin torpaqların həqiqi sahibi olan xalqın bayrağı olduğunu görə bilərlər.

# “Erməni soyqırımı”: uydurmalar və gerçəklər

## *110 illik yalanın, böhtanın mahiyyəti və hədəf*

*Musa QASIMLI,*
*AMEA-nın müxbir üzvü, professor*



**(əvvəli ötən saylarımızda)**

İtaliyada təbliğatı Qrand Nazaryan, doktor Bazarcyan və digər Türkiyə ermənilərı aparırdılar. Burada qurulan “Ermənistan üçün İtaliya Komitəsi” 1917-ci ilin əvvəllərində ermənilərə yardım etmək üçün italyan xalqına müraciət etdi. Belə çağırışları Turində işləyən doktor Bazarcyan dərc etdirdiyi “Armenia” adlı jurnalda da edirdi. Romada qurulan İtaliya-Ermənistan Komitəsinin sədri İtaliyanın 1910-1911-ci illərdə baş naziri işləmiş Luici Luççati, üzvləri isə İtaliya parlamentinin üzvləri Barçilla, Qalli, Bissolati və Bonomi idi. İtaliyada “erməni məsələsi” ilə ən fəal məşğul olan şəxs Lesnid Bissolati idi. Müharibədə döyüşmüş, yaralanıb tərxis edildikdən sonra nazir təyin edilmiş bu adam “erməni məsələsi”nə o qədər aludə olmuşdu ki, Qrand Nazaryana məktubunda belə yazırdı:

“Heç bir məsələ, heç bir xalqın məsələsi bizim üçün erməni məsələsi qədər müqəddəs deyildir. Belə ki, heç bir xalq ermənilər qədər zərər görməmişdir.”

L.Bissolatidən sonra “erməni məsələsi”ni ən çox müdafiə edən L.Luççati erməni nümayəndələrinə demişdi ki, İtaliya yeganə idealist ölkədir, merkantil dünyada yeri yoxdur. Tam əmin ola bilərsiniz, İtaliya sizin fanatik müdafiəçiniz olacaqdır. Özünə gəlincə o bildirirdi ki, bütün bunları əvvəllər İngiltərənin baş naziri işləmiş, hələ 20 il əvvəl böyük dostu olan Vilyam Qladstondan öyrənib.

Böyük Britaniyada da təbliğat işi aparılırdı. 1917-ci ilin əvvəllərində katolikos V Gevorqu qəbul edən lodr Brays “erməni məsələsi”nin müharibənin sonunda imzalanacaq sülh müqaviləsinin şərtlərinə daxil etməkdən ötrü çalışacaqlarını bildirdi.

Rusiya hakimiyyət orqanları ermənilərin düşdükləri vəziyyət üçün Daşnaksütyunu təqsirləndirdilər. Tiflis quberniya jandarma idarəsinin rəisi polkovnik Pastrulyin 1917-ci il yanvarın 28-də Qafqaz canişinliyi dəftərxanansının xüsusi şöbəsinin rəisinə yazdığı 188 №li məxfi məktubunda qeyd edirdi ki, “Türkiyə Ermənistanı”ndan uzaq olan və ermənilərin həyatı, inkişaf səviyyəsi, milli özünüdərki haqqında tanış olmayan Daşnaksütyun rəhbərləri 30 il müddətində kabinetlərində oturaraq bütün bir xalqın taleyini həll etdilər və onu özbaşına buraxdılar. Özlərini ermənilərin taleyinin ifadəçisi hesab edən daşnaklar onu real dünya müharibəsinə qədər gətirdilər, bu müharibə nəticəsində ermənilərin azad olacağını təbliğ edirdilər. Lakin daşnaklar ermənilərə düzəlməz yaralar vurdular, onları yer üzündən silinmək həddinə gətirdilər. Belə vəziyyət bütün erməniləri Daşnaksütyunun əleyhinə yönəltdi. Xalq onları yalançı və saxtakar adlandırdı. Daşnaklar isə bunu türklərin etdiyinə dair haqqında şayiələr yaydılar. Daşnaksütyunun fəaliyyəti rusların işinə yaradı. Ermənisiz Ermənistan qaldı. Bu isə həm Rusiya, həm də Türkiyə ermənilərinə mənfi təsir etdi. Yaranmış şəraitdə özünü təmizə çıxarmaq üçün Daşnaksütyun belə bir təbliğat aparırdı:

“Könüllü dəstələri yalnız ruslar tərəfindən təşkil edilmişdir ki, türklər qəzəblənib erməniləri qırsınlar.”

Bu fikri daşnakların xaricdəki dostları da müdafiə edirdi. Belələrindən biri H.Bekston və Anatol Frans idi. Əvvəllər Qafqazda olan H.Bekston rusların erməni siyasətini belə ifadə edirdi:

“Əgər ruslar bizimlə və fransızlarla əlaqədə olmasaydılar, erməni məsələsindən yaxa qurtarmaq üçün erməniləri öz əlləri ilə doğrardılar.”

Anatol Frans isə deyirdi:

“Ermənilər rusların qucağına elə atıldılar ki, sanki onları dünən tanımışdılar; doğrudanmı onlar 1896-ci il erməni qırğınlarını, 1905-ci ildə erməni-tatar toqquşmalarını və bundan sonra ermənilərin təqib olunmalarını necə unutmuşdular.”



**Trabzondan köçən türklər**

## Erməni iddialarının əsası varmı?

Ermənilərin türk hökumətinin təhlükəsizlik tədbirlərini “böyük fəlakət” və “qırğın” kimi qələmə vermələri tarixi gerçəkliyə nə dərəcədə uyğundur? Bununla bağlı olaraq ən mötəbər mənbələr nə deyir?

Bu məsələdən söhbət gedəndə ilk növbədə belə bir suala cavab vermək lazımdır: birinci olaraq kim başladı? Sualın cavabı aydındır. Osmanlı dövləti ölüm-dirim savaşında bir neçə cəbhədə hərbi əməliyyatlar apararkən bəzi xarici dövlətlərin əlində alət olan erməni ünsürü və planlı şəkildə hazırlanmış erməni silahlı dəstələri dövləti arxadan vurdular, dinc türk, müsəlman əhaliyə divan tutdular. Osmanlı silahlı ermənilərə, terrorçulara, dövlət əleyhinə olanlara qarşı qanuni tədbirlər görməyə məcbur oldu. Dövlətin və millətin ümumi təhlükəsizliyinin etibarlı təmin edilməsi bütün dövrlərdə, xüsusən müharibə zamanı hər bir hökumətin başlıca vəzifəsidir. Deməli, Osmanlının təhküləsizlik tədbirləri qanuni idi.

Ermənilərin türklərə və digər müsəlman xalqlarına qarşı törətdikləri soyqırıma cavab olaraq yaşayış yerlərinin ölkə daxilində dəyişdirilməsi nəticəsində həyatlarını itirən ermənilərin sayını erməni təbliğatı şişirdir. Ölən ermənilərin sayı əvvəlcə 600 min, sonralar artırılaraq 800 min, daha sonra isə 1 milyon 500 min nəfər göstərilib. Məsələn, Böyük Britaniya mətbuatının 1918-ci ildəki məlumatında ölən ermənilərin sayı 600 min, 1968-ci ildəki məlumatında isə birdən-birə 1 milyon 500 min yazılıb.

Bəs gerçəkdən nə qədər erməni ölüb? Bunu qəti olaraq dəqiq rəqəmlə sübut etmək mümkün deyildir. İstənilən rəqəm haqqında mübahisə etmək olar. Əsas mənbə bu dövrdə Osmanlıda yaşayan ermənilərin sayı haqqında məlumatlardır. Lakin onlar da müxtəlifdir. Erməni patrikxanasının rəqəmlərini əsas götürən erməni əsilli Marçel Learta (La question Armenienne a la Luımire des documents. Paris, 1913) görə, 2 milyon 560 min, erməni tarixçisi Krikor Basmacıyana görə, 2 milyon 380 min, 1922-ci il noyabrın 20-dən fasilə ilə 1923-cü il iyulun 24-dək keçirilmiş Lozan konfransında iştirak edən ermənilərin məlumatına görə, 2 milyon 250 min, erməni tarixçisi Gevorq Aslana görə, 1 milyon 800 min, fransız Sarı kitabına görə, 1 milyon 555 min, fransız coğrafiyaçısı və tarixçisi Lüdovik de Constonsona görə, 1 milyon 400 min, "Paris Revyü"yə görə, 1 milyon 300 min, Osmanlı statistikasına görə, 1 milyon 295 min, ingilis illik statistikasına görə, 1 milyon 56 min erməni bu dövrdə Osmanlı dövləti ərazisində yaşayıb.

Belə olduqda bir sıra suallar yaranır: Osmanlıda 1 milyon 500 min erməni yaşamadığı halda bu qədər ermənini necə öldürmək olardı? Bu sayda adamı öldürməkdən ötrü nə qədər hərbçi lazımdır? Ermənilərin ölüləri də artıb törəyirlərmi? Dünya müharibəsi illərində bütövlükdə həyatlarını itirən 10 milyon nəfərin 1 milyon 500 min nəfəri doğrudanmı erməni olub? Bəs digər millətlərdən ölənlər haradadır? Osmanlı dövlətinin müharibədə itirdiyi 2 milyon nəfər əhalinin 1 milyon 500 min nəfərinin erməni olması həqiqətə nə qədər uyğundur? Bəs ölən türklər haradadır? Ermənilərin kütləvi məzarlıqları vardırmı? Vardırsa haradadır?

Əslində, müharibə şəraitdə Osmanlıda nə qədər erməni ölüb? Osmanlının sədrəzəmi - baş naziri Tələt Paşa Tərəqqi və İttihad Partiyasının son qurultayında müharibə zamanı ermənilərin 300 min nəfər itirdiklərini təxmin edirdi. İngilis hərbi komandanlığının Nuru Paşa və digər generallar haqqında açdığı təhqiqat işində ölən ermənilərin sayı 300 min nəfər göstərilir. Bu, hərbi əməliyyatlar aparılan dövrdə olmuşdur. Fransız din adamı Monseikneur Tauchet 1916-cı ildəki çıxışında 500 min erməninin öldüyünü bildirirdi. İngilis tarixçisi Arnold Toynbi bu rəqəmi 600 min göstərirdi. Ermənilər əvvəllər həmin sayı ingilislərdən götürmüşdülər.

Poqos Nubar Paşa Türkiyədən 700 min ermənininin başqa ölkələrə köç etdiyini, 280 mininin isə Türkiyədə yaşadığını bildirirdi. Deməli, təxminən 1 milyon 300 min nəfər ermənidən 700 mini başqa ölkələrə gedib, 300 min nəfəri ölüb, 280 mini isə yaşamağa davam edib. Poqos Nubar Paşa Şərqi Anadoluda müsəlman əhalisinin 1 milyon 400 min nəfər olduğunu deyirdi. Onda belə nəticəyə gəlmək olur ki, ermənilərin öldürdükləri müsəlmanlar ölən ermənilərdən xeyli çoxdur.

Ölən ermənilərin sayı haqqında dövrün erməni ictimai xadimlərinin məlumatları da uydurmaları alt-üst edir. Məsələn, erməni yazıçısı Arşak Çobanyan 1915-ci ildə "Mşak" qəzetinə Parisdən göndərdiyi “Həqiqət” adlı məqaləsində yazırdı ki, katolikos İstanbuldakı patriarxdan yazılı bir hesabat almışdır. Burada „Türkiyə Ermənistanı”nda öldürülən ermənilərin sayının 850 min nəfər olduğu yazılır. Lakin mövcud şəraitdə İstanbuldan erməni patriarxının hesabat göndərməsi az inandırıcıdır. A.Çobanyan yazırdı ki, görünür, bu hesabat Bolqarıstan ermənilərinin heç bir mənbəyə istinad edilmədən hazırladıqları məruzədir. Onların həmin məruzəni bütün dünya erməni mərkəzlərinə və kilsə xadimlərinə göndərdiklərini qeyd edən A. Çobanyan vurğulayırdı ki, bu rəqəmə ölənlər, əsir düşənlər, hərəm kimi götürülənlər, islamı qəbul edərək xilas olanlar, Mesopotamiyaya göndərilənlər daxildir. Hesabatın çox şişirdildiyini və fəlakətə daha çox yer verildiyini qeyd edən A.Çobanyan yazırdı:

“...hesabat həddindən artıq tündləşdirilmiş rənglərlə yazılmışdır; fəlakət çox böyük və dəhşətlidir, ona görə də onun şişirdilmiş formada təqdim edilməsi xeyli ziyanlıdır... Lakin biz bizim üçün o dəhşətli və öldürücü bir fikrə aludə olmamalıyıq ki, Türkiyədə bütün ermənilik məhv edilmişdir və bizim üçün hər şey birdəfəlik məhv olmuşdur. Bunlar həqiqət deyildir. Bizə uzaqdan verilən bütün məlumatlar şişirdilmişdir. Bütün belə böhranlarda şişirdilmə qaçılmazdır... Lakin doğru deyildir ki, Türkiyədə ermənilik məhv edilmişdir və buna görə də biz onu baş vermiş fakt kimi qəbul edib digər millətlər arasında yaymamalıyıq.”

A.Çobanyan Roma papasının və ABŞ Prezidenti Vudro Vilsonun bu məsələləyə qarışmasının bəhrəsiz olmayacağına ümid edir, V.Vilson və İstanbuldakı amerikan səfiri Henri Morgentaunun ermənilərin təqib olunmasına son qoymağa çalışdığını yazırdı. Ölən ermənilərin sayının şişirdildiyini A. Çobanyan belə ifadə edirdi:

“... görkəmli amerikan xadimlərindən ibarət olan “Erməni fəlakətləri”ni araşdıran amerikan komissiyası" yazılı və şifahi mənbələrə, yerlilərin və xaricilərin məlumatlarına əsasən hesabat hazırlayaraq göstərdi ki, 850.000 nəfər ermənının öldürülməsi səhvdir. Bu rəqəm əvəzinə biz yalnız 500.000 tapırıq. Bu rəqəm həqiqətə uyğun gəlir. Erməni yazıçısı Şiravnzadənin dediyi kimi, həqiqəti söyləməkdən qorxmaq lazım deyildir.”

O daha sonra yazırdı:

“Məsuliyyəti yalnız Milli Büronun üzərinə qoymaq və təsdiq etmək olmaz ki, məhz onun siyasəti bədbəxtliyin səbəbidir... Əgər belə bir fikirlə razılaşsaq, məhz Türkiyədən kənarda yaşayan ermənilərin müttəfiqlərə rəğbəti və özlərini fəda etməsi, xüsusən onların rus ordusundakı könüllü dəstələrdə iştirakı türkləri ermənilərə qarşı hiddətləndirdi və onların təqib edilməsinə gətirdi, məgər buna görə yalnız Milli Büronu təqsirləndirmək doğrudurmu? Məgər xaricdəki bütün ermənilik Qafqazdakı ermənilik kimi bu siyasətlə həmrəy deyildimi? Məgər katolikosun özü bizim könüllülərə xeyir-dua vermədimi? Məgər Erməni Milli Bürosunun Avropadakı missiyasının sədri Poqos Nubar Paşa xalqa çağırışla müraciət etmədimi? Hansı ki, bütün qəzetlər dərc etdilər və o, könüllü hərəkatı bəyənmədimi? Və yalnız rus ordusundakı könüllü ermənilər “muxtariyyət istəyirik” deyə bilərdilər, hansı ki, biz onu vermişik. Tələt bəy Amerika səfirinə demişdi: “Ermənilərə elə bir sıyıq hazırlayacağam ki, onlar ən azı 50 il “muxtariyyət” ifadəsini işlətmək imkanından məhrum olacaqlar... Xeyr. Bədbəxtlik üçün başlıca məsuliyyət bizim qəddar, bədbəxt taleyimizin üzərinə düşür. Hər şey bizim əleyhimizə yönəldi: bizim üçün xeyli əlverişli olan hadisələr gözlənilmədən əlverişsiz xarakter aldı.”

"Baku" qəzetində sonralar, 1915-ci il 4 sentyabr tarixli 197 №li sayında dərc edilmiş “Ermənistanın göz yaşları” adlı məqalədə yazılırdı ki, Türkiyədəki bütün ermənilər 1 milyon 200 min nəfərdir, onlardan da 200 mini Qafqaza gəlib.

Bu əslində Qafqazın erməniləşdirilməsində növbəti addımın ermənilərin özü tərəfindən etiraf edilməsi idi.

1915-ci ildə Amerikada Daşnaksütyunun Mərkəzi Komitəsi Türkiyə hökumətinin erməniləri guya təqib etməsi ilə əlaqədar olaraq Amerika ermənilərinə etdiyi müraciətdə yazırdı ki, bu hadisələr nəticəsində 300 min nəfərədək erməni öldürüldü, 300 min nəfərədək erməni Mesopotamiya yollarında öldü, 200 min nəfər Rusiyaya qaçdı, nəhayət, 400 min nəfər erməni islam dinini qəbul etdi. Beləliklə, “Türkiyə Ermənistanı” ermənisiz qaldı.

Bu məsələ 1919-cu ildə amerikan generalı Ceyms Harbordun rəhbərliyi altında missiyasının da diqqətində olub. Onun hesabatında yazılırdı ki, 1914-cü ildə Asiya Türkiyəsində ermənilərin sayı 1 milyon 500 min nəfər olub. Onlar Anadoluda dağınıq halda yaşayırdılar. Əgər hətta bütün dünyadan ermənilər altı vilayətə gəlsəydilər belə, yenə də türklər sayca çox idilər. Lakin bəziləri ermənilərin sayını daha da artırırlar. Missiyanın hesabatında 1919-cu ildə “Türkiyə Ermənistanı”nda təqribən 270 min ermənının olduğu, onların 75 mininin Suriya, Mesopotamiya və başqa regionlardan geri qayıdanlar, digərlərinin isə ölkədə qalanlar olduğu yazılırdı. Qeyd edilirdi ki, Yaxın Şərqin bütün hissələrinə yayıldıqları üçün Transqafqazda 300 min nəfər qaçqın, bunların içərisində türklər də var idi.



**75 yaşlı keşiş Ter-Qriqor Dərələyəzski dinc türkləri öldürən dəstənin başında**

ABŞ alimləri Castin Makkarti və Karolin Makkarti dövrün statistikasını təhlil edərək yazırlar ki, 1912-1922-ci illərdə həlak olan ermənilər 1 milyon 500 min və 2 milyon deyil, xeyli az olub, ölən ermənilərin sayını deyərkən həlak olan müsəlmanları da nəzərə almaq lazımdır. Müharibə şəraitində, hərbi əməliyyatların gedişində ermənilərin çəkdiyi acıların olduğunu deyən amerikan alimləri erməni silahlı dəstələrinin dinc türk və müsəlmanları da qırdıqlarını, statistikanın 600 min erməni ilə yanaşı 2 milyon 500 min Anadolu müsəlmanının öldüyünü, çoxlarının da türk olduqlarını yazırdılar.

Rus və sovet ədəbiyyatında da müharibədə ölən ermənilərin sayı ziddiyyətli göstərilir. Rusiya şərqşünası Vladimir Qurko-Kryajin 1926-cı ildə yazırdı ki, Birinci Dünya müharibəsi illərində 300 min nəfərə qədər erməni öldü, bu qədər də erməni Mesopotamiyada yollarda öldü, 200.000 nəfər erməni Rusiya qaçdı, 400.000 nəfərə qədər erməni isə islam dinini qəbul edərək xilas oldu.

1959-cu ildə Moskvada çap edilmiş sənədlər külliyyatında heç bir mənbə göstərilmədən yazılır ki, guya 1915-1916-cı illərdə türklər yüz minlərlə erməni öldürdülər və Ərəbistan çöllərinə qovdular.

Tarixçi-türkoloq Aron Noviçev də mənbə göstərmədən 1 milyon 500 min ermənının öldüyünü, 1 milyon 200 min ermənının Suriya, İraq, Rusiya, İran və başqa ölkələrə köçdüyünü iddia edir.

Heç şübhəsiz, rus və sovet tarixçilərinin yazdıqları məlum siyasətin təsiri altında olub və heç bir kiçik tənqidə tab gətirmir.

Osmanlı ensiklopediyasında 1915-1918-ci illərdə erməni silahlı dəstələrinin 600 min türkü və kürdü öldürdükləri göstərilir. Ensiklopediyanın 7-ci cildində yazılır ki, bütövlükdə Osmanlı imperatorluğunda 1 milyon 300 min -1 milyon 500 min erməni yaşayıb, ölən ermənilərin sayı 1 milyon 500 min deyildir. Müharibədə erməni itkisi 300 min nəfərə qədərdir və 703 min erməni Suriyaya köçürülüb.

***

Beləliklə, mötəbər tarixi mənbələr sübut edir:

– “erməni soyqırımı” deyilən bir məsələ olmayıb, tarixi və faktoloji əsası yoxdur, uydurma və başdan-başa cəfəngiyyatdır;

– xarici dövlətlərin əlində alət olan erməni terror-siyasi təşkilatları və kilsəsi Birinci Dünya müharibəsi illərində bir neçə cəbhədə hərbi əməliyyatlar aparan Osmanlı dövlətini arxadan vurub, mülki türk və digər müsəlman əhalini kütləvi şəkildə qırıblar;

– erməni din adamları kilsədən silah-sursat anbarı kimi istifadə ediblər. Bununla da xristianlığa ləkə vurublar;

– Osmanlı hər bir dövlətin ən vacib vəzifəsi olan vətəndaşlarının təhlükəsizliyini qorumaq üçün qanunu tədbirlər görüb. Dövlət əleyhinə çıxan şəxslərin yaşayış yerləri ölkə daxilində jandarma və hakimlərin nəzarəti altında dəyişdirilib;

– ermənilər məqsədlərinə nail olmaqdan ötrü gah Qərb ölkələrinin, gah da Rusiyanın tərəfinə keçiblər. Rusiyada Qərb dövlətlərinin, Qərb ölkələrində Rusiyanın əleyhinə təbliğat aparıblar;

– Antanta dövlətlərindən heç biri digərinin tək nəzarəti altında “erməni muxtariyyəti”nin qurulmasını istəməyib, ona maraqlarına zidd olan kimi baxıblar. Rusiya Antanta ölkələrinin himayəsində “erməni muxtariyyəti”nin qurulması istəklərinə təhlükəsizliyinə təhdid, onların Cənubi Qafqaza yaxınlaşması, regiondakı ermənilərin Osmanlıdakı ermənilərə meyil edəcəyi, azərbaycanlıların və gürcülərin də muxtariyyət istəyəcəkləri təhlükəsi kimi baxıb. Antanta ölkələri Rusiyanın himayəsi altında “erməni muxtariyyəti”nin qurulmasına Rusiya imperiyasının Qara dəniz boğazlarına yaxınlaşmaq və isti dənizlərə çıxmaq imkanlarının artacağı kimi baxaraq əleyhinə olub, beləliklə, istifadə edərək atıblar;

– düşdükləri vəziyyətə görə özlərinin günahlarından diqqəti yayındırmaq üçün erməni təşkilatları və kilsəsi Avropa ölkələrində və ABŞ-da Osmanlı əleyhinə təbliğat aparıblar;

– Qafqazın erməniləşdirilməsində Birinci Dünya müharibəsi özünə məxsus yer tutub;

– Türkiyə Cümhuriyyəti Avropa İqtisadi Birliyinə üzv olmaq üçün müraciət etdikdən sonra Mərkəzin işarəsi ilə İrəvanda uydurma “soyqırımı” abidəsi tikilib və siyasi məqsədlər naminə çirkin təbliğat kampaniyası genişlənib;

– dövlət müstəqilliyi bərpa edildikdən sonra terror, başqa xalqlara nifrət, neonasizm , uydurma “soyqırımı” Ermənistanda dövlət siyasətinə çevrilib.

# “Erməni soyqırımı”: nağılın sonu



I MƏQALƏ

## XX əsrin geosiyasi ziddiyyətləri

Keçən əsr bəşər tarixində bir çox sahələrdə yeniliklərlə yanaşı, ziddiyyətlərlə zəngin olmuşdur. Əsrin əvvəllərində Avropa və Asiyada demək olar ki, bütün güclü dövlətlər ölüm-dirim çarpışmasında idilər. Burada xüsusilə anqlo-saks, fransız, rus, osmanlı, Çin, yapon imperiyaları arasında toqquşmalar seçilirdi. Məsələn, XX əsrin ilk beş ilində Avropada, Yaxın Şərqdə, Qafqazda olduğu kimi, Uzaq Şərqdə də qızğın hərbi toqquşmalar özünü göstərirdi. 1905-1907-ci illər Rusiya–Yaponiya müharibəsini xatırlayaq.

Bu prosesin fonunda bizim üçün indi də düşündürücü olan iki tendensiyanı ayıra bilərik. Birincisi, dünyanın kəskin qarışdığı XX əsrin əvvəllərindən Amerika başda olmaqla Qərb imperialist dairələri elə beynəlxalq hüquqi tənzimləmə və cəzalandırma sistemi üzərində düşünməyə başladılar ki, hər bir böyük gücü ram etmək mümkün olsun. Bu zaman qərblilərin və rusların ikinci dərəcəli, “tarixi baxımdan lazımsız”, siyasi-ideoloji baxımdan isə təhlükəli hesab etdikləri böyük gücləri sıradan çıxarmaq ilk vəzifələrdən idi. Bu baxımdan 1918-ci il yanvarın 8-də ABŞ-ın o dönəmki Prezidenti V.Vilsonun tarixə “Vilsonun 14 müddəası” kimi düşmüş Konqresə müraciətini ayrıca vurğulamalıyıq.

## “Sülhpərvər və bəşəri” Vilson

Əslində, həmin 14 müddəa (prinsip) bir sıra aspektlərdə başlanğıc deyil, nəticə idi. Çünki XX əsrin ikinci onilliyinə dünya qanlı toqquşmalar, hərbi təcavüzlər, terror, şantaj, rəqibi Yer üzündən silmək və sair kimi vəhşi proseslərin vüsət alması ilə qədəm qoyurdu. Həmin reallıq prizmasında 14 müddəaya baxanda 12-cinin məzmunu diqqəti çəkir. Orada yazılmışdır ki, Osmanlının qeyri-millət hissəsinə muxtar inkişaf imkanı yaradılsın və Dardanel boğazı bütün gəmilərə açılsın. Avstriya-Macarıstan imperiyasında yaşayan bütün xalqlara da muxtar inkişaf imkanından başqa heç bir böyük dövlətə belə münasibət sənəddə əksini tapmamışdır. Almaniyadan isə işğal etdiyi bütün ərazilərdən çıxması tələb olunurdu.

Müqayisələr göstərir ki, V.Vilson Osmanlının türk imperiyası kimi aradan qaldırılmasına aparan yol seçməyi təklif etmişdir. Məhz bu kimi imperialist iddiaların əsasən türklərə qarşı yönəldilməsi və bunun çərçivəsində adi türk-müsəlmanlara qarşı xüsusi amansızlıqla terror törədilməsi təsadüfi görünmür. Onların işığında “erməni soyqırımı” şantajı da böyük imperialist güclərin tarixin bir dönəmində ermənilərə və türklərə qarşı nağıl, şantaj, qarşılıqlı nifrət və düşmənçilik “ideoloji, diplomatik, silahlı şantajından başqa bir şey deyildir. Nə yazıq ki, ermənilər bu nağıla o dərəcədə inanmışlar ki, indi bir sıra erməni ziyalılarının çağırışlarını belə eşitmək istəməyən “soyqırımı və türk düşməni xəstəsi” vardır.

Ancaq bunlarla yanaşı, geniş bir coğrafiyada günahsız insanların axan qanının, minbir erməni işgəncəsinə məruz qalmış məsum türk-müsəlman insanlarının (qoca, qadın, kişi, gənc daxil) məhv edilməsinin günahını heç nə yuya bilməz. O hadisələr yaddaşdan silinməz. Bu gerçəkliyin fonunda “erməni soyqırımı” deyərək bağıran siyasətçilərin, ölkə başçılarının, terrorçuların tarixi cinayətlərini aydın görmək olur. Onlar türklərlə yanaşı, erməni xalqının sadə kəsiminə qarşı da cinayətlər törətmişlər! Əlahəzrət faktların işığında “erməni nağılı”nın ideoloji, siyasi və geosiyasi anatomiyasına nəzər salmaqla vurğulanan tezislərin doğruluğuna əmin ola bilərik.

## İmperiyaların savaşı və insan faktoru

Bu barədə çox yazılmışdır. Azərbaycanda da həm tarixi baxımdan, həm də, konkret olaraq, Qərbi Azərbaycan məsələsi kontekstində çox dəyərli araşdırmaları ölkəmizin alimləri etmişlər. Biz onlara toxunmayacağıq və müəyyən geosiyasi və siyasi xətt üzrə “erməni soyqırımı” nağılının məhdud miqyasda süjetinə müraciət edəcəyik.

Erməni məsələsi Anadoluda və Cənubi Qafqazda iki istiqamətdən olan imperialist təcavüzlər prosesi ortaya atdı. Onlardan biri Qərb imperiyalarının Osmanlını dağıtmaq niyyətindən qaynaqlanan hərəkat, digəri isə XIX əsrin əvvəllərindən Səfəvilərə qarşı hərbi yürüşlər keçirib yeni ərazilər işğal etmək iddiasında olan Rusiya ilə bağlıdır. Qısaca onu deyək ki, Qərb imperialistləri siyasi, diplomatik və ideoloji aspektlərdə türk-müsəlman imperiyalarına qarşı savaşırdısa, Rusiya ərazi işğalı üsuluna üstünlük verirdi. Lakin hər iki imperialist dairələri birləşdirən ortaq siyasi-ideoloji məqam vardı – türkləri cəmiyyət kimi özünütənzimləyə bilmək halından çıxarmaq, onları mənəvi, mədəni, ideoloji və əxlaqi olaraq zəiflətmək, toplumlarını parçalamaq və sonra özlərinin istədikləri kimi yenidən qurmaq (müasir oxşar üsullardan biri: ABŞ-ın Qəzzadan yerli sakinləri çıxarıb, “yenidən qurmaq” planı).

Həmin imperialist dairələrə bu uzaq məqsədli niyyəti reallaşdırmaqda şantajçı, arada vasitəçi və istifadə aləti kimi bir xalq lazım idi. Onlar erməniləri seçdilər. Niyə məhz onları seçdilər, ayrı mövzudur. Ancaq artıq br neçə yüzildir ki, ermənilər həmin kənar qüvvələrin maşası rolunda çıxış edirlər. Əlbəttə, bu xidmət üçün ermənilərə nəsə “hədiyyə” edilməli, vədlər verilməli və onlar istiqamətlənməli idilər. Bu “hədiyyə” erməni dövlətinin yaradılması ideyası oldu! Faktlar göstərir ki, XIX əsrin əvvəllərindən rusların qacarlarla savaşları və ayrıca, Avropa və ABŞ-ın Osmanlı və Səfəvi ərazilərindəki fəaliyyətləri addım-addım bir tərəfdən erməni azğınlığının yüksəlməsinə, digər tərəfdən isə daha çox sayda məsum türk-müsəlman əhalinin zərər görməsinə aparıb çıxarırdı. Bu proseslərin fonunda artıq XIX əsrin sonlarında bir sıra mütəşəkkil terrorçu erməni təşkilatları yaradılmışdı.

Onda hələ “erməni soyqırımı”ndan danışan yox idi. Çünki əsas olaraq erməni terrorçuları Anadoluda, İrəvanda, Zəngəzurda, Borçalıda, Cənubi Azərbaycan ərazilərində və digər yerlərdə kütləvi qırğınlar törədirdilər. Bu, ümumilikdə Qərb və Rusiya imperiyalarının apardıqları antitürk siyasətləri fonunda ağalarının əmrlərini yerinə yetirən ermənilərin vəhşiliklərinin göstəricisi kimi qəbul edilməlidir. Bizim üçün çox ağrılı olan həmin dövrlə bağlı yalnız bircə faktı vurğulayaq. Türkmənçay işğal müqaviləsi 1828-ci il fevralın 10-da imzalanmışdır. Bundan heç bir ay keçməmiş, Novruz bayramı günündə (21 mart) çar I Nikolayın imzaladığı fərmana baxın: İrəvan və Naxçıvan xanlıqlarının ərazisində “erməni vilayəti” yaradılsın. Bu, süni bir inzibati bölgü idi. Çünki rusların “erməni vilayəti” dedikləri ərazidə cəmi 1111 kənd vardı. Həmin kəndlərin cəmi 62-də ermənilər yaşayırdılar və onlardan da yalnız 14-nün adı ermənicə idi (bu faktlar Qərbi Azərbaycan icmasının hazırladığı müxtəlif materiallarda və başqa mənbələrdə, hətta erməni mənbələrində vardır). Bunu, obrazlı desək, “erməni soyqırımı” nağılının siyasi, diplomatik və geosiyasi “prelüdiyası” adlandıra bilərik!

Çünki, birincisi, Rusiya imperiyası sonralar bu siyasəti genişləndirərək işğal etdiyi bütün Azərbaycan ərazisinə tətbiq etmişdir (bir müddət Osmanlının da işğal etdiyi ərazilərinə yaymışdı), ikincisi, təbliğatda, ideologiyada “türklər gəlmədir, ermənilər aborigendir” xülyasına vüsət vermişdir. Bu iki xətt uzun müddətdir ki, erməni terrorunun, şantajının və “soyqırımı nağılı”nın ideoloji sütununu təşkil edir. Onun başqa bir sütunu Qərb imperialist dairələrinin həm radikal, ultraetnik, şovinist milliyyətçi ideoloji konseptlərini daim aktuallaşdırması ilə bağlıdır. Bu istiqamətdən birbaşa “erməni soyqırımı”nın qondarma süjeti hazırlandı və paralel olaraq, Qərb parlamentlərinin ona hüquqi don biçməsinə başlanıldı.

## “Soyqırımı”na qədərki mərhələdə erməni terroru

Bunu bilmək vacibdir. Çünki həmin məqamı anlamadan “erməni soyıqrımı” nağılının əsas mahiyyəti və yaradılma səbəbini tam dərk etmək mümkün deyildir. Nəyi nəzərdə tuturuq?

XIX əsrdə mütəşəkkil hala gətirilən erməni terror fəaliyyətinin xüsusi ideoloji hədəfi müəyyən edilmişdi. Onu Qərbdəki ağaları müəyyənləşdirmişdilər. Qısaca hər bir erməni terror təşkilatı üçün aksiom sayılan tələb belə idi: türkü öldürmək haqqındır, harada gördün məhv et, yerindən-yurdundan sürgün et! Boşaltdığın ərazilər sənin “Böyük Ermənistan” keçmişinin indisidir”! Bu tezisi müxtəlif formalarda “Armenakan”, “Hnçak”, “Daşnaksütyun”, “ASOA”, “Asala”, “Erməni soyqırımının ədalət komandosları” və başqalarında açıq görmək olar. Sizcə, bu fikirlərdən daha çox nəyin nəfəsi duyulur: dövlət qurmaq istəyən “məsum bir xalqınmı”, yoxsa başqa etnosa və dini kimliyə malik bir qövmə qarşı kin, nifrət, vəhşət, məhvetmə istəyimi? Məncə, ikincidir! Bu cür köklənmiş vəhşilər hansı haqla özlərinin soyqırımından danışa bilər. Bu o zaman ola bilər ki, kimlərisə məhv etməyini özünün təbii haqqı saysın və buna qarşı kim durursa, o, “sıyqırımı edir” – deyə çərənləsin. “Erməni soyqırımı” nağılının başlanğıcı da sonu da bu primitiv ideoloji və psixoloji tezisdədir! Məhz XX əsrdə II Qarabağ müharibəsində Azərbaycan Orudusu bu gerçəkliyi dumanlı erməni başlarına anlatdı!

Lakin XXI əsrə qədər və hətta 1915-ci ilə qədər erməni terrorunun fəaliyyət sahələri öncədən belə ola biləcəyinə işarələr verirdi. Xüsusi nifrət ideologiyası və psixologiyası ilə doldurulmuş erməni terror təşkilatları Osmanlı İmperiyasında aldığı zərbələr nəticəsində və havadarlarının təhriki ilə Cənubi Qafqaza nüfuz etməyə başladılar. Onlar faktiki olaarq üç istiqamətdə davamlı olaraq terrora başladılar – Osmanlı, Cənubi Azərbaycan və Cənubi Qafqaz! Bunların hər birində erməni fəaliyyətinin ortaq əlaməti dinc insanları kütləvi qətlə yetirmək, sataşmaq, təhqir etmək, yerli insanları öz yurdlarından didərgin salmaq, imkan daxilində onları məhv etməkdən ibarət idi! Bunun fonunda iki istiqamətdə dərhal fəaliyyət göstərirdilər. Birincisi, yerli əhalidən boşalan yerlərə Osmanlı və Qacar imperiyalarından erməniləri köçürür və toponimləri erməniləşdirirdilər. Demoqrafik balans dəyişdiyi halda “erməni muxtariyyatı” və “erməni dövləti” hoqqasını ortaya atırdrılar. Buna dəstək həm Qərbdən, həm də Rusiyadan olurdu. Ancaq ən böyük dəstək həmin dönəmdə Rusiyadan idi. Bunlar avtomatik olaraq türklərin yaşadıqları ərazilərdə süni demoqrafik vəziyyət yaradırdı. Azərbaycan tarixçi alimi Nazim Mustafa rus müəllifi N.Şavrova istinad edərək yazır ki, 1896-cı ildə Cənubi Qafqazda 900 min erməni yaşayırdısa, 1908-ci ildə onların sayı 1 milyon 301 min idi. Yəni 400 min erməni qısa müddətdə Cənubi Qafqaza köçürülmüşdü. Onlar harada yerləşdirildi? Türk-müsəlmanlardan terror, sürgün və işgəncə ilə boşaldılan yerlərdə! 1905-1906-cı illər qırğınları ərəfəsində İrəvan quberniyasında 1301 yaşayış məntəqəsi mövcud idi və onların 959-da (!) azərbaycanlılar yaşayırdılar. Yuxarıda qeyd etiyimiz kimi artıq 1918-ci ilə orada cəmi 10 min azərbaycanlı qalmışdı! Bu prosesin adını nə qoyaq?

Gerçəklik odur ki, imperialistlər “müstəqil erməni dövləti”ni belə yaradırdılar! Türkün tökülən günahsız qanından bu “dövlətin ideologiyasını dizayn edirdilər! İndi bu, onların öz başlarında çatlayır!

Və bütün bunlar 1915-ci ilə qədər, ümumiyyətlə, türklərə qarşı ermənilərin havadarlarının göstərişi və əmri ilə etdiklərinin yalnız az bir qismidir. Lakin ümumi mənzərəni real ifadə edə bilir. 1915-ci ilə aid etməyə çalışılan “erməni soyqırımı”na bu faktların işığında baxmaq mütləq zərurətdir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Erməniliyin cəfəngiyyatı və ərazi iddiaları

**(əvvəli 1-ci səhifədə)**

Əvvəla, belə bir sual verək: Nəyə görə məhz ermənilər “soyqırımına” “məruz qaldılar”? Bildirilir ki, guya, haylara qarşı amansız tədbirlər Osmanlının xristianları təqib siyasətindən qaynaqlanırdı. Halbuki, belə siyasət olmamışdı. Üstəlik, əsrlərlə ayrı-ayrı qeyri-müsəlman xalqlar türklərin tam təhlükəsiz idarəçiliyi şəraitində yaşamışdılar. Deməli, hayları pis mənada fərqləndirən xüsusiyyətlər var və buna diqqət yetirilməlidir.

***

Qərb dünyası XIX əsrin ikinci yarısından etibarən Osmanlıya qarşı mübarizəsində “erməni məsələsi”nə önəm verdi. Həmin vaxt Çar Rusiyası ilə Qərbin maraqları üst-üstə düşürdü. Hər iki cinah türklərə qarşı birləşmişdi. Yəni ki, 1826-1828-ci illərin Rus-İran müharibəsindən sonra rusların erməniləri Cənubi Qafqaza köçürmələri, regionda hayların hesabına xristian bufer zonası yaratmaq, Türk dünyasını parçalamaq istəkləri Qərbin maraqları ilə uzlaşırdı. Eləcə də Qərbin erməni millətçilərinin təşkilatlanmalarına dəstəyi Rusiyanın mənafeyinə uyğun idi. O dəstək ki, onun nəticəsində “Daşnaksütyun” və “Hnçak” kimi partiyalar formalaşdı. O partiyalar ki, Osmanlı daxilində çaxnaşmalar, qətllər, sistemli təxribat və digər terror əməlləri törədirdilər.



Lakin XIX əsrin sonları – XX əsrin əvvəllərinə doğru Qərb “Şərq məsələsi”nə baxış bucağını dəyişərək, “Yunan məsələsi” üzərinə siyasi sərmayə yatırmağa başladı. Nəticədə hay terrorçu qruplaşmaları taleyin ümidinə buraxıldılar. Osmanlı rəhbərliyi həmin qruplaşmaları cəzalandırmalı idi və cəzalandırdı. O vaxt Rusiya daxilində də təlatümlər yaşandığından, erməni millətçilərinin həmlələri bir nəticə vermədi.

Qərbin “erməni məsələsi”nə qayıdışı Birinci dünya müharibəsi dönəminə təsadüf etdi. Hay avantüristlər Osmanlının ayrı-ayrı bölgələrində təxribatlar həyata keçirdilər və müharibəyə cəlb olunmuş ölkəyə arxadan zərbələr endirməyə başladılar. Belə bir durumda Osmanlı rəhbərliyi çıxış yolunu erməni əhalinin kompakt məskunlaşmasının qarşısını almaqda gördü və həmin əhalinin ölkənin müxtəlif yerlərinə köçürülməsinə start verdi.

Başı dünya müharibəsinə qarışmış ölkənin belə bir vəziyyətdə ayrı yolu yox idi. Təhlükə ocaqları tez bir zamanda sıradan çıxarılmalı idi. Hər bir halda, söhbət soyqırımından gedə bilməzdi. Erməni əhalinin itkisinə gəlincə, kütləvi köçürülmələr nəticəsində belə olayların yaşanması mümkündür. Bunu, ilk növbədə, hakimiyyətə qarşı baş qaldıran, hər cür naqislikləri edən haylar düşünməli idilər. Onlar avantürizmi öz toplumlarının aqibətindən üstün tutublarsa, bunun günahkarı Osmanlı dövləti deyil.

***

Keçmiş SSRİ rəhbərliyi Osmanlı dövründə ermənilərin ölkənin bir yerindən digər bölgəsinə köçürülmələrinin doğurduğu və miqyası böyük olmayan tələfatı sırf soyqırımı prizmasında qələmə verdi. Bu yanaşma Qərbə sərf etsə də, məsələni aktiv hala gətirmək ona sərfəli deyildi. Çünki Türkiyə yüklənməməli, sovet təhlükəsinə qarşı duruş gətirməli idi.

Kreml “soyqırımı”, habelə erməni avantürizmini özünün anti-türk təbliğatı baxımından cəlbedici görürdü. Çünki Sovetlər Birliyi öz sərhədlərinə yaxın NATO Türkiyəsini müsbət xarakterizə edə bilməzdi. Yeri gəlmişkən, mövcud məqamı bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan da vurğulamışdı.

Əlqərəz, Qərbin passiv, SSRİ-nin aktiv gündəmini təşkil edən “erməni soyqırımı” cəfəngiyyatı ikincinin süqutundan sonra, müəyyən mənada, paritetlik qazandı. Yəni, həm Rusiya, həm də Qərb məsələni diqqətdə saxladı. Amma tədricən Türkiyənin beynəlxalq mövqeləri gücləndi. Həmçinin, 2018-ci ildə Ermənistanda N.Paşinyan başda olmaqla qərbpərəstlər hakimiyyətə yiyələndilər.

Ankaranın Qərb üçün öneminin güclənməsi şəraitində Paşinyan iqtidarı da “erməni soyqırımı”nı gündəmdən çıxardı. Ancaq demək olmaz ki, rəsmi İrəvan cəfəngiyyatdan tamamilə kənardır. Məsələn, ötən il Ermənistanda soyqırımı ilə bağlı böyük beynəlxalq toplantı keçirilmiş, həmin tədbirdə Azərbaycanla yanaşı, Türkiyənin ünvanına açıq və subliminal ittihamlar yağdırılmışdı. Üstəlik, erməni lobbi və diaspor təşkilatları da mövcud istiqamətdə aktivdirlər.

***

Beləliklə, Paşinyan hakimiyyətinin “erməni soyqırmı”nın beynəlxalq miqyasda tanınmasının Ermənistanın xarici siyasət prioritetində olmadığını bəyan etdiyi hazırkı şəraitdə qondarma iddianı yaşadan ölkədəki revanşist və şovinist kəsimdir. O kəsim ki, Ermənistan parlamentində təmsil olunur. O kəsim ki, ali qanunverici orqan qarşısında yeni təşəbbüs qaldırıb. Söhbət “erməni soyqırımı”nın inkarının kriminallaşdırılmasından gedir. Əslində, indiyədək Ermənistanda belə bir qanunun olmaması təəccüb doğurur. Hər halda, Paşinyana qədərki erməni iqtidarı bunu reallaşdıra bilərdi...

Onu da bildirək ki, Avropanın bir sıra ölkələrində saxta soyqırımını danmaq cinayət məsuliyyəti yaradır. Daşnaklar eyni durumun Ermənistanda da qərarlaşmasını arzulayırlar. Bunu erməni Milli Assambleyasının “Ermənistan” fraksiyasının deputatı İşxan Saqatelyan özünün facebok səhifəsində yazıb. Bu daşnak qırığı “erməni soyqırımı”nın inkarının və ona bəraətin kriminallaşdırılmasına dair qanun layihəsinin parlamentin müzakirəsinə təqdim ediləcəyini bildirib. İ.Saqatelyan deyib ki, irəli sürülmüş təşəbbüs Türkiyə tərəfindən Ermənistana diktə olunan “erməni soyqırımı”ndan imtina siyasətinə cavab mahiyyəti daşıyır. Onun sözlərindən gəlinən qənaət budur: Revanşist-şovinistlər Paşinyan iqtidarını saxta iddia ilə bağlı şantaj etmək, erməni cəmiyyətinin xəstə baxışları fonunda xalqı hakiyyətə qarşı qaldırmaq niyyəti güdürlər.

Aydındır ki, hazırkı durumda Ermənistan parlamentinin hakim komanda çoxluğu Saqatelyanın haqqında söz açdığı avantürist “qanun layihəsi”nin qəbuluna imkan verməyəcək. İkinci də durumun fərqindədir. Amma onun üçün nəticə önəmli deyil. Başlıca məqam budur: “Qanun layihəsinin lehinə səs verilməsi soyqırımının inkarının qarşısını alacaq. Layihənin müzakirəsinə imkan verməmək isə onun danılmasının rəsmi şəkildə qeydə alınması olacaq”.

Qeyd edək ki, daşnakların bu cür məkrli oyun qurmaları təsadüfi deyil. Rəsmi İrəvan “erməni soyqırımı”nın beynəlxalq miqyasda tanınmasının Ermənistanın xarici siyasət prioritetindən çıxarıldığını vurğulayırsa, Paşinyanın bir müddət əvvəlki fikirləri “soyqırımı” iddiasının mahiyyətcə oyun olduğunu təsdiqləyirsə, üstəlik, Nikol həmin iddia ilə əlaqədar məsələyə həssas yanaşılmasının, əsl həqiqətlərin üzə çıxarılmasının vacibliyini bildirirsə, bütün bunların revanşist və şovinistlərdə nəinki etiraz, eyni zamanda, dərin qəzəb və hiddət doğurduğu birmənalıdır. Xəstə kəsimin qənaətincə, “soyqırımı” mövzusunda hansısa tərəddüdə və şübhəyə yer verilməməlidir.

***

Bir vacib məqama da nəzər salaq. İ.Saqatelyan vurğulayıb ki, sözügedən layihə Ermənistanın İstiqlaliyyət bəyannaməsinə, həmçinin bir sıra Avropa ölkələrinin soyqırımıların danılmasının, o cümlədən “erməni soyqırımı”nın inkarının kriminallaşdırılmasına dair hüquqi və nəzəri praktikasına əsaslanır. Nəzərə alaq ki, İstiqlaliyyət bəyannaməsində “Ermənistan Respublikası Osmanlı Türkiyəsində və Qərbi Ermənistanda 1915-ci ildə törədilmiş erməni soyqırımının beynəlxalq miqyasda tanınmasını dəstəkləyir” müddəası yer alır. Bu, “erməni soyqırımı” məsələsinə ərazi iddiası kontekstindən yanaşıldığının sübutudur. Sənəddə həmin iddianın Azərbaycan torpaqları ilə bağlı böyük təzahürü var. Yəni, bəyannamə Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının “Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında” birgə qərarını əsas tutur, faktiki olaraq, işğalçılığa legitim don geyindirir. Mühüm məqam isə İstiqlaliyyət bəyannaməsinin Ermənistan konstitusiyasının vacib istinad nöqtəsi olmasıdır. Elə isə əvvəldə anons etdiyimiz məsələyə keçid alaq.

***

Sonda qeyd edək ki, bütün bunlar Azərbaycanın Ermənistan konstitusiyasına dəyişiklik şərtinin nə dərəcədə haqlı olduğunu bir daha təsdiqləyir. Bəli, erməni əsas qanunu İstiqlaliyyət bəyannaməsinə istinad yükündən, eyni zamanda, ona görə qurtulmalıdır ki, ikinci sənədin ərazi iddiasını əsas götürməsində saxta “erməni soyqırımı”na söykənmə amili də var. Böyük ölçüdə yanaşsaq, bu, Azərbaycana və Türkiyəyə ərazi iddiasıdır.

Deməli, Ermənistan parlamentindəki daşnaklar özlərinin sərsəm qanun layihələrində hansı məqama söykəndiklərini gözəl bilirlər. İ.Saqatelyan ucuz populizmini işə salaraq məsələyə erməni xalqının yaddaşı, ləyaqəti və haqqı kontekstində münasibət bildirir və təqdimatına “erməni xalqının düşmənlərinə” qarşı mübarizəsi motivini əlavə edir. Ən başlıcası isə o bildirir ki, irəli sürdükləri “qanun layihəsi” seçim deməkdir və “erməni soyqırımı”nın 110 illiyi ərəfəsində bütün siyasi qüvvələr, ziyalılar, vətəndaş cəmiyyətinin təmsilçiləri öz mövqelərinə aydınlıq gətirməli, onu yenidən təsdiqləməli və birlikdə soyqırımının inkarı siyasəti ilə mübarizə aparmalıdırlar. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Erməni soyqırımı”: faktlar nə deyir?

**2020-ci ilin 44 günlük savaşı və Azərbaycanın Ermənistan üzərində tarixi Qələbəsi ermənilərin indiyədək apardıqları ideoloji təbliğata da öz təsirini göstərdi. Artıq onlar özlərinin məğlubedilməz ordularından, qələbələrindən, hətta 90-cı illərdə qəhrəman hesab etdikləri adamlardan danışa bilmirlər. Ermənistanın “qəhrəman” saydıqları şəxslərin cinayətkar olduğu ortaya çıxır. Həm də bunu onların özləri ifşa edirlər.**




Əsas fikir ayrılığı Ermənistan hakimiyyəti ilə erməni diasporunun yaşı əsri adlamış “erməni soyqırımı” ideologiyasına münasibətdə ortaya çıxır. İndiyədək Ermənistanda yaradılmış diaspor nazirliyi və diaspor qurumları ilə xarici ölkələrdəki erməni qurumları eyni mövqedən hərəkət edirdilərsə, indi bundan əsər-əlamət qalmayıb. Diaspor erməniləri Ermənistanda gedən proseslərin tərkib hissəsi olmaqdan çıxıb və hakimiyyətin bəzi addımlarını dəstəkləmir. Ermənistan baş naziri Nikol Paşinyanın xarici ölkələrə səfərləri zamanı keçirdiyi görüşlər də sübut edir ki, dövlət başçısının “erməni soyqırımı” ilə bağlı baxışları diaspordakılarla eyni deyil.

Xüsusən İsveçrədə diaspora təmsilçiləri ilə keçirilən görüşdə Paşinyan “erməni soyqırımı” ideologiyası ilə bağlı yeni yanaşma ortaya qoydu. Bu görüşdə o “erməni soyqırımı” ideologiyasının zərərli cəhətlərindən danışdı və dedi ki, 30-40-cı illərdə bu məsələdən nədən danışılmaması üzərində düşünməliyik. Onun sözündən belə çıxıb ki, müasir dövrdə Ermənistanın bir dövlət olaraq Türkiyə ilə münasibət qurmasına, dünya birliyinin bir parçasına çevrilməsinə bu ideologiya mane olur. Daha əvvəlki aylarda 1915-ci il qurbanları rəqəmləri ilə bağlı müzakirələr də bu işin siyasi məqsədlərdən qaynaqlandığına işarə vurulmuşdur. Ermənistan parlamentinin sədr müavini Andranik Koçaryan demişdi ki, bizim əlimizdə 1915-ci ildə öldürülən erməni əhalisinin siyahısı yoxdur. Bu fikri bir başqa şəkildə spiker Alen Simonyan da söyləmişdi.

Bəli, bu gün Ermənistanın özündə belə artıq “erməni soyqırımı”nı şübhə altına alan fikirlər səsləndirilir. Daha çox verilən suallardan biri budur ki, “erməni soyqırımı” deyilən məsələ nədən baş vermişdir, bunda ermənilərin heç günahı yoxdurmu? Şübhəsiz ki, hay alimləri dilə gətirməsələr də, erməni əhalinin öz yerindən edilməsində o dövrün erməni təşkilatlarının rolu olub. Xüsusən, “Daşnaksütyun”un birbaşa rolu var. Ona qan tökülməsi lazım idi ki, buna da nail oldu.

* * *

Saxta “erməni soyqırmı”nı anma günü kimi 24 aprel seçilmiş və hər il həmin gün hay-küy qoparılmaqdadır. Onu da deyək ki, son illər həmin günün anılması sönük keçməkdədir. Rəqibləri Paşinyanı onda günahlandırırlar ki, əvvəlki illərdə İrəvanın mərkəzindən Sərdarabada, “soyqırımı” abidəsinə yürüşlər sönük keçir. Bu il dövlətin özü belə tədbirlərin aparılmasına həvəsli görünmür. Bəlkə də Ermənistanın özündə belə 1915-ci ilin 24 aprelində nə baş verdiyini çox adam bilmir. Əslində, həmin gün heç bir ölüm faktı olmayıb. Sadəcə olaraq, İstanbulda üsyanın başçıları olan 235 komitəçi-erməni və fəalları həbs ediliblər.

O zaman erməni təşkilatları arasında iki fikir vardı. Birinci fikir o idi ki, əgər Türkiyə–Rusiya müharibəsi baş verərsə, ruslar Osmanlıları məğlub edəcəklər. Bu səbəbdən Qafqazda könüllü birliklər formalaşdırmaqla rusların Anadoluya daxil olması ilə bağlı mühüm yerlər nəzarət altına alınmalıdır. İkinci baxış isə rusların Anadoluda sürətlə irəliləyə bilməyəcəkləri ehtimalına əsaslanırdı. Bu səbəbdən erməni qüvvələri gizli şəkildə Qafqaz sərhədinə yerləşdirilməli və əlverişli şərait yarananda hərəkətə keçməli idilər. Bu fikri dəstəkləyənlər rus ordusuna könüllü dəstəyin verilməsini istəyirdilər. Bu fikirlərin hər ikisinin ortaq məqsədi müharibə zamanı Osmanlıya qarşı Rusiyaya ciddi dəstək vermək və müharibədən sonra bağlanacaq müqavilələrdə ermənilərin Osmanlı torpaqlarında muxtariyyət və ya müstəqillik əldə etmələrini təmin etmək idi.

Osmanlı İmperiyası müharibənin əvvəlindən erməniləri sakitləşdirmək üçün bir sıra xəbərdarlıqlar etdi. Daxili işlər naziri Tələt paşa Ərzurumdan millət vəkili Vartkes Əfəndi ilə, Ənvər paşa isə erməni patriarxı ilə görüşmüş və bu cür fəaliyyətlərə qarşı sərt tədbirlər görüləcəyini bildirmişdi. Bu xəbərdarlıqlara baxmayaraq, 3-cü Ordu komandanlığının teleqraflarında silahlı erməni təşkilatlarının rusların Qafqazda irəliləməsinə kömək etdiyi bildirilirdi. 24 apreldə verilən qərar Osmanlı İmperatorluğunun 1915-ci il mayın 27-də qəbul etdiyi Köçürmə Qanunundan ayrı qərar idi. “Tehcir” Qanunu və ya rəsmi adı “Sevk və İskan” Qanunu Birinci dünya müharibəsi zamanı Osmanlı ordusu ilə qarşı-qarşıya gələ biləcək daxili ünsürlərin dövlət tərəfindən dəstəklənən və döyüş bölgələrindən uzaq yerlərə geri qaytarılması şərti ilə Osmanlı hökuməti tərəfindən qəbul edilmiş köç və yerləşdirmə qanunudur.

Birinci dünya müharibəsindən əvvəl Türkiyə sərhədləri içərisində yaşayan ermənilərin üsyan və təxribatlarının ölkənin Diyarbəkir, Trabzon, Sivas, Urfa, Yozqat, İzmit, Adapazarı şəhərlərinə yayılması, paytaxt İstanbulda açıq təhdidlərə keçilməsi hökuməti tədbirlər görməyə sövq edirdi. İlk tədbir olaraq 24 aprel 1915-ci ildə erməni komitə mərkəzlərinin bağlanması, erməni təşkilatlarının sənədlərinə əl qoyulması və komitəçilərin həbs edilməsi qərarı verildi. O zaman erməni dilində çıxan “Horizon” qəzeti yazırdı: “Erməni xalqı bir-iki min komitəçidən ibarət deyil və biz mütləq Ermənistanın müstəqil olması davasını davam etdirəcəyik”.

Avropalı tarixçi Eqdar Qranvillin yazırdı: “Çarın himayəsində bir Ermənistan” kimi xəyallar uğrunda məsum insanlar iztirab çəkməyəcəkdi”. Bu məsələdə “ən böyük cani” isə Qranvillə görə, ilk günlərdən İslam dünyasına fəlakət yağdırmaqdan bir an geri qalmayan Rusiya çarlığıdır”.

* * *

Hələ müharibədən öncə Anadoluda başlayan və ətrafa yayılan erməni üsyanları tədbirlər görməyi tələb edirdi. Ermənilər Osmanlı dövlətinə zərbələr vurmaqda idilər. Onlar ruslarla əlaqələr qurur, casusluq fəaliyyəti göstərir, müharibə gedən ərazilərdə və arxa cəbhədə dövlət üçün problemlər yaradırdılar. Bir alman generalının ifadə etdiyi kimi, “bu bölgədəki müsəlman xalqı silib-süpürməyə başlayan” ermənilərin qarşısını almağın yolları, əlbəttə, fikirləşilməli idi. “İttihad və Tərəqqi” iqtidarda olan siyasi qurum kimi öz öhdəsinə xalqı qorumağı götürmüşdüsə, deməli, bu quldur dəstələrinin qarşısı da alınmalı idi.



Üsyanları yatızdırmaq yolu tutmuş hökumət Van üsyanından sonra anlamışdı ki, müharibə dövründə ermənilərin qarşısını almaq çətin olacaq. Belə də olmuşdu. Müharibə başlanan kimi ermənilər Van, Malazgirt və Bitlisin işğalında ruslara əvəzsiz kömək göstərmişdilər. Baş Komandanlıq ermənilərin müharibənin taleyinin həllində Osmanlıya vuracaqları zərbələri göz qabağına gətirərək 2 may 1915-ci ildə daxili işlər naziri Tələt paşaya məktub göndərmişdi. Məktubda bildirilirdi ki, ermənilər üsyanları və təxribatları davam etdirmək üçün çeşidli bölgələrdə hazırlıq aparırlar. Buna cavab olaraq Tələt paşa 23 may 1915-ci ildə 4-cü Ordu Komandanlığına bir şifrə göndərərək, “Ərzurum, Van və Bitlis vilayətlərindən çıxarılan ermənilərin Mosul vilayətinin cənub hissəsi, Zor sancağı və mərkəzindən başqa Urfa sancağına, Adana, Hələb, Maraşdan çıxarılan ermənilərin isə Suriya vilayətinin Şərq hissəsi ilə Hələb vilayətinin Şərq və Cənub-Şərqinə köçürülüb yerləşdirilmələrini” istəmişdi. Bu işləri görmək üçün Adana, Hələb və Maraş bölgəsinə müfəttişlər göndərilmişdi.

Göstərişin erməniləri yox olmaqdan qorumaq məqsədi daşıdığını bir sıra tədqiqatçılar söyləməkdədirlər. Məsələn, məşhur alim Samuel Uimzə görə, erməniləri savaş bölgəsindən uzaqlaşdırmaq, başqa sözlə, onların xilası anlamına gəlirdi. Osmanlı dövləti bu tədbiri o dövrün şərtlərinə uyğun olaraq, qanuna bağlamışdı. Ona “Müharibə işərisində olan dövlət idarəçiliyinə qarşı gələnlər üçün hərbi biliklər tərəfindən alınacaq tədbirlər” adı qoymuşdu. Qanun 26 may 1915-ci ildə Məclisin gündəminə gətirilmiş və həmin tarixdən tədbirin keçirilməsini qəbul edən qərar verilmişdi.

Qanunda göstərilirdi ki, “köçürülmə zamanı əhalinin əmniyyəti qorunmalı və bütün iaşə ehtiyacları ödənməlidir. Erməni əhaliyə hücum edənlər və ya məmurlar haqqında şiddətli qanuni tədbirlər görülməli və bu şəxslər dərhal həbs olunaraq Divani-hərblərə təslim edilməlidir”. 1920-ci ildə Londonda Aram Andonyan adlı birisi “Naim bəyin xatirələri” adlı kitabında vicdansızcasına Tələt paşanı ittiham edirdi. Guya, o, erməniləri məhv etmək göstərişi vermişdir. Kitabda göstərilən sənədlərin saxta olduğunu tədqiqatçılar sübut etmişlər.

* * *

Osmanlı arxivlərində aparılan araşdırmalarla bir daha sübut olundu ki, Tələt paşanı hədəfə almaq üçün uydurulan bu şifrə tamamilə saxtadır. Saxta iddialardan biri də Morqentaunun xatirələridir. ABŞ-ın Osmanlı dövlətində səfiri olan H.Morqentau 1913-1916-cı illər arasında İstanbulda çalışıb və kənara çıxmayıb. Yəni, o, hansısa erməninin öldürüldüyünü görə bilməzdi. Onun qələmə aldığı kitab nəşr olunana qədər mətbuatda və ya rəsmi dairələrdə heç bir məlumat olmamışdı ki, səfir xatirə və ya kitab yazır. Bunlar, eləcə də digər tarixi sənədlər sübut edir ki, Morqentaunun belə bir kitabı olmayıb və ona aid deyil. Bölgədə maraqlarını təmin etmək siyasəti aparan ABŞ belə təbliğat üsullarından istifadə etmək məqsədi güdmüşdü. Kitabda ermənilərin “soyqırımına” məruz qalması iddiaları da həmin məqsədlərdən irəli gələn uydurmadır. Yəni, belə bir fikir yaratmağa çalışmışlar ki, ABŞ bu bölgədə olmasa qan su yerinə axa bilər.

Digər bir iddia – Arnold Toynbinin “1915-1916-cı illərdə Osmanlı İmperatorluğunda ermənilərə qarşı edilmiş hərəkətlər” adı ilə tanınan və 1916-cı ildə yenə də təbliğat məqsədi ilə çap olunan “Mavi kitab”dır. Artıq dünyada hər kəsə – tarixçiyə, araşdırmaçıya, elm adamına və siyasətçiyə bəllidir ki, bu kitab İngiltərə hökuməti tərəfindən hazırlatdırılıb və müharibə təbliğatı məqsədilə çap edilib. Bu da “erməni soyqırımı” uydurmasının saxtalığına dair növbəti sübut. İngilislər özləri də bu kitabın təbliğat məqsədi ilə yazıldığını etiraf etmişlər.

Ermənilərin tez-tez dilə gətirdikləri, dünyanın müxtəlif parlamentlərinə təqdim edərək müəyyən dərəcədə istəklərinə çatdıqları digər bir fakt Birinci dünya müharibəsindən sonra qurulan Divani-hərb məhkəmələridir. Bu məhkəmələr İstanbulu işğal etmiş və burada ağalıq edən “böyük güclər”in təzyiqi altında keçirildiyindən alınan qərarlar da birtərəfli olmuşdur. O da məlumdur ki, ingilislərin həbs edib Maltaya sürgünə göndərdikləri “İttihad və Tərəqqi” rəhbərlərinin “erməni soyqırımı”nı törətməsini sübut edən bircə fakt tapa bilməmişlər. İngilislər belə faktları tapmaq üçün çox ciddi tədqiqatlar aparmışlar. Araşdırmalar zamanı həbs olunanlar barədə heç bir dəlil məhkəməyə təqdim edilməmişdir. Məhkəmənin məhkum kimi haqsız yerə edam etdikləri şəxslərin günahsızlığını sonralar ingilislər, fransızlar özləri etiraf etməyə məcbur olmuşlar. Edama məhkum edilənlər bəraət almışlar.

* * *

Türkiyə Respublikası Başbakanlıq Dövlət Arxivləri Baş Müdirliyi tərəfindən buraxılmış iki cildlikdə erməni komitəçilərinin 518.105 türkü öldürdükləri tarixi sənədlərlə ortaya qoyulmuşdur. Türkiyə dövlət səviyyəsində dəfələrlə bəyan etmişdir ki, arxivləri bütün dünya, o cümlədən erməni tarixçilərinin üzünə açmağa hazırdır. Elm adamlarının, elmi mərkəzlərin işini asanlaşdırmaq üçün internetdə ayrıca web səhifələri də açılıb. Bununla bağlı bir tarix komissiyasının qurulması təklifini irəli sürən Ankaraya ermənilər bugünədək cavab verməyiblər. Bu, o anlama gəlir ki, yaradılacaq beynəlxalq komissiya türklərin deyil, ermənilərin soyqırımı işlədiyi qənaətinə gələcək.

Ermənistanda bu narahatlığı dilə gətirən türkoloqlar var. Sonralar bir daşnakçı terrorist Şərqi Anadoluda baş verən hadisələr barədə bu gerçəkləri söyləmişdi: “Ərzurumdan 1890-cı ildə başlayan ilk üsyanın ardınca Qumqapıdan davam etdirməyimiz ermənilərin Kayseridə, Yozqatda, Çorumda da ayağa qalxmasına səbəb oldu. Biz istəyirdik ki, hər iki tərəfdən adamlar ölsün. Bu ölümlər iki xalqın bir yerdə yaşamaq istəmədiyi anlamına gələcəkdi. Zeytun və Sasunda buna biz nail olduq”.

Həqiqətən də, 1892-93-cü illərdə adı çəkilən yerlərdə, Merzifonda, 1896-da Van üsyanı və Osmanlı Bankının tutulması, 1903-cü ildə ikinci Sasun üsyanı, 1905-ci ildə Sultan Əbdülhəmidə sui-qəsd edilməsi, nəhayət, 1909-cu ildə Adana üsyanı ermənilərin xəyanətindən xəbər verirdi. XX əsrin sonlarında Dağlıq Qarabağda da ona görə təxribatlar, qətllər törədilirdi ki, ermənilərlə azərbaycanlıların bir yerdə yaşamasının mümkün olmadığı təsəvvürü yaransın.

Hər bir saxta ideologiya, yalan və iftira sonunda onu uyduranların başında çatlayır. Yuxarıda qeyd etdiyimiz kimi, bu saxta iftira iflasa məhkumdur. Bundan əvvəlki illərdə də ermənilər parlamentlərdən təqdim etdikləri layihəni keçirmək üçün ən müxtəlif üsullara əl atmışdılar. Ayrı- ayrı ölkə parlamentlərindən “erməni soyqırımı” qərarı çıxarmaq üçün bəzən rüşvət vermək yolunu da seçmişdilər. Ölkələr bəzən bu qərara siyasi gözlə nəzər yetirmişdilər. Türkiyəyə təzyiq etmək, bəzi məqsədləri həyata keçirmək vasitəsi kimi baxmışdılar. Məsələn, ABŞ uzun müddət bu məsələyə “soyqırımı” deməkdən çəkinmişdi. C. Bayden prezidentliyə namizədliyini irəli sürərkən erməni seçicilərinin səsini almaq üçün belə bir səhvi etdi və haqlı olaraq Amerikada buna görə tənqid olundu. Ondan öncəki heç bir prezident 24 aprel çıxışlarında bu sözü işlətməmişdir.

* * *

“Erməni soyqırımı” ideologiyasının içi boş olduğunu həm dünya, həm də ermənilərin özləri yaxşı bilirlər. Onlar Türkiyəni olmayan bir şeyi qəbul etməyə məcbur edə bilməzlər. Bunun mənasız cəhdlər olduğu arxasındakı hədəflərin həyata keçirilməsinin mümkünsüzlüyü ilə bağlıdır. Ermənilərin özlərini dünyaya təqdim edəcəyi başqa bir şeyləri olmadığından hələ ki, saxta “soyqırımı” ilə ortaya çıxırlar və təbii ki, bu, artıq ikrah doğurmaqdadır və iflasa məhkumdur.

Heç bir beynəlxalq məhkəmə dəlil yetərsizliyi səbəbindən erməni iddialarını qəbul etməyib. Hətta Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatası 2017-ci ilin mayında Türkiyənin Vətən Partiyasının sədri Doğu Perinçekin lehinə qərar qəbul edəndən sonra ermənilərin bununla bağlı xəyalları suya düşmüş oldu. AİHM-dəki Doğu Perincek davası “erməni soyqırımı” ideologiyası ilə bağlı Ermənistan dövlətinin və diasporun dünyada sürdürdüyü antitürk fəaliyyətlərinə böyük zərbə vurdu. Buna qədər onlar zənn edirdilər ki, beynəlxalq məhkəmələrdə Türkiyəni məhkum edən qərarlar çıxarda biləcəklər. Amma ortaya o çıxdı ki, dünyanın müxtəlif ölkələrinin parlamentlərinə təqdim olunan və qəbul edilən “erməni soyqırımı” qərarları siyasi xarakter daşıyıb və məhkəmə predmeti ola bilməz. Hər hansı cinayətin isbatı üçün məhkəmə qərarı olmalıdır və Avropa İnsan Haqları Məhkəməsinin Doğu Perincək lehinə çıxardığı qərar da ermənilərin həmin məsələ ilə bağlı müraciətetmə imkanını məhdudlaşdırdı.

Tarixə baxsaq, Osmanlı dövlətinin təhcirlə bağlı 1915-ci il 27 may tarixli qərarı ölkənin bir yerində yaşayan erməni əhalinin ölkənin başqa bir ərazisinə müvəqqəti köç etdirilməsi həmin ölkənin qanuni haqqı idi. Müharibənin diktə etdiyi məcburi addım kimi çox dəqiqliklə yerinə yetirilmişdir və bu zaman heç bir soyqırımı törədilməmişdir. Ermənilərin hər il hay-küy qaldırdıqları 24 apreldə də insan ölümü ilə nəticələnən bir hadisə baş verməmişdir.

Sual oluna bilər ki, təhcir zamanı heç erməni itkisi olmamışdımı? Əlbəttə, olmuşdur. Bunu heç kim danmır. Müharibənin ağır şərtlərini həm də müxtəlif epidemiyalar müşayiət etmişdir. Xəstəlikdən və başqa səbəblərdən yüz minlərlə insan ölmüşdür, həm də təkcə ermənilər yox, türk-müsəlman əhali arasında çox itkilər, köç etdirilən erməni karvanlarına qaçaqquldur dəstələrinin basqınları, öldürülüb mal- mülkünün yağmalanması kimi hallar da olmuşdur. Dirəniş göstərən üsyançı silahlı erməni qruplara qarşı da müxtəlif yerlərdə əməliyyatlar keçirilmişdir. Amma dövlət bütün gücü ilə öz vətəndaşlarını qorumaq tədbirlərini görmüşdür. Amma yenə insan ölümləri ilə nəticələnən hadisələrdən qaçmaq mümkün olmamışdır. Osmanlı dövlətinin məqsədi erməniləri fiziki cəhətdən aradan qaldırmaq olsaydı, niyə köç etdirdiyi ərazilərdə bunu edirdi, elə yaşadıqları yerlərdə məsələni bitirərdi. Dövlətin bir milləti ortadan qaldırmaq siyasəti olmamasını dünyanın ən məşhur tarixçiləri də təsdiq edirlər.

* * *

Ermənilərin keçən əsrdən bəri davam etdirdikləri və 30-dan çox ölkənin parlamentindən keçirdikləri “erməni soyqırımı” iddiası çökməkdədir. Aydındır ki, BMT-nin 1948-ci il “Soyqırımın qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiyasının müddəaları ilə bir araya sığmayan və beynəlxalq hüquqa zidd olduğu sübuta yetirilən əsassız iddialardır. Ermənilər bunu anlamağa başlayıblar, onu daim gündəmə gətirmək, dünya siyasətini və ictimai rəyi girov götürmək məqsədi daşıyan bu gedişlər nəticə vermir. Yeni dünyanın şəkilləndiyi indiki zamanda saxrakarlıqla, yalan iddialarla çıxış etmək ermənilərin özlərini etibarsız millət durumuna salmış, “erməni soyqırımı” ideologiyası iflas etmişdir.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

**Azərbaycan ilə Çin Xalq Respublikası arasında münasibətlər çoxillik tarixə malikdir. 1991-ci ilin dekabr ayında Azərbaycan Respublikasının müstəqilliyini tanıyan Çin dövləti ilə dostluq münasibətləri ildən-ilə yüksələn xətlə inkişaf edib. Ötən müddətdə dövlət başçılarının, eləcə də nümayəndə heyətlərinin səfərləri qarşılıqlı inam və etimadın getdikcə güclənməsinə, iki ölkə arasında əlaqələrin genişlənməsinə səbəb olub. Bununla yanaşı, ölkələrimiz beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Məhz bunun nəticəsidir ki, hazırda Çin Xalq Respublikası ölkəmizin ən böyük ticarət tərəfdaşları sırasında 4-cü yeri tutur.**

# Azərbaycan – Çin iqtisadi əməkdaşlığı hərtərəfli inkişaf mərhələsində



Azərbaycan Prezidenti İlham Əliyevin Çinə növbəti dövlət səfəri isə ikitərəfli əlaqələrin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün əlverişli imkanlar yaradıb. Yeri gəlmişkən, ötən il iyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı zamanı dövlətimizin başçısının Çinə rəsmi səfərə dəvət edilməsi dünyanın iqtisadi nəhənginin ölkəmizlə əlaqələrə verdiyi önəmin və xüsusi diqqətin nəticəsi idi.

Səfər çərçivəsində əldə olunmuş razılaşmalar, imzalanmış sənədlər, xüsusən də Azərbaycanla Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat bu baxımdan xüsusi önəm kəsb edir. Sənəddə hər iki dövlət başçısının diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan – Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirilərək səmimi və dostluq mühitində danışıqlar aparıldığı, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul edildiyi və digər mühüm məqamlar vurğulanıb.

Bəyanatda, həmçinin tərəflərin müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılığa gəlindiyi diqqətə çatdırılıb. Birgə Bəyanatda tərəflərin iki ölkə arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunu gücləndirməyi davam etdirməyə hazır olduqları ifadə edilib.

Ticarət, investisiyalar, "yaşıl" enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsini, eləcə də ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə vermək üçün investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olunub. Bəyanatda vurğulanan bu və digər vacib məqamlar iki ölkə arasında iqtisadi əlaqələrin miqyasının daha da genişləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Yazının əvvəlində qeyd etdiyimiz kimi, Çin Xalq Respublikası ölkəmizin ən böyük ticarət tərəfdaşlarından biridir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2005-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 273 milyon 49,7 min ABŞ dolları təşkil etdiyi halda, 2016-cı ildə bu göstərici 1 milyard 85 milyon 832,8 min dollara yüksəlib. 2024-cü ildə isə Azərbaycanla Çin arasında xarici ticarət dövriyyəsi 20,7 faiz artaraq 3,7 milyard dollar təşkil edib.

Bununla yanaşı, Azərbaycanla Çin arasında xarici birbaşa investisiya dövriyyəsi 85,9 faiz artaraq 14 milyon ABŞ dolları səviyyəsinə çatıb. Çin investorları tərəfindən Azərbaycana yönəldilən birbaşa xarici investisiyanın həcmi də əvvəlki ilə nisbətən 92,8 faiz artaraq 11,4 milyon dollar təşkil edib. Heç şübhəsiz, bütün bu göstəricilər ölkələrimiz arasında investisiya və ticari əlaqələrin yüksələn xətlə inkişaf etdiyini təsdiqləyir.

Yeri gəlmişkən, hazırda paytaxt Pekin də daxil olmaqla Azərbaycanın Çində 7 ticarət evi fəaliyyət göstərir. Azərbaycanın Çindəki ticarət nümayəndəsi Teymur Nadiroğlu jurnalistlərə bildirib ki, ticarət evləri məhsullarımızın təşviqi, investisiyaların cəlb edilməsi, turizm potensialımızın nümayişi baxımından xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, bu məkanlar Azərbaycan məhsullarını il boyu nümayiş etdirməyə imkan yaratmaqla yanaşı, çinli iş adamlarını ölkəmizə investisiya yatırmağa həvəsləndirir.

T.Nadiroğlu deyib ki, Azərbaycanın Pekin və digər şəhərlərdə fəaliyyət göstərən ticarət evlərinə çinli tərəfdaşlar tərəfindən investisiya yatırılıb və operatorluğunu da onlar həyata keçirirlər. Hətta ötən ilin sonlarında ticarət evlərindən cəlb olunan iş adamlarından ibarət nümayəndə heyətinin üzvləri Azərbaycanı ziyarət edərək ölkəmizə yeni investisiyalar yatırmaq istəyirlər. Bununla belə, hər iki ölkə qarşılıqlı ticarətin və investisiyaların həcmini daha da artırmaq üçün geniş imkanlara malikdir. Elə Birgə Bəyanatda tərəflərin ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün institusional zəmanətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə azad ticarətə dair sazişlə bağlı danışıqlara başlamağa hazır olduqlarını ifadə etmələri də məhz bu amala xidmət edir.

Azərbaycan–Çin Birgə Bəyanatının mühüm müddəalarından biri də iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək bərpa olunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə inkişaf etdirməklə bağlıdır. Məlum olduğu kimi, son illər dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçılarından birinə çevrilmiş Azərbaycanın zəngin bərpa olunan enerji potensialı uzaq Çinə də yaxşı məlumdur. Təsadüfi deyil ki, son illər Çində ölkəmizlə bu sahədə əməkdaşlığa xüsusi maraq göstərilir. Bu maraq isə aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkəmizin Energetika Nazirliyi ilə Çin şirkətləri arasında bir sıra sənədlərin imzalanması ilə nəticələndi.

"Azərbaycan Respublikasının Hökuməti və "Universal Solar Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Azərbaycan Respublikasında 100 meqavat gücündə Qobustan Günəş Elektrik Stansiyası Layihəsi ilə bağlı İnvestisiya Müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında Azərbaycan Respublikasında dənizdə külək enerjisi layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi", "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "China Datang Overseas Investment Co. Ltd" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında Böyükşor gölündə 30 meqavat gücündə batareya enerji saxlanc sistemi ilə 100 meqavat gücündə üzən günəş elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi, "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 160 meqavat gücündə günəş elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra müqaviləsi (mübadilə ediləcək)", Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında "Bərpa olunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu", eləcə də "Azərbaycan Respublikasının Energetika Nazirliyi, "SOCAR Green" Məhdud Məsuliyyətli Cəmiyyəti, "China Datang Overseas Investment Co. Ltd" və "PowerChina Resources Limited" arasında Xəzər dənizinin Azərbaycan sektorunda 2 qiqavat gücündə dənizdə külək enerjisi layihəsinin inkişafına dair Anlaşma Memorandumu" kimi mühüm sənədlər yaxın vaxtlarda iki ölkə arasında "yaşıl" enerji əməkdaşlığının genişlənməsinə gətirib çıxaracaq.

Bununla yanaşı, Birgə Bəyanatda tərəflərin sənaye sahəsində əməkdaşlığı daim dərinləşdirməyə və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəlilətməyə, eləcə də neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə iki ölkənin müəssisələri arasında əməkdaşlığın möhkəmləndirilməsi, eləcə də nəqliyyat infrastrukturunun inkişafına, logistika və daşınmaların səmərəliliyinin artırılmasına dəstəyi davam etdirməyə hazır olduqları vurğulanıb.

Bütün bunlar, eləcə də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı imzalanmış çoxsaylı sənədlər strateji tərəfdaşlara çevrilmiş iki ölkə arasında iqtisadi münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu deməyə əsas verir.

# Balaxanı Sənaye Parkı genişləndirilir

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Bakı şəhəri Sabunçu rayonunun Balaxanı qəsəbəsində yerləşən və Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun istifadəsində olan 18 min 415 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin istifadəsinə verilməsi ilə bağlı üç ay müddətində tədbirlər görüb Azərbaycan Prezidentinə məlumat verməlidir.**

Bununla yanaşı, İqtisadiyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan İnvestisiya Holdinqi bu sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görməli və digər məsələləri həll etməlidir.

Yeri gəlmişkən, son illər ölkəmizdə iqtisadiyyatın aparıcı sahəsi sayılan sənayenin inkişafına xüsusi önəm verilir. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə yüzlərlə müasir sənaye müəssisəsi yaradılıb. Bunun da nəticəsində daxili bazarın tələbatının ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib. Müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan sənaye müəssisələrində tullantıların təkrar emalı kimi yeni sahələr inkişaf etdirilməklə xammal idxalından asılılıq azaldılır, resurslara və enerjiyə qənaət olunur ki, bu da ölkədə "yaşıl iqtisadiyyat"ın yüksəlişinə geniş meydan açır.

Ölkənin qeyri-neft sənayesinin inkişafına mühüm töhfə sayılan Balaxanı Sənaye Parkı Prezident İlham Əliyevin 2011-ci il 28 dekabr tarixli Sərəncamına əsasən yaradılıb. Parkın yaradılması sahibkarlar və potensial investorlar üçün təkrar istehsal sahəsində əlverişli şəraitin yaradılması, ölkədə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, xüsusən də "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir. Balaxanı Sənaye Parkının təməli 2012-ci il dekabrın 19-da Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlət başçısının müvafiq Sərəncamı ilə İqtisadiyyat Nazirliyinin "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti Balaxanı Sənaye Parkının idarəedici təşkilatı təyin edilib. Parkın təşkili üçün üçün isə Balaxanı qəsəbəsində 7 hektar torpaq sahəsi ayrılıb. Tikinti-quraşdırma işləri çərçivəsində parkın ərazisində 23 min 460 kvadratmetrlik istehsalat və 3 min kvadratmetrlik infrastruktur zonası yaradılıb.

2017-ci il sentyabrın 22-də isə ölkə rəhbərinin iştirakı ilə Balaxanı Sənaye Parkının açılış mərasimi keçirilib. Hazırda tullantıların təkrar emalının həyata keçirildiyi sənaye parkında təbii resurslardan davamlı və səmərəli istifadəni təmin edən sahibkarlar burada rezident kimi qeydiyyata alınmaqla fəaliyyət göstərirlər. Ötən müddətdə Balaxanı Sənaye Parkında 27 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib. Müasir texnologiyaların tətbiqi ilə rəqabətqabiliyyətli məhsul istehsal edən və "yaşıl iqtisadiyyat"ın inkişafına dəstək verən rezidentlər bu məkanda "vahid pəncərə" prinsipi ilə asanlaşdırılmış qeydiyyat, qanunvericiliyə uyğun olaraq əlverişli vergi güzəştləri, bir məkanda vahid infrastruktur, "yaşıl biznes"in hesabına ətraf mühitə təsirin azaldılması, tullantıların təkrar emalı ilə məşğul olan müəssisələrə və bu sahəyə dəstək, əldə edilən xammal və istehsal olunmuş məhsullar üzrə bazarın genişləndirilməsi kimi üstünlüklərdən yararlanırlar.




# Paytaxtda yeni yol sürətlə çəkilir

**Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"na uyğun olaraq Akademik Həsən Əliyev küçəsi – "Koroğlu" metrostansiyası avtomobil yolunun tikintisi üzrə işlər davam etdirilir. Bu barədə XQ-yə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən məlumat verilib.**



Bildirilib ki, yeni yol Ziya Bünyadov və Heydər Əliyev prospektlərinə paralel olaraq layihələndirilərək inşa edilir. Dövlət Proqramına uyğun olaraq yeni avtomobil yolunun hazırda inşası davam etdirilən Akademik Həsən Əliyev küçəsi – Müzəffər Nərimanov küçəsinədək olan hissəsi 6 hərəkət zolaqlı olmaqla uzunluğu 3,9 kilometr (əlavə olaraq 2,6 km uzunluğunda qollar, ramplar və yanaşma yolları) təşkil edəcək. Layihəyə əsasən, avtomobil yolunda ümumi uzunluğu 2 min 210 metr olan 4 tunel və ümumi uzunluğu 112 metr təşkil edən 3 yeraltı piyada keçidinin tikintisi nəzərdə tutulur.

Xatırladaq ki, yeni yol Xəlil Rza Ulutürk küçəsi ilə Müzəffər Nərimanov küçəsinin kəsişməsindən başlayaraq "Ulduz" metrostansiyasının yaxınlığından keçərək Ələsgər Qayıbov küçəsindən ümumi uzunluğu 1240 metr təşkil edən 2 tunel vasitəsilə mövcud metro və dəmir yolu xətlərinin altı ilə Əliyar Əliyev küçəsinədək uzanacaq. Buradan isə Yusif Vəzir Çəmənzəmənli küçəsindən Əhməd Rəcəbli küçəsi ilə kəsişməyədək və uzunluğu 550 metr olan tunel vasitəsi ilə Aşıq Molla Cümə və Zaur Nudirəliyev küçələrinin kəsişməsindəki dairədən keçərək Koroğlu Rəhimov küçəsini kəsərək Həsən Əiyev küçəsinədək davam edəcək.

Hazırda tikinti işləri çərçivəsində Əliyar Əliyev küçəsi ilə yeni yolun kəsişməsində uzunluğu 410 metr olan tunelin inşası da həyata keçirilir. Bununla yanaşı, layihəyə uyğun olaraq yolun 3-cü kilometrlik hissəsində və Mirzə Uluqbəy küçəsində yeraltı piyada keçidlərinin inşası aparılır.



# İşsizlik azalmaqda davam edir

**Beynəlxalq Valyuta Fondu Azərbaycanda işsizlik səviyyəsinin 2024-cü ildəki 5,4 faizdən 2025-ci ildə 5,3 faizə qədər azalacağını proqnozlaşdırır. Qurumun məlumatına görə, ölkəmizdə işsizlik göstəricisi gələn il də 5,3 faiz səviyyəsində qalacaq.**

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatında isə bildirilir ki, 2025-ci il martın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 758,8 min nəfər olub. Bunun da 878,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 880,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 18,7 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,7 faizi sənaye, 8,5 faizi isə əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrində məşğul olub.

# Karbamidin 70 faizi ixrac edilir

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin I rübündə Azərbaycanda 137,2 min ton (ötən ilin eyni dövrü ilə müqayisədə 17,8 faiz çox) karbamid istehsal edilib. Aprelin 1-nə isə ölkədə 28,1 min ton hazır məhsul ehtiyatı olub.**



Xatırladaq ki, karbamid (azot gübrəsi) Azərbaycan Dövlət Neft Şirkətinin Sumqayıt Kimya Sənaye Parkının ərazisində yerləşən Karbamid zavodunda istehsal edilir. Müəssisə 2019-cu il yanvarın 16-dan fəaliyyət göstərir, il ərzində 435 milyon kubmetr təbii qazdan xammal kimi istifadə etməklə 650–660 min ton karbamid istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Aqrar sektor müasirləşir və bolluğa töhfəsini artırır

## *Dost Çin ilə "yaşıl" əməkdaşlıq da Azərbaycan kəndinə uğur qazandırır*



**Azərbaycan ilə Çin Xalq Respublikası arasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sektorda da mühüm layihələr həyata keçirilib. Bu ölkənin baramaçılıq, pambıqçılıq, çayçılıq sahəsində əldə etdiyi uğurların və zəngin təcrübənin ölkəmizdə də tədbiq olunması daim diqqətdə saxlanılıb. Çindən gətirilən barama toxumu və tut tingləri (çəkillər) ipəkçiliyin inkişafını sürətləndirib.**

Bu günlərdə isə Çinin "Dongfeng Agricultural Machinery" şirkəti ilə respublikamızın "Improtex Şirkətlər Qrupu" arasında birgə kənd təsərrüfatı texnikaları istehsal edilməsi barədə anlaşma memorandumu imzalanıb.

Memoranduma əsasən, "Dongfeng Agricultural Machinery" şirkəti "İmprotex Qarabağ Sənaye Kompleksi" şirkətinin "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yerləşən istehsal müəssisəsində kənd təsərrüfatı texnikalarının birgə istehsalını həyata keçirəcək. İstehsal olunan texnika qonşu ölkələrin bazarlarında da satılacaq. Layihə çərçivəsində istehsal və yığım xəttinin istismara verilməsi, habelə müxtəlif kənd təsərrüfatı texnikaları üçün ehtiyat hissələrin, komponentlərin və ləvazimatların da istehsalı gerçəkləşdiriləcək. Layihə çərçivəsində istehsal və yığım xəttinin istismara verilməsi, habelə müxtəlif kənd təsərrüfatı texnikaları üçün ehtiyat hissələrin, komponentlərin və ləvazimatların da istehsalı həyata keçiriləcək.

Azərbaycan ilə Çin arasında baramaçılığın inkişafı sahəsində səmərəli əməkdaşlıq əlaqələri də qurulub və bu əməkdaşlığın düşmən əsarətindən xilas olunan ərazilərin bərpasında özünü daha qabarıq nümayiş etdirəcəyi gözlənilir. Belə ki, tərəfdaşlar tərəfindən Xocalı şəhərində əkilməsi üçün artıq 130 min tut tingi gətirilib. Layihənin uğurlu nəticələr verəcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, dost ölkə Azərbaycanda aqroparkların yaradılması, suvarma sistemlərinin quraşdırılması və kənd təsərrüfatı texnikasının istehsalı üzrə birgə müəssisələrin yaradılması ilə bağlı əməkdaşlıq imkanlarının gerçəkləşdirilməsini daim diqqətdə saxlayaraq bu istiqamətlərdə müsbət nəticələr əldə edib. Çin Xalq Respublikası ölkəmizdə aqrar sektorun sürətli inkişafı məqsədilə innovasiyaların stimullaşdırılmasına müasir yanaşmalar çərçivəsində xüsusi diqqət yetirib.

İki ölkə arasında "yaşıl" enerji sahəsində əməkdaşlıq da strateji prioritet təşkil edir. Baş nazirin müavini Şahin Mustafayevin sözlərinə görə, Azərbaycan bu sahədə böyük potensiala, Çin isə geniş texnoloji resurslara və zəngin təcrübəyə malikdir.

Ümumiyyətlə, Çin Azərbaycanda "yaşıl" enerji layihələrinə xüsusi önəm verir və bu sahəyə sərmayə qoymaq planlarını nəzərdən keçirir. COP29 çərçivəsində iki ölkə arasında bərpa olunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi də buna yaxşı fürsətlər yaradır. Çin şirkətləri ilə birgə fəaliyyətə dair müzakirələr zamanı əldə olunmuş razılaşmalar da bu ölkənin Azərbaycanın "yaşıl" enerji sahəsində yaxından təmsil olunma imkanlarına işarədir.

Qeyd edək ki, mayın 14-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən iki ölkə arasında əməkdaşlıq perspektivlərindən biri kimi iqlim dəyişiklikləri ilə mübarizə və təmiz ətraf mühit quruculuğunda əlaqələrin birləşdirilməsi, COP29 çərçivəsində Azərbaycanda həyata keçirilən tədbirlərə dəstəyin göstərilməsi və digər məsələlərə də xüsusi diqqət yetirilib. Ölkəmiz COP29 çərçivəsində Çin Xalq Respublikası ilə əməkdaşlığa xüsusi önəm verir və ölkəmizin nümayəndə heyətinin Çinə planlaşdırılan səfəri də bu sahədə birgə səylərin artırılmasına işarə edir. Eyni zamanda, Şen Yueyuen bərpaolunan enerji sahəsində Çin şirkətlərinin Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdiklərini bəyan etməklə gələcəkdə qarşılıqlı layihələrin icra olunacağından bəhs edib.

Son illərdə Çin şirkətləri tərəfindən Azərbaycanda "yaşıl" enerji dəhlizləri və interkonnektorlarının yaradılması, "yaşıl" enerjinin ixracı, "yaşıl" hidrogen və "yaşıl" ammonyakın istehsalı-nəqli, eləcə də enerji saxlanc sistemləri üzrə layihələrə sərmayə qoymaqda maraqlı olmaları bildirilib.

Görülən işlərin nəticəsidir ki, hazırda Azərbaycanda suvarılan əkin sahələrinin 10 faizində müasir suvarma sistemləri qurulub. Bu, fermer təsərrüfatlarında tətbiq edilən pivot suvarma sudan daha qənaətlə istifadəyə (40 faizə qədər), məhsuldarlığı və suvarma səmərəliyini artırmağa imkan verib. Son illərdə isə ölkədə fermerlərə müasir suvarma sistemlərinin (yağış yağdırma, damcı suvarma və s.) tətbiqi ilə bağlı dünyada alternativi olmayan dövlət dəstəkləri göstərilib.

Fermer təsərrüfatlarında tətbiq edilən pivot suvarma sudan daha qənaətlə istifadə olunmasına (40 faizə qədər), məhsuldarlığın və suvarma səmərəliyinin artırılmasına, sahədə su sərfiyyatının dəqiq hesablanmasına, gübrə və digər kimyəvi maddələrin su ilə birgə tətbiq edilməsinə imkan verir, torpaq eroziyası riskini azaldır.

Bütün bu məsələlərlə bərabər, qeyd edək ki, qlobal iqlim dəyişikliyinin – quraqlıqlar, daşqınlar və yanğınların aqrar sahə üçün ciddi təhdidlər, ölkələrin ərzaq təhlükəsizliyinin təmin olunması üçün isə mühüm risklər yaratdığı məlumdur. Buna görə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında bütün dövlətlər iqlim dəyişikliyi ilə bağlı üzərlərinə götürdükləri öhdəliklərə ciddi yanaşmalı və bu sahədə qəbul etdikləri təşəbbüsləri həyata keçirmək üçün fəal çalışmalıdırlar.

Ekspertlərin fikrincə, aqrar sahədə mövcud çətinliklərin aradan qaldırılması, keyfiyyətli məhsul istehsalı və ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə iki və çoxtərəfli platformalarda əməkdaşlığa xüsusi önəm verilməli, aqrar sektorun əsas hərəkətverici qüvvəsi olan fermerlərin maddi şəraitinin yaxşılaşdırılması daim diqqətdə saxlanılmalıdır. İkitərəfli və çoxtərəfli platformalarda əldə olunmuş razılıqlar kağız üzərində qalmamalı, kağız diplomatiyasından konkret fəaliyyət və icra diplomatiyasına keçilməlidir. Başqa sözlə, qlobal təşəbbüslərin uğurla icrası və aqrar sahədə dayanıqlı inkişafa nail olmaq üçün bütün dövlətlər tərəfindən maliyyə ayrılmasına xüsusi önəm verilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar bu gün kənd təsərrüfatının inkişafını daha da sürətləndirir və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək layihələri gerçəkləşdirilir. Bunun nəticəsində fermerlərin həyat səviyyəsi getdikcə yüksəlir, aqrar sahənin dayanıqlı inkişafı təmin edilir.

Qeyd edək ki, 30 il işğal altında qalmış Azərbaycan torpaqları minalanıb, su mənbələri çirkləndirilib, ətraf mühitə böyük ziyan vurulub. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra həmin ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə başlanılıb. Məqsəd isə bu ərazilərin aqrar potensialından səmərəli istifadə etmək, dağıdılmış kənd təsərrüfatı infrastrukturunu yenidən qurmaq və bu torpaqlara yeni həyat bəxş etmək olub. Bu prosesdə ən müasir aqrar innovasiyaların tətbiqi diqqətdə saxlanılıb.

Yeri gəlmişkən, Azərbaycan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatı respublikamızın ərzaq təhlükəsizliyinin gerçəkləşdirilməsində, eləcə də iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Bununla bərabər ölkədə aqrar sektorun yeni qabaqcıl texnologiyalar əsasında inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələr də mühüm önəm daşıyır. Bu baxımdan respublikada torpaq və su ehtiyatlarının məhdud olması şəraitində kənd təsərrüfatında qarşıya qoyulan əsas vəzifələrdən biri də məhsuldarlığı artırmaqla daha böyük istehsal həcmləri yaratmaqdan ibarətdir.

Azərbaycanda hazırda taxılçılıq regionlarında 15 min hektara qədər sahədə innovativ texnologiyalar tətbiqi, rəqəmsal həllərə üstünlük verilməsi məhsuldarlığın və səmərəliliyin artmasına müsbət təsir göstərir. Bu, eyni zamanda, əkin vaxtının dəqiq müəyyənləşdirilməsinə, lazımi gübrələrdən geniş istifadə olunmasına, torpağın nəmliyinin saxlanılmasına və məhsul yığımı üçün optimal vaxta nəzarət etməyə imkan verir.

Ekspertlərin fikrincə, respublikada innovativ texnologiyaların tətbiqi əmək, su, gübrə və ümumilikdə, istehsal xərclərini azaldır, eyni zamanda, istehsalın səmərəliliyini artırmağa əlverişli şərait yaradır. Buna görə də bir çox taxılçılıq təsərrüfatlarında torpaqda nəmliyin qorunub saxlanması və torpaqların alt münbit olmayan qatının üzə çıxarılmaması və yüksək məhsuldarlıq göstəricilərinin gerçəkləşdirilməsi üçün innovativ torpaqqoruyucu texnologiyalardan geniş istifadə edilir. Bu zaman "ağıllı" kənd təsərrüfatı texnikalarından istifadə diqqətdə saxlanılır. Xüsusilə torpaq becərilməsində, torpağın səpinə hazırlanmasında, səpin aparılmasında, gübrələmə və dərmanlama proqramlarının icrasında işlədilən "GPS" naviqasiya sistemləri ilə təchiz olunur.

Mütəxəssislərin fikrincə, belə texnikalar vasitəsilə həyata keçirilən texnoloji və digər əməliyyatlar, demək olar ki, baş verə biləcək xətaları minimuma endirir. Məhz bunun nəticəsidir ki, qeyd edilən şəkildə təchiz olunan ayrı-ayrı taxılçılıq təsərrüfatlarında ərzaqlıq buğdanın orta məhsuldarlıq göstəriciləri (hektara 55-60 sentner arasında dəyişir) daha yüksəkdir. Eyni zamanda, istehsal olunan buğda məhsulunun keyfiyyəti də dövlət standartının tələblərinə cavab verir. Hər il bu innovativ texnologiyalar ölkəmizin müxtəlif taxılçılıq regionlarında 15 min hektara qədər sahədə tətbiq olunur.

Son illər ərzində "Strip-till" texnologiyasının tətbiq edildiyi əkinlərdə isə payızlıq buğdanın hektara orta məhsuldarlığı 58 sentner təşkil edib. Bu da respublika üzrə hər hektardan, təqribən, 25-26 sentner əlavə ərzaqlıq buğda məhsulunun istehsalına imkan verib. Bu texnologiya "zolaqlı torpaq becərilməsi" adlanır və o, dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ, Kanada, Böyük Britaniya, Almaniya, Fransa və bir çox Avropa ölkələrində geniş yayılıb. Bu zaman Polşa istehsalı olan, kombinə edilən və bir gedişdə bir neçə əməliyyatı eyni vaxtda reallaşdıran "Mzuri" texnikasına üstünlük verilib. Bu texnologiya ölkənin qərb bölgəsində buğda və təkrar qarğıdalı əkinlərində tətbiq edilib. Yeni texnologiyanın tətbiqi ilə torpaq hazırlığından tutmuş səpinə qədər olan bütün əməliyyatlar tam şəkildə bir gedişdə icra olunub. Bu da resurslara kifayət qədər qənaət olunmasına imkan yaradıb.

"Strip-till" texnologiyasının tətbiqi dizel yanacağına 50 faiz qənaət olunmasına, atmosferə atılan karbon qazının 80 faizə qədər azalmasına imkan verir. Eyni zamanda, bu texnologiya torpağın üçdə iki hissəsinin dincə saxlanılmasına, hektara gübrə normasını 50 faizə qədər azaldılmasına, torpağın kimyəvi maddələrlə çirklənməsinin qarşısının alınmasına və məhsuldarlığın artmasına şərait yaradır.

Qeyd edək ki, "Mzuri" ehtiyatlara qənaət edən "Strip till" texnologiyası Azərbaycanda ilk dəfə "Azərşəkər" MMC-nin Ceyrançöl ərazisində yerləşən aqroparkında təkrar qarğıdalı və soya əkini zamanı istifadə olunub. Onun üstün cəhəti 4 prosesi (dərin yumşaltma, dərinlik boyu gübrə emalı, müxtəlif çeşidli toxumların dəqiq səpini və bərkidici çarxlarla toxumların basdırılması) eyni vaxtda yerinə yetirməsidir. Bu texnikanın istifadəsinin əsas məqsədi suya və yanacağa qənaət, torpağın münbit qatının qorunub saxlanması və havaya buraxılan zəhərli qazların təsirinin aradan qaldırılmasıdır.

Azərbaycanda iqtisadiyyatın mühüm sahələrindən sayılan kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorun inkişafını ləngidən problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması istiqamətində reallaşdırılan tədbirlər diqqət çəkir. Son illərdə dövlətin bu sahədə həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı layihələri aqrar sektorda təşəbbüskarlığa geniş meydan açıb. Məhz bunun nəticəsidir ki, iri biznes qruplarının, eləcə də kiçik və orta sahibkarların kənd təsərrüfatı sektorunda xüsusi fəallığı müşahidə olunur.

Azərbaycan əhalisinin, təqribən, yarısının yaşadığı regionlarda kənd təsərrrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən istənilən tədbir yerlərdə məşğulluğun təminatına mühüm töhfə verir. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bu da ölkədə bitkiçilk və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.

Yeri gəlmişkən, respublikada aqrar layihələrin davamlı həyata keçirilməsinin nəticəsidir ki, cari ilin birinci rübündə 1 milyard 602 milyon manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,9 faiz çoxdur. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Bildirilib ki, son 1 ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 13 faiz artaraq 91,5 milyon manata, heyvandarlıq məhsullarının dəyəri isə 1,2 faiz artaraq 1 milyard 510 milyon manata çatıb.

Hazırda ölkədə yaz-tarla işləri davam etdirilir. Cari ilin yanvar-mart aylarında 122,2 min hektar sahədə və ya ötən ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox yazlıq bitkilərin səpini aparılıb. İlin əvvəlindən 24 min hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 5,1 min hektarı dən üçün qarğıdalı), 26,9 min hektar sahədə tərəvəz, 26,1 min hektar sahədə kartof, 3,9 min hektar sahədə bostan bitkiləri, 3,1 min hektar sahədə dən üçün günəbaxan, 1,6 min hektar sahədə şəkər çuğunduru, 0,1 min hektar sahədə pambıq, 33,1 min hektar sahədə çoxillik otlar və 3,4 min hektar sahədə birillik otlar əkilib.

Beləliklə, aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, eləcə də heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinin təminatı ilə yanaşı, ixrac potensialının da artırılmasına mühüm töhfələr verir. Gələcəkdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında da aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, eləcə də yeni iş yerlərinin yaradılacağı qeyd olunur.

***V.BAYRAMOV,***
***M.QULİYEV***
***XQ***

# Özəlləşdirmə və icarədən büdcəyə 50 milyon manat daxil olub

**Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin yanvar-mart ayları ərzində ölkədə 11 hərrac keçirilib. Qurumdan bildiriblər ki, hərraclarda 4 səhmdar cəmiyyətinin səhm paketi, 1 kiçik dövlət müəssisəsi və 223 nəqliyyat vasitəsi özəlləşdirilib.**



Bu ilin yanvar–mart ayları ərzində hərraca çıxarılmış dövlət əmlakı üzrə 71 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 12 onlayn qoşulma reallaşıb.

Dövlət Xidmətinin məlumatına əsasən, 2025-ci ilin birinci rübündə özəlləşdirmədən dövlət büdcəsinə 40,3 milyon manat vəsait daxil olub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 87,9 faiz çoxdur.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən bu ilin birinci rübündə 137-si qeyri-yaşayış, 847-si isə torpaq sahələri üzrə olmaqla 984 yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövründə daşınmaz dövlət əmlakının (qeyri-yaşayış və torpaq sahələrinin) icarəsindən dövlət büdcəsinə 10,4 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Bu sahədə ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artım qeydə alınıb.

Beləliklə, 2025-ci ilin yanvar–mart ayları ərzində dövlət əmlakının özəlləşdirilməsindən və icarəsindən büdcəyə, ümumilikdə, 50,7 milyon manat vəsait daxil olub. Bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 65,2 faiz çoxdur.

***XQ***

# Enerji sisteminin qoyuluş gücü artıb

**Energetika Nazirliyinin 2024-cü ildə görülmüş işlərə dair hesabatına əsasən, 2024-cü ildə Azərbaycanın enerji sistemində qoyuluş gücü 8416 meqavat (98 stansiya) (2023-cü illə müqayisədə 105 meqavat və ya 1,2 faiz çox) təşkil edib.**



Hesabatda qeyd edilir ki, hazırda ölkədə 2 elektroenergetika sistemində ümumi gücü 6623 meqavat olan 22 istilik elektrik stansiyası, 1407 meqavatlıq 58 su elektrik stansiyası, 63,62 meqavatlıq 5 külək elektrik stansiyası, 278 meqavatlıq 9 günəş elektrik stansiyası, 37 meqavatlıq 1 bioenerji elektrik stansiyası, 7,4 meqavatlıq 3 ədəd hibrid elektrik stansiyası istismar edilir. Su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1792,64 meqavatdır ki, bu da ümumi istehsal gücünün, təxminən, 21,3 faizini təşkil edir.

***XQ***

**Elxan Qasımov – 80**

# Kinomuzun "sürücü Əhməd"i

**Tanınmış Azərbaycan kinorejissoru, aktyor, Əməkdar artist Elxan Qasımov bütün varlığı ilə kinoya bağlı insan olub. Neçə-neçə bədii və sənədli filmdə, "Mozalan" satirik kinojurnalında ən kiçik rollarda belə parlaq çıxışları ilə yadda qalıb. Elxan Məmməd oğlu Qasımov 24 aprel 1945-ci ildə Naxçıvanda anadan olub. Orta məktəb illərində pionerlər evində rəqs dərnəyinə gedib, festival laureatı olub. Sonra idmanla məşğul olub, hətta Naxçıvanın gənclərdən ibarət voleybol komandasında çıxış edib. İlyarım oradakı Dövlət Mahnı və Rəqs Ansamblında peşəkar rəqqas, solist olan Əminə Dilbazi, Əlibaba Abdullayev, Böyükağa Məmmədov, Xumar Zülfüqarova kimi görkəmli baletmeysterlərdən dərs alıb və ölkə xaricinə qastrollara gedib.**



Elxan sonrakı yarıməsrlik ömrünü bütünlüklə kinoya həsr edib. Bakıda İncəsənət İnstitutunun aktyorluq fakültəsində – Adil İsgəndərovun kursunda Amaliya Pənahova, Əbdül Mahmudov, Xamis Muradov, xanəndə Arif Babayev, Siyavuş Aslan, Lütfiyar İmanov, Şəfiqə Məmmədova ilə eyni qrupda oxuyub. Daha sonra Leninqradda Teatr, Kino və Musiqi İnstitutunun rejissorluq fakültəsində təhsil alıb.

Elxan Qasımov 1969-cu ildən "Azərbaycanfilm" kinostudiyasında işləyib. Onun filmoteka siyahısında 42 adda ekran işinin adı sıralanır. "Gözlə məni", "İnsan məskən salır", "İstintaq", "Köhnə bərə", "Qatır Məmməd", "Nəsimi", "Nizami Gəncəvi", "O qızı tapın", "Otel otağı" və sair filmləri qeyd etmək olar. Neçə-neçə bədii və sənədli filmlərin, "Mozalan" süjetlərinin də müəllifi olub. Amma ondan söhbət düşən kimi əksəriyyət məşhur "Əhməd haradadır?" filmindəki sürücü Əhmədi xatırlayıb gülümsəyir. Bu ekran işindəki koloritli oyunu, replikaları, jestləri, xüsusilə də tikinti meydanında rəqs edib yıxılması təbiiliyi ilə seyrçilərin rəğbətini qazanıb. Elə Nərgiz xalanın – Xalq artisti Nəcibə Məlikovanın onun "ZİL" maşınını "qaçırması", sürücünün qaranəfəs maşının arxasınca qaçması epizodu da yaddaqalan səhnələrdəndir. Rəqqaslığı və maşın sürmək bacarığı onun karına gəlib.

Mərhum həmkarım Tahir Abbaslı onun 70 yaşı olanda sənətkardan maraqlı müsahibə almışdı. Elxan Qasımovun fəaliyyət arsenalındakı yaradıcılıq "silah-sursat"ından sevgilərlə bəhs etmiş, kino ilə bağlı özəl düşüncələrinə səxavətlə yer ayırmışdı. Elə həmin müsahibədən öyrənmişdik ki, uşaqlığımızın sevimli filmi olan "Əhməd haradadır?" düz 1 ay hər gün "Nizami" kinoteatrının böyük salonunda 4 seansla nümayiş etdirilibmiş. Onda 18 yaşı olan tələbə – gənc aktyor bir neçə günə şöhrət qazanmışdı. İllər sonra da çoxları ona "Elxan müəllim" əvəzinə "Əhməd müəllim" deyə müraciət edirdi. Yəni, öz dili ilə desək, bir obrazla şəxsi-fərdilikdən çıxıb, ümum-ictimai personaya da çevrilə bilib.

(Həyatın istehzasına baxın ki, filmdə Nərgiz xalanın qaçırdığı yük maşınını birtəhər saxlayıb təhlükəni sovuşduran "sürücü Əhməd" – Elxan Qasımov sonralar həyatda başqa bir yük maşınının "sayəsində" sağalmaz yara alıb: oğlu, həm də rejissor olan Samirin qəzaya düşüb həyatını itirməsi ilə hüznlərə gömülüb)...

Mərhum yubilyar həm də uzun illər kinostudiyada həmkarlar ittifaqının sədri olub və qayğıkeşliyi ilə seçilib, kollektivin diqqət uman qisminə bacardığı qədər maddi və mənəvi kömək edib. Dostlarının dediyinə görə, məşhur kinorejissor Şamil Mahmudbəyovun 100 illiyi ərəfəsində qəbirüstü abidəsinin yenilənməsi də onun təşəbbüsü ilə gerçəkləşib.

...Elxan Qasımovun rejissurası ilə ərsəyə gələn filmlərdən biri "Biz qayıdacağıq" olub. Filmdə Qarabağ müharibəsi – işğal, Xocalı faciəsi, köçkünlük iztirabları süjet xəttinin əsasını təşkil edir və uşağın dili ilə canlandırılır. Davanın dəhşətləri balaca soydaşımızın gözləri önündə baş verib. Heç bir güc onu öz torpağına qayıtmaq arzusundan döndərə bilmir... Elxan Qasımov filmdə ulu torpaqların həsrətini kino vasitəsi ilə ifadə edib. O, 5 il əvvəl Vətən müharibəsində qazandığımız zəfərlə torpaq həsrətini ovutdu. Amma bu sevinci cəmi 3 il yaşadı. İndi artıq 2 ildir ki, bizləri özünün cismani varlığına həsrət qoyub.

Ruhu şad olsun...

*Əli NƏCƏFXANLI*
*XQ*



# "Abay" Azərbaycan dilində



**Atatürk Mərkəzində görkəmli qazax yazıçısı Muxtar Auezovun "Abay" kitabının təqdimatı olub. Mərkəzin və Beynəlxalq Türk Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən mərasimdə Milli Məclisin deputatları, elm və söz adamları, mədəniyyət xadimləri, həmçinin, media nümayəndələri iştirak ediblər.**

Azərbaycan Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov Muxtar Auezovun həyat və yaradıcılığı barədə ətraflı məlumat verərək, onun "Abay" romanında türk xalqlarının ortaq mənəvi dünyasını əks etdirdiyini vurğulayıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev tədbirin əhəmiyyətindən danışıb. Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel isə "Abay" romanının Azərbaycan oxucusuna təqdim olunmasını ölkələrimiz arasında mədəni əlaqələrin inkişafı baxımından mühüm hadisə kimi dəyərləndirib.

XIX əsrdə qazax xalqının həyatından bəhs edən "Abay" romanı Muxtar Auezovun böyük ustalıqla qələmə aldığı "sosial ensiklopediya" olmaqla yanaşı, dünya romançılıq mədəniyyətinə böyük töhfə vermişdir. Yazıçı əsərin baş qəhrəmanı olan Abayın şəxsində milli psixologiyanın, sosial yaşamda etnik-milli şüurun formalaşmasını fərqli rəng çalarları ilə göstərə bilmişdir.

*Fidan SALMANOVA*
*XQ*

**Yeni kitablar**

# Həkim-filosofun "idrak pəncərəsi"

**Təcrübəli həkim-filosof Sabir Əzizoğlunun yenicə işıq üzü görən kitabı "Fəlsəfənin fizioloji və ilahi mahiyyəti" adlanır. "Elm və təhsil" nəşriyyatında çap olunmuş bu kitabda fundamental mövzulara özəl fəlsəfi baxış sərgilənib. Müəllif yaranışın dərkində, insan fiziologiyasının sirlərinin açılmasında ilahi hikmətlərin böyük rol oynadığını elmi müstəvidə əsaslandırmağa çalışıb.**




Sabir Əzizoğlunun elmi-fəlsəfi yaradıcılığına yetərincə bələd olan filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlı yazır: "Sovet dönəmində elmi həqiqətləri dini təsəvvürlərlə bağlamaq fanatizm, cahillik sayılırdı. Buna görə də alimlərin özləri belə dini mənbələrə, xüsusən Qurana istinaddan çəkinirdilər. Halbuki haqqın dərk olunmasında elmin, elmi sirlərin açılmasında ilahi hikmətlərin rolu danılmazdır. Yaranışın elmi məqsədli olduğunu oxucularına aşılayan kitablar çox az yazılır. Kəhkəşan, aləm elmə az məlum olan sirlər üzərində qurulmuşdur və gözəgörünməz tellərlə bir-biri ilə vəhdətdədir. Uzun müddət həkim işləmiş, tibbin sirlərinə dərindən bələd olan və bəzi məsələlərin təcrübi tərəfini dərindən bilən Sabir Əzizoğlu Əliyev kitablarında elmi-mənəvi mövzuları ətraflı araşdırır, ənənəvi yanaşma prinsipindən fərqli şəkildə yeni fikirlər irəli sürür".

Müəllifin təqdim olunan kitabı da bu baxımdan istisna deyil. Əsərdə fəlsəfə elminin fizioloji əsasları ətraflı izah olunur, yeni fikirlər irəli sürülür. Dünya və insan münasibətləri, düşüncənin forma və hüdudları araşdırılır, bəşər övladının fəlsəfi-fizioloji inkişafı, mahiyyəti, nitq qabiliyyətinin inkişafı haqqında bəlli bilgilərə yeni baxış bucağından yanaşılır. İnsanın yaradıcılıq funksiyası da elə elmi yaradıcılıq təhlili süzgəcindən keçirilir. Kitabın annotasiyasında da qeyd olunduğu kimi, Sabir Əzizoğlu insanı əhatə edən aləmdə və cəmiyyətdə cərəyan edən qanunauyğunluqlar, ilkin materiyaya, mənəvi ruhi halın fəlsəfi anlamına diqqət yönəldib, insanın mənəvi dünyasına üz tutub və bir çox sirli məqamları üzə çıxarıb. Əsərdə fərd, şəxs, şəxsiyyət anlayışlarının fəlsəfi "kod"larının açılmasına üstünlük verilib, mahiyyət və təzahürün dialektikası elmi əsaslarla izah edilib.

Fəlsəfə elmləri doktoru Füzuli Qurbanov rəyində göstərir ki, bizim əsrdə də aktuallığını itirməyən fəlsəfənin dərkinə özəl cəhdlər edilməsi təqdirəlayiqdir. "Elm tarixindən məlumdur ki, konkret elm sahələrinin təmsilçiləri fəlsəfəni çalışdıqları sferanın "idrak pəncərə"sindən anlamağa meyil etmişlər. Məsələnin bu tərəfi də olduqca maraqlıdır. Çünki fəlsəfə bütün intellektual-elmi fəaliyyət sahəsini əhatə etdiyindən, ayrı-ayrı elmlərin işığında onun necə göründüyü qiymətlidir... Bu qısa izahlar onu göstərir ki, indi həm elmi, həm də fəlsəfi baxımdan ən müasir problemlərin həllində qarşılıqlı əlaqə prinsipial aktuallıq kəsb edir. Bu prizmadan baxanda fəlsəfənin mahiyyətində elmiliklə ilahiliyin nisbətinin axtarışı da çox maraqlı və əhəmiyyətli görünür. Bu istiqamətdə çalışanların sırasında Azərbaycan həkimi və alimini görmək, təbii ki, xoşdur. S.Əzizoğlunun bu kitabı vurğuladığımız məqamların işığında maraqlı görünür".

Yeni kitabın "Dünya yaranıb elm ilə incə, dərk edib düşünmək layiqdir öncə", "Mahiyyət və təzahür nədir?", "Fəlsəfə elminin fizioloji əsasları", "İlahi mahiyyət", "Üstün yaradıcı düşüncə formalarının təhlildə ardıcıllığı", "Əqli nəticə – fizioloji dəyərləndirmə" və s. kimi bölümləri (bunların ümumi sayı 47-dir) elmi, yəni inandırıcı əsaslandırmaları ilə maraq doğurur. İnamla demək olar ki, Sabir Əzizoğlunun yeni kitabının başlıca məziyyəti yaranışın məğzini anladan elmin, ilahi qüvvəyə əsaslı inamın və imanın sayəsində oxucunun qəlbini nurlandırmaq cəhdidir.

*Ə.DOSTƏLİ*
*XQ*

# MEK-də sərgi




**Dünən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü idi. Bununla əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) sərgi təşkil edilib.**

Kitabxanadan mətbuata bildirilib ki, MEK-in fondlarındakı nəşrlər əsasında təşkil edilən sərgidə "Müəllif hüququ", "Kitabxanaşünaslığın tarixi və metodologiyası", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "Ulu öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri", "Heydər Əliyev irsinin kitabxanalarda tədqiqi və təbliği", "Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti", "Kitabxanaşünaslığa giriş", "Kitabın bədii və texniki tərtibatı", "Kitabxana işinə dair rəsmi sənədlər", "Azərbaycan kitabxana ensiklopediyası", "Nəşriyyat işi və redaktə məsələləri" və digər nəşrlər var.

Həmçinin sərgidə Mərkəzi Elmi Kitabxana tərəfindən tərtib edilən biblioqrafik göstəricilər və informasiya bülleteni də yer alıb.

*XQ*

# UNESCO Aşıq Ələsgəri yad edəcək

**UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının təşəbbüsü və dəstəyi, eləcə də Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq qərarı ilə Aşıq Ələsgərin (22 mart 1821 – 7 mart 1926) vəfatının 100-cü ildönümü beynəlxalq qurumun 2026–2027-ci illər üzrə qeyd olunacaq tədbirlər proqramına daxil edilib.**



Bu barədə Milli Komissiyanın baş katibi Seymur Fətəliyev "Qədim mətnlər və klassik mənbələr ermənicilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" və ya "Azərbaycan əraziləri haqqında etno-coğrafi hay-erməni hiylə və fitnələri" mövzusunda keçirilən konfransda çıxışı zamanı məlumat verib. Onun açıqlamasına görə, bu məsələnin UNESCO-nun İcraiyyə Şurasının 2025-ci ilin aprelində keçirilmiş 221-ci sessiyasında müzakirə edilərək təsdiqlənməsi mühüm nailiyyətdir.

"Əminəm ki, Aşıq Ələsgərin vəfatının 100-cü ildönümünün 2026-cı ildə UNESCO səviyyəsində qeyd olunması prosesində dövlət qurumları ilə yanaşı, Qərbi Azərbaycan icmasının nümayəndələri də iştirak edəcək, xalqımızın zəngin mədəniyyətinin dünya ictimaiyyətinə layiqincə tanıdılmasına dəyərli töhfələrini verəcəklər" – deyə Seymur Fətəliyev bildirib.

*XQ*

# ADU Beynəlxalq Təhsil Sərgisində



**Azərbaycan Dillər Universitetinin (ADU) Konfutsi İnstitutunun əməkdaşları Bakıda "GLC International Education Fair" şirkətinin təşkil etdiyi Beynəlxalq Təhsil Sərgisində iştirak ediblər.**

ADU-dan mətbuata bildirilib ki, çinli müəllimlər sərgi iştirakçılarına Konfutsi İnstitutunun fəaliyyəti, Çin dili kursları, institutun Çinin aparıcı universitetləri ilə semestr və illik tələbə mübadiləsi proqramları haqqında geniş məlumat veriblər.

Konfutsi İnstitutunun stendində Çin dilinin tədrisində ən müasir texnologiyaların tətbiqi nümayiş olunub. İştirakçılar Konfutsi İnstitutunun maddi-texniki bazası və elmi tədqiqatları, həmçinin institutun nəşr etdiyi metodiki vəsaitlər və proqramlar, milli Çin dili dərslikləri ilə tanış olublar.

ADU-nun Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov xalqlarımız araasında dil mübadiləsi sahəsində əməkdaşlığın inkişafı, iki ölkənin təhsil müəssisələrində Çin və Azərbaycan dillərinin tədrisinin təşviq ilə yanaşı, Konfutsi institutlarının inkişafının dəstəklənməsinə də böyük əhəmiyyət verilir.

*XQ*

# "Şükriyyə" tamaşası Mingəçevir Teatrında

**Mədəniyyət Nazirliyi regionlara təşkil olunan qastrol səfərlərini davam etdirir. Layihə çərçivəsində Akademik Milli Dram Teatrının "Şükriyyə" tamaşası Mingəçevir Dövlət Dram Teatrında nümayiş olunub.**



Teatrdan bildirilib ki, yazıçı Cavid Zeynallının "Şükriyyə" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur. Yeni yaradıcılıq işində Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artistlər Münəvvər Əliyeva, Mehriban Xanlarova, Vəfa Rzayeva, Şəlalə Şahvələdqızı, aktyorlar Afət Məmmədova, Rada Nəsibova, Ləman İmanova, Dilarə Nəzərova, Rüstəm Rüstəmov, Aylin Həşimova, Lalə Süleymanova, Nəzrin Abdullayeva, Elsevər Rəhimov və Tural İbrahimov çıxış ediblər.

Qeyd edək ki, tamaşa Azərbaycanın istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin Qazaxıstandakı sürgün həyatı haqqındadır.

Nümayişin sonunda çıxış edən Mingəçevir Dövlət Dram Teatrının direktoru, Əməkdar artist İntiqam Soltan səfəri ölkənin teatr həyatı üçün əlamətdar hadisə kimi dəyərləndirib və Akademik Milli Dram Teatrına təşəkkür diplomu təqdim edib.

*XQ*

# London görüşü niyə təxirə salındı?

**Dünən Londonda ABŞ-ın təşəbbüsü ilə Rusiya və Ukrayna arasında sülh danışıqları baş tutmalı idi. Xatırladaq ki, müzakirələrin birinci raundu ötən həftə Parisdə keçirilmişdi. Bu dəfə gözlər artıq Londona dikilimişdi və müəyyən ümidlər yaranmışdı.**



Lakin aprelin 23-ü səhər saatlarında məlum oldu ki, Böyük Britaniya, Fransa, Almaniya və Ukraynanın xarici işlər nazirləri Londona gəlməyəcəklər. "Sky News" telekanalının məlumatına görə, buna səbəb o olub ki, həmin ərəfədə ABŞ-ın dövlət katibi Marko Rubio və Trampın xüsusi elçisi Stiven Uitkoff Böyük Britaniyaya səfərlərini ləğv etməli olublar.

London danışıqları nəyə görə təxirə salındı? Nüfuzlu "Daily Telegraph" qəzeti dünən yazıb ki, ABŞ hökuməti London görüşü ərəfəsində 7 bənddən ibarət "Sülh planı" hazırlayıb. Sənədə əsasən, rəsmi Kiyev Britaniya paytaxtında Krımın Rusiyaya ilhaq edilməsinə razılıq verməli idi. Bundan başqa, Ukrayna NATO-ya daxil olmaqdan imtina etməyi də bir öhdəlik olaraq boynuna götürməli idi. Vaşintqton, eyni zamanda, Moskvaya qarşı sanksiyaları ləğv edəcəyini vəd verirdi.

Bu şərtlər Rusiyaya sərf etsə də, Ukraynanı heç cür qane etmirdi. Ukraynanın dövlət başçısı ona göstərilən güclü təzyiqlər qarşısında geri çəkilməyib. Belə ki, Prezident Volodimir Zelenski iki gün əvvəl Kiyevdə keçirdiyi brifinqdə birmənalı şəkildə bəyan edib ki, Krım Ukrayna torpağıdır və onun ölkəsinin ərazi bütövlüyü müzakirə mövzusu ola bilməz.

Ukrayna Prezidenti deyib: "Bizim komandaya gəlincə, sabah (dünən-müəllif) onun əlində olan mandat var - bu, qeyd-şərtsiz atəşkəs və ya qismən atəşkəslə bağlı müzakirədir. Biz bu mərhələyə hazırıq". Zelenskinin sözlərinə görə, atəşkəsdən sonra da Ukrayna Rusiya ilə sülh ilə bağlı müzakirələri davam etdirməyə hazırdır: "Biz atəşkəsdən sonra istənilən formatda danışıqlar masasına oturmağa hazırıq ki, proses dalana dirənməsin".

Məlumat üçün bildirək ki, Ukraynanın Londona yola düşəcək nümayəndə heyətinə Prezident Ofisinin rəhbəri Andrey Yermak, onun müavini Pavlo Palisa, Xarici İşlər Nazirliyinin rəhbəri Andrey Sıbiqa və müdafiə naziri Rüstem Umerov daxil idilər.

Beləliklə, Ağ evin yeni rəhbəri D.Trampın Ukraynada sülhə nail olmaq cəhdləri hələlik heç bir real nəticə vermir. Bu ayın sonunda onun ikinci dəfə prezident kimi fəaliyyətə başlamasından 100 gün keçəcək. Bir çoxları ümid edirdilər ki, ABŞ lideri həmin vaxta qədər Rusiyanı cəbhədə döyüşləri dayandırmağa razı sala biləcək.

Göründüyü kimi, Moskva qeyd-şərtsiz atəşkəsə razı olmur və əlavə tələblər irəli sürür. Üstəlik, Rusiya aviasiyası Ukraynanın şəhər və kəndlərini bombalamaqda davam edir. Dünən Dnepropetrovsk viyayətinin Maraqnests şəhərində sərnişin avtobusu PUA zərbəsinə tuş gəlib. Bu zaman 9 nəfər həyatını itirib, azı 30 nəfər yaralanıb. Rusiya hərbçiləri dünən gecə Ukraynanın Odessa və Xarkov kimi böyük şəhərlərini də ağır aviazərbələrə məruz qoyublar. Bundan başqa, Poltava da aviasiyanın hədəfində olub.

Ukrayna tərəfi də Rusiyanın bir çox sərhəd şəhərlərinə çox sayda dron zərbələri endirib. Lakin rəsmi Moskva dağıntı və itkilər barədə məlumat verməyib. Dünən cəbhənin bir çox istiqamətlərində ağır döyüşlər gedib. Rusiya hərbçilərinin müəyyən üstünlüyə nail olduğu bildirilir.

Bu arada məlum olub ki, NATO-nun baş katibi Mark Rutte aprelin 24–25-də ABŞ-yə səfər edəcək. Bu barədə NATO-nun Brüsseldəki mənzil-qərargahının mətbuat xidməti məlumat yayıb. Maraqlıdır ki, alyans şefinin Vaşinqtonda Prezident Trampla görüşü planlaşdırılmayıb. "Mark Rutte ABŞ dövlət katibi Marko Rubio, müdafiə naziri Pit Heqset və milli təhlükəsizlik müşaviri Mayk Uolts ilə görüşəcək", – məlumatda bildirilib.

Rəsmi Kiyevi indi ən çox narahat edən odur ki. London görüşünün təxirə salınması Vaşinqtonu əsəbiləşdirə bilər və Ağ ev tamamilə Ukraynanı özünün hərbi və maliyyə dəstəyindən məhrum edə bilər. Hər halda, Ukrayna nəyin bahasına olursa-olsun, özündən qat-qat böyük resurslara malik olan rəqibinə qarşı mücadiləni davam etdirmək əzmindədir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Diaspor Komitəsinin sədr müavini Borçalıda





**Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) sədr müavini Vaqif Seyidbəyovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 21-də Gürcüstana işgüzar səfər çərçivəsində Tbilisi şəhərində Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, büstünün önünə gül dəstələri düzmüşdür.**

Səfər çərçivəsində Azərbaycanın Gürcüstandakı səfirliyini ziyarət edən nümayəndə heyətinin Marneuli, Bolnisi, Dmanisi, Rustavi, Saqareco, Qardabani və Laqodexi rayonlarında fəaliyyət göstərən icma mərkəzləri və həmin rayonların rəhbərliyi ilə görüşlərin keçirilməsi də nəzərdə tutulur.

Marneulidəki "Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov bildirib ki, Gürcüstana səfəri çərçivəsində Vaqif Seyidbəyov və komitənin məsul əməkdaşları, eləcə də Azərbaycan Diasporuna Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev onların məkanına da baş çəkiblər. Məhəbbət İmanov qonaqlara "Azərbaycan Evi"nin fəaliyyəti və görülən işlər barəsində ətraflı məlumat verib. Görüşdə "Azərbaycan Evi"nin qarşısına qoyulmuş məqsəd və vəzifələr barəsində fikir və təkliflər səsləndirilib.

Marneuli rayonunda Gürcüstan Azərbaycanlılarının İnteqrasiyası Mərkəzinin (GAİM) rəhbəri Murad Muradov bildirib ki, qonaqlar mərkəzin fəaliyyəti, həyata keçirlən layihələr, gələcək fəaliyyət planı ilə tanış olublar. GAİM-in fəaliyyətini yüksək qiymətləndirilib, gələcəkdə Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən dəstək göstəriləcəyi vurğulanıb.

Komitə sədrinin müavini GAİM-də uşaqların bilik səviyyəsi və dərnəklərin fəaliyyəti ilə tanış olub, mərkəzlərdə həyata keçirilən, eləcə də perspektivdə nəzərdə tutulan layihələrlə bağlı tövsiyələrini verib.

Sonra Vaqif Seyidbəyovun Marneuli meri Kənan Ömərovla görüşündə qarşılıqlı maraq doğuran layihələr barədə geniş fikir mübadiləsi aparılıb. O qeyd edib ki, Azərbaycan və Gürcüstan arasında strateji tərəfdaşlığın inkişafı və genişləndirilməsi daim hər iki ölkə rəhbərlərinin diqqət mərkəzindədir: "Bu baxımdan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin aprelin 16-da Azərbaycana səfəri mühüm əhəmiyyət kəsb edir. Cənab Prezident İlham Əliyev vurğulayıb ki, Gürcüstan və Azərbaycanın birgə icra etdikləri layihələr həm ölkələrimiz və xalqlarımız üçün, həm də daha böyük coğrafiya üçün vacib önəm daşıyır".

Vaqif Seyidbəyov bildirib ki, bu gün Azərbaycanla Gürcüstan arasında qarşılıqlı-faydalı münasibətlər mövcuddur və bu əlaqələr əsl regional əməkdaşlıq nümunəsidir.

***P.ƏMİRCANOV***
***XQ***

**Dünən günorta saatlarında Türkiyənin İstanbul şəhərində güclü zəlzələ olub. Qardaş ölkənin Təbii Fəlakət və Fövqəladə Halların İdarə Edilməsi Agentliyinin (AFAD) məlumatına görə, aprelin 23-də gündüz saat 12:49-da İstanbul sahillərində Mərmərə dənizi bölgəsində 6,2 bal gücündə zəlzələ baş verib, ardınca çox sayda afterşoklar olub.**

# İstanbulda 6,2 bal gücündə zəlzələ olub

## Zaval görməyəsən, qardaş Türkiyə!







Zəlzələdən sonra çağrı mərkəzinə 6 mindən çox müraciət daxil olub. Bu barədə daxili işlər naziri Əli Yerlikaya "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib. "Çağrı mərkəzimiz 6 100 müraciət qəbul edib. Bu zənglərin əksəriyyəti məlumat almaq məqsədi ilə edilib", – deyə nazir bildirib.

Dünən axşam saatlarında yerli mediaya verilən məlumatlara görə, zəlzələ nəticəsində xəsarət alan 151 vətəndaş şəhər xəstəxanalarına yerləşdirilib. Xoşbəxtlikdən onların həyati üçün ciddi təhlükə yoxdur. Qeyd olunur ki, zədə alanlar əsasən təlaşa düşərək özlərini yüksək yerlərdən yerə tullayanlardır.

İstanbulda məktəb və universitetlərdə 2 günlük tətil elan edilib. Təhsil naziri Yusif Tekin deyib ki, dövlət qurumlarında işləyən əlillər, hamilə qadınlar, müharibə əlilləri və 10 yaşdan kiçik uşağı olan analar bu müddət ərzində inzibati məzuniyyətli sayılacaqlar. Səhiyyə və təhlükəsizlik qurumlarında çalışan əməkdaşlara isə, bu, şamil edilmir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbuldakı zəlzələ ilə bağlı əhalini təşvişə düşməməyə çağırıb. Vurğulayıb ki, bütün dövlət qurumları təbii fəlakətlə əlaqədar hazırda gücləndirilmiş iş rejimində işləyir.

İstanbuldakı zəlzələnin Azərbaycana hansı təsiri ola bilər? AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli bu sualın cavabında belə deyib: "Türkiyədə avtoşoklar enerji boşalması olana qədər davam edəcək. Həmin zəlzələ zəif deyil, güclüdür. Uzun müddət gərginlik yaşayan bölgədə parçalanmalar baş verir, bu da enerji boşalmasının davam etməsinə səbəb olur. Bu zəlzələnin bizim ölkəyə heç bir təsiri yoxdur. Həmin zəlzələ bizim zəlzələ ocaqlarını oyada bilməz".

Dünən zəlzələdən təxminən bir saat sonra İstanbul Qəbzə Texniki Universitetinin II kurs tələbəsi, həmyerlimiz Qabil Rəhimli ilə əlaqə saxladıq. O dedi ki, hazırda avtoşoklar hiss olunur, amma hamı ümid edir ki, Allah İstanbul sakinlərini öz himayəsində saxlayacaq.

Gənc həmyerlimiz onu da bildirdi ki, şəhər sakinlərinə, eləcə də gənc tələbələrə gecə saatlarında hündür mərtəbəli binalarda qalmamalarını tövsiyə ediblər. Ona görə də Qabil tələbə dostları ilə birlikdə kitabxanada gecələməyi düşünür.

**P.S.Yazını bitirəndə ürəyimdən tam səmimi olaraq bir nida qopdu: Allah səni qorusun, Türkiyəm!**

***M.HACIXANLI***
***XQ***



## "Sabunçuavtomatikaquraşdırma "ASC-nin 2024-cü il dekabrın 31-nə mühasibat balansı

**Ölçü vahidi: manatla**

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə 2024-cü il | Əvvəlki dövr üzrə 2023-cü il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Torpaq. tikili və avadanlıqlar | 70819.75 | 135229.7 |
| Ehtiyatlar | 12427.79 | 12108.34 |
| Qısamüddətli debitor borcları | 178507.92 | 110874.31 |
| Sair qısamüddətli aktivlər | 155100.50 | 436.60 |
| **CƏMİ AKTİVLƏR** | 416855.96 | 258648.95 |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 152354 | 152354 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 185518.59 | 52168.3 |
| Qısamüddətli kreditor borcları | 78983.37 | 54126.65 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 416855.76 | 258648.95 |

## Ləğv prosesində olan "Salyan Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

27 may 2025-ci il saat 14.00-da Salyan rayonunun, Aşağı Noxudlu kəndində ləğv prosesində olan "Salyan Nəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Növbədənkənar ümumi yığıncağın gündəliyi:

1. Ləğv prosesində olan "Salyan Nəqliyyat" ASC-nin ləğvetmə balansının və qalıq əmlakının iştirakçılar arasında bölünməsi planının təsdiq edilməsi.

Ləğv prosesində olan "Salyan Nəqliyyat" ASC-nin təsviyəçisi.

## "Bakı Yastıq Zavodu" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2025-ci il saat 18.00-da "Bakı Yastıq Zavodu" ASC səhmdarlarının ümumi yığıncağı cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Təftiş komissiyasının hesabatı.
2. İdarə heyətinin hesabatı.
3. Digər məsələlər.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 81 (30775) 24 aprel 2025-ci il, cümə axşamı

İdman

## Atıcılıq Federasiyası “Dünyanın ən yaxşı”dır



**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində təşkil olunmuş VII Etnosport Forumu çərçivəsində Azərbaycan Respublikası Atçılıq Federasiyası (ARAF) Dünya Etnoidman Birliyinin “Dünyanın ən yaxşı ənənəvi idman təşkilatı” mükafatına layiq görülüb.**

Mükafat federasiyanın milli-mənəvi irsin qorunması, ənənəvi atçılıq növlərinin inkişafı və beynəlxalq səviyyədə təbliği sahəsindəki töhfələrinə, habelə idman və mədəniyyətin qovşağında dayanan layihələrin uğurla reallaşdırılmasına görə təqdim olunub.

Həmçinin forumda təqdimatlar, müzakirələr və əməkdaşlıq sessiyaları çərçivəsində müxtəlif ölkələr arasında təcrübə mübadiləsi aparılıb, gələcəkdə birgə layihələrin reallaşdırılması imkanları nəzərdən keçirilib.

## 4 klub cərimələnib

**AFFA İntizam Komitəsinin iclasında Misli Premyer Liqasının XXXI turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**

“Araz-Naxçıvan” – “Turan Tovuz” oyununun 78-ci dəqiqəsində ev sahibi komandanın futbolçusu Vanderson Melo ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb, klubu 500 manat cərimə edilib.

Qarşılaşma bitdikdən sonra meydançaya kənar şəxslərin daxil olması Naxçıvan təmsilçisini daha 800 manat ziyana salıb. Azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə etdiyinə görə isə qonaqlar 1500 manat cərimə ödəyəcək.

Bundan başqa, “Kəpəz”lə ev matçının 85-ci dəqiqəsində “Şamaxı”nın futbolçusu Maykl Tuik ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb, klubu 500 manat cərimələnib. Gəncə təmsilçisinin ehtiyat skamyaya vurduğu zərər qonaq komanda tərəfindən ödəniləcək.

*L.QURBANOVA*
*XQ*

HAVA

## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Cənub-şərq küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 11-15°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq.**

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18° , gündüz 25-30°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# Qırğız torpağında Azərbaycan günləri





**Qırğız Respublikasında keçirilən Azərbaycan Respublikası Mədəniyyəti Günləri çərçivəsində nümayəndə heyətimiz “Ata-Beyit” Milli Tarixi-Memorial Kompleksini ziyarət edib.**

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli abidənin önünə çiçək çələngi qoyub. Ölkəmizin Qırğızıstandakı səfiri Lətif Qəndilov və Azərbaycandan gələn qonaqlar kompleksin qarşısına tər qərənfillər düzüblər. Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun kompleks ərazisindəki məzarı da ziyarət olunub, abidəsinin önünə çiçəklər düzülüb, ədibin ruhuna dua oxunub.





Kompleksin muzey bölməsi ilə tanış olub. Onlara memorial kompleks və muzey haqqında ətraflı məlumat verilib. Bildirilib ki, “Ata-Beyit” kompleksi 2000-ci ildə açılıb. Repressiya qurbanlarının adları muzeydəki xatirə lövhəsində həkk edilib və orada onların şəxsi əşyaları və sənədləri saxlanılır. Siyasi baxışlarına görə edam edilən siyasi, dövlət və ictimai xadimləri arasında Ç.Aytmatovun atası Törökul Aytmatov da olub.

***

**Mədəniyyət Günləri çərçivəsində bu ölkənin mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Mirbek Mambetəliyev və Azərbaycanın mədəniyyət naziri Adil Kərimli arasında ikitərəfli görüş olub.**

Nazirlər 2025–2026-cı illər üçün mədəni əməkdaşlığın inkişafına dair rəsmi idarələrarası Praktiki Tədbirlər Planı (yol xəritəsi) imzalayıblar. Sənəd yeni birgə təşəbbüslərin həyata keçirilməsinə və iki dövlət arasında çoxillik tərəfdaşlığın möhkəmləndirilməsinə yönəlib.

Tərəflər mədəni-humanitar dialoqun inkişafı üçün möhkəm bazaya çevrilmiş Qırğızıstan və Azərbaycanın ümumi tarixi və mənəvi dəyərlərini vurğulayaraq ikitərəfli mədəniyyət mübadiləsi üçün mühüm layihələri müzakirə ediblər. Qeyd edilib ki, Çingiz Aytmatovun romanı əsasında hazırlanmış “Manqurt” və Hüseyn Cavidin “İblis” pyesinin tamaşaları mədəni mübadilənin uğurlu addımıdır. Bunun dvamı olaraq qırğız dramaturqu Kayrat İmanəliyevin əsəri əsasında “Qorqut Ata” tamaşası hazırlanıb və ötən günlərdə Bakıda nümayiş etdirilib.

***

**Dünən Çingiz Aytmatov adına Qırğızıstan Dövlət Milli Rus Dram Teatrında Azərbaycan Dövlət Pantomim Teatrının rejissoru, aktyor, pedaqoq Ceyhun Dadaşov ustad dərsi təşkil olunub. Səhnə məşğələsində teatrda fəaliyyət göstərən studiyanın və incəsənət məktəbinin tələbələri, gənc aktyorları iştirak ediblər.**

C.Dadaşov aktyor sənətinin spesifik xüsusiyyətləri barədə məlumat verib, ifaçılıq manerası ilə bağlı fikirlərini bölüşüb. İnteraktiv formatda keçən dərsdə gənclər səhnədə rejissorun aktyor oyunu ilə bağlı tapşırıqlarını əyani icra ediblər. Pantomimanın ümumi teatr estetikasının tərkib hissəsi olduğunu vurğulayan rejissor onun daha çox hərəkətin dinamikasına əsaslandığını diqqətə çatdırıb.

***

**Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikovanın Qırğızıstan Milli İncəsənət Muzeyində “Mirzə Qədim İrəvani: Şərq və Avropa sənət üslublarının kəsişməsində” mövzusunda mühazirəsi dinlənilib.**

Sənətşünas qeyd edib ki, rəssam bir çox sahələri əhatə edən yaradıcılığında klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrini Avropa realist boyakarlığının nailiyyətləri ilə ahəngdar şəkildə birləşdirərək orijinal üslub formalaşdırıb. Azərbaycan təsviri sənəti tarixində yeni mərhələnin başlanğıcını qoyan M.Q.İrəvaninin zərif koloritli naxışlarla və ornamentli şəbəkələrlə işlənmiş, dərin bədii-estetik təsir gücünə malik tabloları, monumental portret və kompozisiyaları kamil sənət nümunələri kimi bu gün də yüksək dəyərini qoruyub saxlayır.

Mədəniyyət sahəsi üzrə tələbələrin və mədəniyyət işçilərinin iştirak etdiyi mühazirə maraqla qarşılanıb.

*XQ*

# Ölkəmiz III MDB Oyunlarına hazırlaşır

## *Bakıda yarışla bağlı ilk mətbuat konfransı keçirilib*





**Azərbaycan daha bir mötəbər idman tədbirinə – III MDB Oyunlarına evsahibliyi etməyə hazırlaşır. Aprelin 23-də MDB ölkələrinin ən güclü atletlərinin iştirak edəcəyi və “Hər qəlbdə bir qələbə!” şüarı altında keçiriləcək nüfuzlu yarışa hazırlıqla bağlı ilk mətbuat konfransı keçirilib.**

Konfransda tədbirə hazırlıq mərhələsi haqqında media nümayəndələrinə ətraflı məlumat verilib. Qeyd olunub ki, Təşkilat Komitəsinin üzv qurumları, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti ilə birgə inzibati məsələlər, tədbir məkanlarının hazırlıq vəziyyətinə gətirilməsi, iştirakçıların akkreditasiyası, yerləşdirilməsi və digər məsələlər üzrə hazırlıq işlərini davam etdirilir.

**Tədbirdə çıxış edən Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin mətbuat katibi Arzu Hüseynova Azərbaycanın müxtəlif beynəlxalq miqyaslı tədbirlərə yüksək səviyyədə evsahibliyi etdiyini qeyd edib:**

– Ölkəmizdə keçirilən tədbirlərdən həmişə üzüağ çıxmışıq. Görülən işlər dünya standartlarına cavab verib. Ümumilikdə, 23 idman növü üzrə təşkil ediləcək Oyunlar Azərbaycanın 7 bölgəsində – Gəncə, Qəbələ, Şəki, Yevlax, Xankəndi, Göygöl, Mingəçevir şəhərlərində keçiriləcək. Yarışın açılış və bağlanış mərasimi isə Gəncə şəhər stadionunda olacaq.

Qeyd edilib ki, ümumilikdə 23 idman növü üzrə 12 idman obyektində yarışlar keçiriləcək. Oyunlarda 5 min 500-ə yaxın atletin iştirakı gözlənilir. Tədbirə MDB ölkələri ilə yanaşı, digər ölkələrin də dəvət olunması planlaşdırılır. Milli komandanın qarşısına ən yüksək hədəflər qoyulacaq. İdmançılarımız daha yaxşı nəticələr üçün mübarizə aparacaqlar.

Oyunlarda medallarla bağlı narazılıq və problemlərin olmaması üçün maksimum dərəcədə işlərin görüləcəyi də vurğulanıb.

Mətbuat konfransında III MDB Oyunlarının maskotları da məlum olub. Enerjili, mehriban Bəbir və Leyla Oyunların simvollarıdır. Onlar Qafqaz bəbirinin obrazında yaradılmaqla, sadəcə simvol deyil, həm də Azərbaycanın zəngin təbiətini, gücünü və qonaqpərvərliyini parlaq şəkildə təcəssüm etdirirlər. Bu nadir heyvan ölkəmizin füsunkar guşələrində qədim dövrlərdən bəri məskunlaşıb. Qeyd edək ki, bəbir Qafqazda nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş 5 fauna növünün qorunmasını əhatə edən “Böyük beşlik” Proqramına, Azərbaycan Respublikasının “Qırmızı Kitab”ına və sayı “kritik həddə olan növ” kateqoriyası altında Beynəlxalq Təbiəti Mühafizə İttifaqının “Qırmızı Siyahısı”na daxil edilib.

Sonra Oyunların rəsmi internet saytı təqdim edilib. Vurğulanıb ki, artıq istifadəyə verilən www.cisgames2025.com saytında tədbirlə bağlı bütün məlumatları, o cümlədən hazırlıq prosesi, yarış cədvəlləri, idman məkanları, könüllü və media qeydiyyatı ilə bağlı ən son yenilikləri əldə etmək olar.

**Bakı Şəhər Halqasının şöbə rəhbəri İranə Əhmədova yarışla bağlı Könüllü Proqrama start verildiyini deyib:**

– Proqram çərçivəsində Bakı və bölgələrdən 3 minə yaxın könüllünün Oyunlara cəlb ediləcəyi gözlənilir. Regionlarda bu istiqamətdə gənclərlə maarifləndirici görüşlər keçirilir. Əsas məqsəd bölgələrdə gənclərin bacarıqlarının inkişafına, beynəlxalq təcrübə və biliklərinin artırılmasına dəstək olmaqdır.

Qeyd edək ki, III MDB Oyunları sentyabrın 28-dən oktyabrın 8-dək davam edəcək. Bu məqsədlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyul 2024-cü il tarixli Sərəncamına əsasən Təşkilat Komitəsi yaradılıb.

Xatırladaq ki, MDB Oyunlarına ilk dəfə 2021-ci ildə Rusiyanın Kazan şəhəri, 2023-cü ildə isə Belarusun paytaxtı Minsk ev sahibliyi edib. Azərbaycanın III MDB Oyunlarına ev sahibliyi etməsi təsadüfi deyil. Belə irimiqyaslı daha bir tədbirin ölkəmizdə təşkili Azərbaycanın beynəlxalq arenada növbəti uğurudur.

*Leyla QURBANOVA*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3432
SİFARİŞ 750
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00